www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6-7 fevral 2016-cı il Şənbə № 28 (6349) Qiymıəti 60 qəpik

**Xəbər**

**Göyçayda kütləvi dava - ölən var**

yazısı səh.2-də

**Gündəm**

**Əmanətlər banklardan kütləvi şəkildə çıxarılır...**




Mərkəzi Bank statistikanı açıqlamır, ekspertlər isə xəbərdarlıq edir...

yazısı səh.6-da

**İqtidarın iqtisadi komandası-davammı, yoxsa...**

yazısı səh.7-də

**Prezidentin Londona dəvətinin və tədbirdə çıxışının ortaya çıxardığı həqiqətlər**

yazısı səh.8-də

**Ramil Səfərovun işi yenidən böyüyə bilər**

yazısı səh.3-də

**Siyavuş Novruzovdan Rüstəm İbrahimbəyova özünəməxsus "təbrik"**

yazısı səh.5-də

**Tofiq Yaqublu 4-cü doğum gününü də məhbəsdə keçirir**

yazısı səh.3-də

**Xanım əməkdaşımız bir günlük taksi sürücüsü oldu, başına gəlməyən qalmadı...**

yazısı səh.11-də

**300 milyonluq istiqraz buraxılır**

yazısı səh.6-da

**Aktyor, rejissor və... məmur - Nadir Əzməmmədovla müsahibə**

yazısı səh.12-də

**Böhran 49 manatlıq ayaqqabını 15 manat etdi...**

yazısı səh.15-də

**Sabiq polis əməkdaşı ömürlük azadlıqdan məhrum edildi**

yazısı səh.14-də

**Bakıda jurnalisti maşın vurdu; sürücü qaçdı**

yazısı səh.2-də

## Hökumətdə yeni antikorrupsiya tədbirləri başlayıb - təfsilat

# İQTİDAR DAXİLİNDƏ YARIMƏXFİ SAXLANILAN ŞOK GƏLİŞMƏ

Yanvar ayının 1-dən bütün nazirlik və komitələrdə qeyri-rəsmi ödənişlər tam dayandırılıb - bu, indiyədək hökumətdə görünməyən miqyaslı və riskli prosesdir; Ekspert: "Amma bundan daha risklisinin nə ola biləcəyini prezident İlham Əliyev hələ də gözü doymayan bəzi məmurlardan yaxşı bilir..."




yazısı səh.9-da

## Rəsmi Bakı Minsk Qrupunu qapıdan qaytara bilər

XİN: "Həmsədrlər Azərbaycan xalqı qarşısında hesabat məruzəsi ilə çıxış etməlidir"; "Moskva və Tehran ölkəmizin ərazi bütövlüyünün bərpasında maraqlı deyillər"

yazısı səh.13-də



**Professor İlham Rəhimovdan hadisə kimi açıqlamalar**

yazısı səh.4-də



**Deputat Fazil Mustafa həyatının gizlinlərini açdı**

yazısı səh.10-da



*Əli Məsimli:*

**"NAZ-Lifan" almısınız, sağlığınıza qismət, daha bu reklam nəyə lazım?"**

yazısı səh.4-də



*İkinci Dünya Müharibəsi əlilinin 94 yaşı tamam olur.*

*İkinci Dünya Müharibəsi əlili, 52 il Azərbaycanın prokurorluq orqanlarında çalışmış Nurəddin Cəfərovun 94 yaşı tamam olur.*

*Nurəddin dayı 1988-2003-cü illərdə Azərbaycanda müstəqil jurnalist kimi fəaliyyət göstərən, o illər xalq hərəkatının səsini müxtəlif nüfuzlu agentliklərin vasitəsilə dünya ictimaiyyətinə çatdıran, 2003-cü ildə faciəli surətdə vəfat edən qeyrətli jurnalist dostumuz Cövdət Cəfərovun atasıdır. Nurəddin Cəfərov Bakının keçmiş Voroşilov (Səbail) və Oktyabr (Yasamal) rayonlarında prokuror vəzifəsində işləyib. Onun fəaliyyət göstərdiyi illər Azərbaycanın və o vaxt tərkibində olduğumuz Sovet İttifaqının kriminal baxımdan ən mürəkkəb tarixi dövrlərinə düşüb. Bununla belə, N.Cəfərovun fəaliyyəti paytaxt sakinlərinin əmin-amanlıq şəraitində yaşamasına həsr olunub və bu səbəbdən də onu, uzun illərdir təqaüddə olsa belə, hər kəs hörmət və ehtiramla qarşılayır.*

*Nurəddin dayı, Sizi ad gününüz münasibətilə təbrik edirik, möhkəm can sağlığı və sevinc dolu günlər arzulayırıq.*

*Hörmətlə,*

*Elçin Əlizadə, Qabil Abbasoğlu, Əli Həziquliyev, Sədrəddin Soltan, Yadigar Məmmədli, Mahir Məmmədli*

# Bakıda jurnalist avtomobillə vuruldu; sürücü qaçdı



**"Trend" İnformasiya Agentliyinin müxbiri Samir Güləliyevi maşın vurub. Bu barədə jurnalist özü məlumat verib. Onun sözlərinə görə, hadisə "20 Yanvar" metrostansiyasının yaxınlığında baş verib.**

"Prado LAND CRUZER" markalı 10 VJ 266 dövlət nömrə nişanlı avtomobil sürətlə piyadalar üçün nəzərdə tutulmuş yerdə dayanan jurnalisti vurub. S.Güləliyevi vuraraq yolun kənarına atan sürücü hadisə yerindən qaçıb.

Xəsarət alan Samir Güləliyev Respublika Kliniki Xəstəxanasına müraciət edib. Jurnalistin sol ayağı çatlayıb. S.Güləliyev ev şəraitində müalicə edilmək üçün evə buraxılıb.

Hadisə ilə bağlı Yasamal Rayon Polis İdarəsinə də məlumat verilib.




# Səhiyyə Nazirliyində komissiya sədri dəyişib

**Səhiyyə Nazirliyinin Doğuşayardım Komissiyasının sədri dəyişib. Bu vəzifəyə Respublika Perinatal Mərkəzin baş həkimi Sevinc Məmmədova təyin olunub. Komissiyanın keçmiş sədri Leyla Rzaquliyeva müvafiq qərarla Səhiyyə Nazirliyinin Hamiləlik, doğuş və zahılıq dövrlərində ölüm, mamalıq ağırlaşmaları hallarının təhlili üzrə Komissiyanın sədri vəzifəsinə təyin edilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən faktı təsdiqləyiblər. (APA)

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# "MTN işi" ilə bağlı 65, Taleh Bağırovla bağlı 68 nəfər həbs edilib

**"MTN işi" ilə bağlı 65 nəfər zərər çəkmiş şəxs qismində tanınıb. APA-nın məlumatına görə, dünən Baş Prokurorluqda keçirilən geniş kollegiya iclasında bildirilib ki, ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) müvafiq strukturlarında sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələr və əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyin tələbləri pozulmaqla telefon danışıqlarının dinlənilməsi və yol verilmiş digər qanunsuzluqlarla bağlı 17 oktyabr 2015-ci il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.**



İş üzrə 22 şəxs təqsirləndirilən şəxs qismində cəlb edilib, onlardan 20 şəxs barəsində həbs qətimkan tədbiri və 1 nəfər barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilməklə istintaqdan yayınan 1 şəxs barəsində həbs qətimkan tədbiri seçilməklə axtarış elan edilib.

Həmin iş üzrə 130 epizod araşdırılmaqla, cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 65 nəfər zərər çəkmiş şəxs qismində tanınıb.

Hazırda ayrı-ayrı vətəndaşlardan daxil olan yeni müraciətlərdə göstərilən bütün xüsusatların tam, hərtərəfli və obyektiv araşdırılması təmin edilərək, zərərçəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası istiqamətində zəruri tədbirlər görülür.

"Taleh Bağırov və onun ətrafında birləşmiş 68 nəfər həbs edilib".

Bu barədə baş Prokurorluqda keçirilən geniş kollegiya iclasında bildirilib.

Qeyd olunub ki, hüquqi qeydiyyatı olmayan "Müsəlman Birliyi" adlı qurumun üzvləri Taleh Bağırov və qeyrilərinin barəsində Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaqı aparılan cinayət işi üzrə Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti ilə birgə həyata keçirilən tədbirlər nəticəsində T.Bağırov və onun mütəşəkkil cinayətkar dəstə halında rəhbərlik etdiyi qanunsuz qurumun paytaxtla yanaşı, bölgələrdə də təşkilatlanması və silahlanaraq cinayətkar fəaliyyətlə məşğul olmaları müəyyən edilmiş, mütəşəkkil dəstənin Bakı şəhəri və ətraf kəndlərdə 57 nəfər, Gəncə şəhəri və digər rayonlarda 11 nəfər fəal silahlı üzvü aşkar olunaraq Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.

# Fazil Məmmədov 7 müşavirini işdən azad edib

**Vergilər naziri Fazil Məmmədovun müşavirlərinin sayı 2 dəfə azaldılıb. "Report" xəbər verir ki, müşavirlərin sayı 13-dən 7-yə endirilib.**

Məlumata görə, müşavirlərin 7-si işdən azad olunaraq Nazirliyin müxtəlif struktur vahidlərində müavin vəzifəsinə təyin olunublar. Bu, Akif Musayev, Namiq Quliyev, Asəf Əsədov, Mahir Rəfiyev, Asif Cahangirov, Rəhim Əfəndiyev, Müsavər Nəbiyevdir.

Bundan başqa, F.Məmmədovun əmri ilə 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Taryel Aydın oğlu Quliyev vergilər nazirinin müşaviri təyin edilib.



# Jurnalist Rəvan Seyfulla saxlanılıb

**Yasamal rayon 29-cu Polis Bölməsindən APA-ya verilən məlumata görə, Rəvan Seyfulla hazırda bölmədədir və izahatı alınır. Onun hansı səbəbdən saxlanıldığı bilinmir.**

Qeyd edək ki, R.Seyfulla bir sıra mətbu orqanla əməkdaşlıq edib.




# Göyçayda kütləvi dava - ölən var

**Göyçay rayonunda qətl hadisəsi baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə fevralın 5-də saat 17 radələrində Göyçayın Ərəbcəbirli kəndi ərazisində qeydə alınıb. Gənclər arasında baş verən kütləvi dava zamanı iki nəfər bıçaq xəsarəti alıb. Onlardan biri, Göyçay şəhər sakini, 1996-cı il təvəllüdlü İbrahimov Heydər Əbülfəz oğlu hadisə yerində ölüb.**

Onu bıçaqlayan şəxsin 1993-cü il təvəllüdlü Ərəbcəbirli kənd sakini Səmədov Əli Azər oğlu olduğu məlum olub və polis əməkdaşları tərəfindən saxlanılaraq istintaqa təhvil verilib.

Qətl hadisəsi törədən şəxs Ərəbcəbirli kənd bələdiyyəsinin sədri Səyyaf Səmədovun qardaşı oğludur. Hazırda hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə yerindədir.

Xəsarət alan şəxs isə xəstəxanaya yerləşdirilib.

Faktla bağlı Göyçay rayon prokurorluğu tərəfindən araşdırma aparılır.

# Azərbaycanda 11 bank ləğv olunur

**Azərbaycanda 11 bank ləğv olunma prosesindədir. Trend Azərbaycan Mərkəzi Bankının (AMB) hesabatına istinadən məlumat verir ki, 2015-ci ilin yekunları üzrə belə bankların sayı 7 (2008-ci ildə lisenziyası geri çağırılmış "Poçtbank" və "Atlantbank", "Debutbank" (2010-cu il), "Birlik Bank" (2011-ci il), "Royal Bank" (2012-ci il), "Evrobank" və "Azerbaijan Credit Bank") idi.**

Bundan başqa, Mərkəzi Bank 2016-cı ilin əvvəlindən daha 7 bankın lisenziyasını ləğv edib - "Bank of Azerbaijan", "Gəncəbank", "United Credit Bank", "NBCBank", "AtraBank", Qafqaz İnkişaf Bankı və "Texnika Bank".

"NBCBank" ASC Azərbaycan Mərkəzi Bankına müraciət edərək digər banklarla konsolidasiya niyyətinin olduğunu, maliyyə vəziyyətinin yaxşılaşdırılması, öhdəliklərin icrasının təmin edilməsi, eləcə də kapital mövqeyinin bərpası ilə bağlı tədbirlər həyata keçirildiyini bildirib. Qeyd olunanları, bütövlükdə konsolidasiya prosesinin bank sektorunun strateji inkişaf xəttinə uyğunluğunu nəzərə alaraq, AMB İdarə Heyətinin 1 fevral 2016-cı il tarixli, 10/3 nömrəli qərarı ilə "NBCBank" ASC-nin bank lisenziyasının ləğv olunması barədə qərar (25 yanvar 2016-cı il tarixli, 06/3 nömrəli) ləğv edilib. Qafqaz İnkişaf Bankı və "Atrabank"ın da analoji planları var. Belə olan halda, hazırda 11 bank ləğv olunma prosesindədir.

Qeyd edək ki, Azərbaycanda 36 bank fəaliyyət göstərir.




# Sürücülük vəsiqəsi ilə bağlı yeni qərar: yaş həddi artırıldı

**Azərbaycanda sərnişin daşıyan avtobus sürücüləri üçün qoyulan tələblər dəyişdirilir, bu fəaliyyətlə məşğul olmaq üçün maksimum yaş məhdudiyyəti tətbiq edilir.**

Avtosfer.az - ın verdiyi məlumata görə, bunlar "Avtomobil nəqliyyatı haqqında" qanuna təklif edilən yeni dəyişikliklərdə öz əksini tapıb.

Hazırda avtobuslarla sərnişin daşımalarına "D" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı 21-dən , "DE" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı 24-dən və avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi 3 ildən az olmayan sürücülər buraxılır.

Qanun layihəsinə edilən yeni dəyişikliklərə görə isə avtobuslarla sərnişin daşımaları ilə "D" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı 22-dən az və 65-dən çox olmayan və avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi 5 ildən az olmayan sürücülər buraxılır.

"DE" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı 25-dən az və 65-dən çox olmayan və "D" kateqoriyasına daxil olan avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi 3 ildən az olmayan sürücülər buraxılır.

Yeni dəyişikliklərdə məqsəd avtomobil nəqliyyatı ilə sərnişin daşımaları sahəsində təhlükəsizliyin təmin edilməsi və məsuliyyətin artırılması ilə əlaqədar avtobuslarla sərnişin daşıyan sürücülərə dair tələblərin yenilənməsi məqsədi ilə hazırlanıb.

Layihə Milli Məclisin fevralın 12-də keçiriləcək plenar iclasında müzakirəyə çıxarılacaq.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 28 (6349) 6 fevral 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Müsavat başqanının həbsdəki müavini, Qarabağ veteranı Tofiq Yaqublunun fevralın 6-da 55 yaşı tamam olur. Bu günlərdə həbsinin 3-cü ilini geridə qoyan vicdan məhbusu, artıq 4-cü doğum gününü də həbsxana divarları arasında qeyd edir.**

# Tofiq Yaqublu 4-cü doğum gününü də məhbəsdə keçirir

## Nigar Yaqublu: "Nərgizin yoxluğu ilə hər şey gözümüzdə önəmini itirdi..."

**Başqan müavininin qızı Nigar Yaqublu atası ilə görüş gününün onun doğum gününə təsadüf etdiyini bildirdi:** "Atamın həbsdə olması bizim üçün ailə olaraq çox üzücüdür. Xüsusilə 55 yaşını həbsxanada qeyd etməsi daha ağırdır. Çox istərdik ki, bu günü başqa şəkildə keçirək. Nərgiz də kaş yanımızda olardı. Amma təəssüf ki, həyat bəzən istədiyimiz şəkildə olmur. Artıq bu situasiyaya alışmışıq. Atamın azadlığa çıxmasına iki il qalır. Onun 55 yaşını həbsxanada qeyd etməkdən başqa əlindən heç nə gəlmir".

**Vicdan məhbusunun qızı bacısı Nərgiz Yaqublunun vaxtsız ölümünə görə xüsusi bir təmtəraqla doğum günü keçirməyəcəklərini də diqqətimizə çatdırdı:** "Ailəmizin bu əhval-ruhiyyədə olmadığını hamı bilir. Yəqin ki, atamın ad günü ilə bağlı fərqli bir şey olmayacaq. Təsadüfən görüş günü fevralın 6-a düşür. Bu görüş günü də, bizim üçün sıradan bir görüşdür. Ailədə heç kim doğum günü qeyd etmək durumunda deyil. Atamın həbsxanada məhbus yoldaşları var. Bu baxımdan görüşə tortsuz getməyəcəyik. Amma bu o anlama gəlməməlidir ki, ad gününü özəl olaraq qeyd edirik. Sadəcə, həbsxana daxilində məhbuslar üçün tort nəzərdə tuturuq. Atam üçün mübarizə həyatında əsas məsələyə çevrilib. Demokratiya uğrunda mübarizə gedirsə, bu yol həbsxanadan keçir. Atam da bunu qəbul edib və bununla barışıb. Sadəcə, nə vaxtsa azad olunacağı günü gözləyir. Başqa qeyri-adi nəsə etmək də mümkün deyil".



**N.Yaqublu atasının həbsinin 3-cü ilində ailələrinə mənəvi dəstəyin olduğunu söylədi:** "Atamın 55 yaşının tamam olması münasibətilə təbriklər gəlməkdə davam edir. Sosial şəbəkələrdə çoxsaylı təbrik mesajları ünvanlanır. Atamın həbsinin 3-cü ilində də ailəmizə mənəvi dəstəklər oldu. İlham Hüseynli qonaq gəldi. Bizə mənəvi dəstəyini nümayiş etdirdi. İnsanlar başa düşürlər ki, biz möhkəm aileyik. Sözsüz ki, burada söhbət bir insan həyatının 3 ilinin oğurlanmasından gedir. Bu acınacaqlı durumdur. Amma reallıqla barışmaq məcburiyyətindəyik".

**Tofiq bəyin qızı atasının yaddaqalan doğum günlərindən də söz açdı:** "Son illərdə həyatımızda çox ağır hadisələr oldu. Bir zamanlar çox gözəl ad günləri qeyd edirdik. Hətta atamla anamın doğum günləri eyni ayda müxtəlif günlərə təsadüf etsə də, dostlarla birlikdə bir yerə yığışıb, hər iki ad gününü keçirirdik. Çox şən keçirdi. Amma təəssüflər olsun ki, son 3-4 ildə bu ənənə pozulub. Nərgizin yoxluğu ilə hər şey gözümüzdə önəmini itirdi. Ümid heç zaman ölmür. Ona görə də, hər an atamın azadlığa çıxmasını gözləyirəm. Hətta günü bu gün düşünürəm ki, atam sabah da azadlığa çıxa bilər. Hər şeyi bilmək olmur".

Müsavat Partiyasından başqan müavininin doğum günü ilə bağlı hər hansı bir tədbirin keçirilib-keçirilməyəcəyi ilə maraqlandıq. Qurumun İcra Aparatının rəhbəri Gülağa Aslanlı bu məsələnin gələn həftənin 1-ci günü Divanın iclasında müzakirə ediləcəyini və bundan sonra qərar veriləcəyini bildirdi.

Qeyd edək ki, 55 yaşı tamam olan Tofiq Yaqublu 1961-ci il fevralın 6-da Borçalı mahalının İncəoğlu kəndində anadan olub. Azərbaycan Kooperasiya Universitetini bitirib. Milli azadlıq hərəkatının fəalı, Qarabağ müharibəsi veteranıdır. Əbülfəz Elçibəyin prezidentliyi dövründə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsində çalışıb.

**1992-ci ildən Müsavat Partiyasının üzvüdür. Binəqədi rayon təşkilatının sədri, Müsavat Məclisinin katibi olub. 1998-ci ildə kütləvi aksiyada iştirakına görə iki il şərti azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. O, həmçinin "Yeni Müsavat" qəzetinin köşə yazarıdır. 2013-cü ildə baş verən İsmayıllı hadisələrinə görə həbs edilən Tofiq bəy Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 5 il müddətinə azadlıqdan məhrum edilib. Hazırda 13 saylı cəzaçəkmə müəssisəsində saxlanılır.**

❑ **CAVANŞİR**

# Ramil Səfərovun işi yenidən böyüyə bilər

## Mehman Əliyev: "Bu, Azərbaycana qarşı informasiya müharibəsinin tərkib hissəsidir"

## Arzu Abdullayeva: "Ramil Səfərov haqlı olaraq azad edilib"

## Müzəffər Baxış: "Erməni tərəfinin müraciətinin heç bir hüquqi əsası yoxdur"

**Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) azərbaycanlı zabit Ramil Səfərovun Ermənistan hərbçisi Gurgen Margaryanı qətlə yetirməsi ilə bağlı Azərbaycan və Macarıstanı cavabdeh ölkə kimi tanıması, hazırda əsas müzakirə olunan məsələlərdən biridir. Margaryanın qohumlarının Səfərovun yenidən həbs edilməsi ilə bağlı tələbləri narahatlıq doğurur.**

Erməni hərbçisinin qohumları ölkəmizlə yanaşı, Macarıstanın da bu iş üzrə qanun pozuntusuna yol verdiyini iddia edirlər. Onlar Macarıstanı hökmdə göstərilən cəzanı tam çəkəcəyinə zəmanət almadan Ramil Səfərovun ekstradisiyasına icazə verməkdə günahlandırırlar. Bu işdə iddia qaldıranlardan biri də Hayk Makuchyandır. Budapeştdə baş verən həmin hadisə zamanı Səfərovun onu da öldürmək istədiyi deyilir.

Göründüyü kimi, "Səfərovun işi" üzrə narahatçılığa əsas var. Düşmən ölkənin rəhbərliyi səviyyəsində bu məsələ üzrə canfəşanlıq göstərilir. Bəs zabitimizin həbs təhlükəsi gündəmə gələ bilərmi?

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** Ramil Səfərovun yenidən həbsi üçün heç bir əsasın olmadığını söylədi: "Bu məsələ ilə bağlı Avropadan hər hansı təzyiq, sanksiyanın gələcəyini düşünmürəm. Avropa Məhkəməsi bu barədə qərar çıxarsa, siyasi xarakterli ola bilər. Məncə, belə bir qərara ehtiyac yoxdur. Erməni tərəfini maraqlandıran ortada olan mövzudur. Kampaniya şəklində fəaliyyətə başlayıblar. Bu, Azərbaycana qarşı informasiya müharibəsinin tərkib hissəsidir. Çalışırlar ki, Qarabağ probleminin həlli istiqamətindəki fəaliyyət arxa plana keçsin, işğalçı mövqeləri güclənsin. Bütün niyyətlər buna xidmət edir. Bu baxımdan Ramil Səfərovla bağlı məsələnin qabardılmasını, bu siyasətin tərkib hissəsi kimi qəbul etmək lazımdır".



**Hüquq müdafiəçisi Arzu Abdullayeva** da hesab edir ki, Avropa Məhkəməsi tərəfindən hərbiçimizi yenidən həbsxanaya qaytarmaqla bağlı qərar ola bilməz: "Məhkəmə tərəfindən hansısa qanun pozuntusu ilə bağlı cərimə qərarı verilə bilər. Açığı Avropa Məhkəməsinin ədalətli qərar çıxaracağına əminəm. Hər şey dəlillərdən asılıdır. Biz hesab edirik ki, Ramil Səfərov haqlı olaraq azad edilib. Burada əsas mənəvi tərəflər məni narahat edir. Biz bilirik ki, o, erməni zabitinin ölümünə səbəb olub. Bu insanı tərəfdən çox pisdir, yolverilməz haldır. Digər tərəfdən, hadisə ölkəmizi çətin vəziyyətə saldı. O, qarabağlı idisə, həm Qarabağı, həm də Azərbaycanı düşünməli idi. Bu hadisə Qarabağın qaytarılması ilə bağlı məsələni bir qədər də uzaqlaşdırdı. Ən azından bir addım geri saldı. Dünyada ölkəmiz barəsində çox mənfi rəy yarandı. O, azad olunanda, onu qəhrəman kimi təqdim etmək ikinci böyük səhv idi. Onun azad olunması başa düşülən idi".

**Hüquqşünas Müzəffər Baxış** erməni tərəfin Səfərovla bağlı Avropa Məhkəməsinə müraciət etmələrində heç bir əsasın olmadığını qeyd etdi: "Ramil Səfərov Azərbaycanla Macarıstan arasında olan qarşılıqlı əlaqəyə əsasən ekstradisiya edilib. Avropa Şurasının cəza çəkən məhbusların ekstradisiyası haqqında konvensiyası var. Həmin konvensiyasının müddəalarına uyğun olaraq, Azərbaycan və Macarıstan arasında əldə edilmiş razılıq əsasında Ramil Səfərov ekstradisiya edilib. Bu proses zamanı Azərbaycan dövləti üzərinə heç bir öhdəlik götürməyib. Sadəcə, ekstradisiya barəsində razılığa gəliblər. Ramil Səfərov Azərbaycan tərəfə təhvil verildikdən sonra prezident konstitusiyanın 109-cü maddəsinin 22-ci bəndini və Cinayət Məcəlləsinin 82-ci maddənin tələblərini rəhbər tutaraq, öz səlahiyyətləri çərçivəsində onu əfv edib. Bununla Ramil Səfərov ömürlük azadlıqdan məhrum edilmə cəzasından azad edilib. Beynəlxalq hüquq normalarına və konstitusiyamızın tələblərinə əməl olunmaqla, prosedura qaydaları həyata keçirilib. Erməni tərəfinin müraciətinin heç bir hüquqi əsası yoxdur. Bununla bağlı Macarıstanın da üzərinə heç bir tələb Avropa Məhkəməsi tərəfindən qoyula bilməz. Sadəcə olaraq, bu siyasi kampaniyadır. Erməni tərəfi bu məsələni gündəmdə saxlamaq istəyir. Avropa Məhkəməsinin bu barədə qərarı olsa belə, heç bir nəticəsi olmayacaq. Mən bilən artıq Azərbaycan tərəfi Avropa İnsan Haqları Məhkəməsinin qərarları ilə bağlı Milli Məclisə qanun layihəsi hazırlayır. Həmin qanun layihəsinə əsasən, Avropa Məhkəməsinin Azərbaycanla bağlı qəbul etdiyi qərar tələblərə uyğun olmasa, Azərbaycan tərəfi bu qərarın icrasından imtina edə bilər. Bu baxımdan hesab edirəm ki, Azərbaycanla bağlı bundan sonra hansısa qərar qəbul edilsə, bunun icrasından imtina ediləcək".

**Xatırladaq ki, Ramil Səfərov erməni zabitini 2004-cü ilin fevralında Budapeştdə hərbiçilərin iştirakı ilə ingilis dili kursları keçirilərkən qətlə yetirmişdi. O, erməni hərbçisini bayrağımızı təhqir etdiyinə görə öldürdüyünü bildirmişdi. 2006-cı ilin aprelində Budapeşt məhkəməsinin qərarı ilə Ramil Səfərova 30 il əfv edilməmək şərti ilə ömürlük həbs cəzası verilmişdi. 2012-ci il avqustun 31-də o, Azərbaycana təhvil verilib və ölkə başçısı Ramil Səfərovun dərhal əfv edilməsinə dair sərəncam imzalayıb.**

❑ **C.ABBASLI**










# Professor İlham Rəhimovdan hadisə kimi açıqlamalar - anons

**Fevralın 5-də professor İlham Rəhimov "Yeni Müsavat" qəzetinin dəvəti ilə qəzetin ofisində olub və jurnalistlərin suallarını cavablandırıb.**

Rusiya-Türkiyə münasibətlərindəki son durum, bu münaqişənin kökləri, barışıq perspektivləri ilə bağlı fikirlərini açıqlayan İlham Rəhimov konfliktlə bağlı özəl düşüncələrini bölüşüb.

Müsahibədə Dağlıq Qarabağ və erməni terrorçularının girov saxladığı kəlbəcərlilər - Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı da suallara cavab verilib.

Elmi yaradıcılığı, biznes fəaliyyəti, Rusiyada və Azərbaycanda yaranan iqtisadi böhran səbəbi ilə iş həyatında yaranan çətinliklər haqda da sualları cavablandıran professor Rəhimov hadisə sayıla biləcək bir sıra açıqlamalar da verib.

Əhatəli müsahibəsində məhkəmə-hüquq sahəsində aparıla biləcək islahatlara da toxunan İ.Rəhimov bir hüquqşünas kimi özünün təkliflərini də səsləndirib.

O, yaşaya biləcəyi 3 şəhərin adını qeyd edib: "Avropada bir həftədən artıq qalanda, darıxıram" deyən hüquq professoru özünü ən rahat vətənində, onun paytaxtı Bakıda hiss edir.

İlham Rəhimov redaksiyanın, "Yeni Müsavat" media qrupuna daxil olan saytların iş şəraiti ilə də yaxından tanış olub.

Professor İlham Rəhimovun "Yeni Müsavat" media qrupunda çalışan jurnalistlərə verdiyi geniş müsahibənin stenoqram xarakterli təqdimatı fevral ayının 8-dən, gələn həftənin ilk iş günündən etibarən yayımlanacaq.



# Deputatların "NAZ Lifan" planı...

**Prezident İlham Əliyevin Naxçıvanda istehsal edilən "NAZ-Lifan" markalı avtomobillərlə bağlı dediklərinin ardınca yerli istehsalın bu növünə maraq artıb. Hətta şirkətdən etiraf ediblər ki, ölkə rəhbərinin tövsiyəsi satışa və sifarişə ciddi təsir göstərib.**

Prezidentin "Bizim Naxçıvanda avtomobil zavodumuz var, dövlət qurumları oradan alsınlar. Yaxşı da maşınlardır. Heç xarici maşından o qədər də fərqlənmir" - sözlərindən sonra hətta nazirliklər səviyyəsində bu avtomobilə üstünlük verilməyə başladığı bildirilir. Gənclər və İdman Nazirliyinin qarşısında bir neçə "Naz Lifan" markalı nəqliyyat növünün olması, Daşkəsənin icra başçısı Əhəd Abıyevin artıq Naxçıvan istehsalı olan maşından istifadə etdiyi barədə açıqlaması da maraqla qarşılandı. "Yeni Müsavat" olaraq Milli Məclis üzvlərinin prezidentin çağırışından sonra "NAZ-Lifan" alıb-almadıqları ilə maraqlandıq.

Hələlik "NAZ-Lifan" almayan **deputat Zahid Oruc** sualımızın cavabında bunları söylədi: "Dövlət başçısının çağırışı sözün birbaşa mənasında hər kəsin üzünü milli istehsala çevirməsi olsa da, burada rəsmi bir direktiv qəbul edərək bütün xarici məhsulları, o cümlədən, nəqliyyat vasitələrini daxili dövriyyəmizdən çıxarmaq məqsədi güdülmürdü. Ölkədə idxalın xüsusi çəkisi hər kəsə bəllidir. Burada çağdaş dünyanın aparıcı trendlərinə uyğun geyinməkdən tutmuş öz milli ənənələrini kənar aksessuar və dəblə zənginləşdirməyə qədər, geniş bir çeşiddə mallardan asılılığımız neft dövründə özünün pik həddinə çatmışdı. Ölkə başçısının bəhs etdiyi məsələnin kökü də bundaydı. Şəxsi mənada məmur və istənilən hakimiyyət qolunun təmsilçisi zövqünə və imkanlarına uyğun seçim edə bilər, lakin dövlət sifarişlərini yerinə yetirən zaman keyfiyyətli qida məhsullarının sayı 100 minlərlə olan əsgərə verməyib, gedib Afrikadan bahalı ərzaq gətirirsənsə, çəkməni yalnız Türkiyədən almağa üstünlük verirsənsə, bütün dövlətin binalarını İtaliya mebelləri ilə bəzəyib oranı muzeyə çevirməyə çalışırsansa, bahalı təmir həyata keçirərək büdcə vəsaitləri hesabına nazirlikləri ekzotik görkəmli saraylara çevirməyə çalışırsansa, onda bir resursdan asılılığın kökünü başqa yerdə axtarmağa dəyməz. Deməli, "NAZ-Lifan" minib də təfəkkürcə yenə milli iqtisadiyyata bağlanmayacaqsansa, onda "Mercedes"də oturub da ala bilmədiyini nümayiş etdirdiyin kimi, miskin və yabançı görünmək olar". **Z.Oruc hesab edir ki, əsas məsələ beyinlərdə inqilab edib maşın, mebel və milli ənənələr məsələsində qeyri-israfçı bir ortama gəlib çatmaqadır:** "Ölkə rəhbərinin başlıca niyyəti hər hansı natamamalıq kompleksi keçirərək ayağını yerli nəqliyyat vasitəsinə qoymaq istəməyən məmura nəhayət, göylərdən yerə enməyi və dəyişən iqtisadi reallıqları dərk etməyi məsləhət gördü. Ona görə də problem "BMW" və "Mercedes" markalarına kütləvi həvəsdə deyil, əsas məsələ dünyəvi brendlərə can atarkən mənən və dünyagörüşünə görə alman dəqiqliyinə, qənaətcilliyinə və milli özgüvənə sahib olmamaqda, son texnoloji inqilabın sürəti ilə ayaqlaşmağa çalışarkən elmi, intellektual cəhətdən böyümə də maraqlı olmamaqla bağlıdır. Hökumətlə yanaşı, hər bir vətəndaşın dəyişməsinə qəti bir ehtiyac var". **Deputat bildirdi ki, parlament üzvlərinin isə çox az bir qisminə xidməti maşın verilir:** "Biz onların sırasında deyilik. Lakin müəyyən bir dövr ictimai kampaniyaya qoşularaq, hər hansı yerli brendi tirajlamaq, onun sadəcə məhdud fiziki imkanlılar üçün istehsal olunmadığını nümayiş etdirmək naminə fərqli qərarlar vermək olar. Bununla belə yenə də cənab prezidentin verdiyi mühüm mesajların əsas qayəsinin hər kəsi vahid bir formaya salmaq olmadığını diqqətinizə çatdırmaq istərdim. İqtisadiyyatımızın köklü problemlərini həll etmək üçün İlham Əliyevin verdiyi yüzlərlə fərman və sərəncamları yerinə yetirmək və xalq qarşısında məsuliyyətini dərindən dərk etmək hər hansı markalı maşın minməkdən daha böyük məna kəsb edir. Məmurlar indi cəmiyyətin böyük basqısını hiss edirlər. Elə bilin yeni formasiyaya daxil olmuşuq. Sovetlər birliyi dağılanda ictimai ruhu hiss etməyənlərin bir çoxu hələ də sovetlərin erasında və Brejnevin ruhunda qalmaqda davam edərkən müstəqil dövlət olmağın tələbləri və vəzifələri hər kəsi ayıltdı. Ona görə neft dövrünün hökuməti tərkibinə və iş üslubuna görə dünyadan gələn çağırışları qəbul etməkdədir. Yoxsa vətəndaşın haqqını "NAZ-Lifan" minib də pozmaqda davam edəcəksənsə, adamlar sənin belə "milli"liyini sənə bağışlamayacaqlar. Maşın və mebel toxunulmazlıq üçün sığorta vasitəsi deyil. Əsas xalqa gerçəkdən xidmət etməkdir".

## Zahid Oruc: "Vətəndaşın haqqını "NAZ-Lifan" minib də pozmaqda davam edəcəksənsə, adamlar sənin belə "milli"liyini bağışlamayacaqlar"
## Tahir Kərimli: "Oğluma dedim gəl, "Jiquli"ni sat, üstünü düzəldək, ya da kreditlə "NAZ-Lifan" alaq"
## Aydın Mirzəzadə: "Əgər imkan olarsa, ilk növbədə NAZ-Lifan alaram"
## Əli Məsimli: "NAZ-Lifan" avtomobili almısınız, işlədin də, sağlığınıza qismət, daha bu reklam nəyə lazım?"

**"Vəhdət" Partiyasının sədri Tahir Kərimli** isə Naxçıvan maşını almaq niyyətindədir: "Sovet dövründə bizim hamımızın maşını var idi. Amma açığı, bu gün heç birimizin maşını yoxdur. Bir ortancıl oğlumun sovet istehsalı olan "Jiquli"si var. Elə o çıxışdan sonra oğluma təklif etdim ki, ay oğul, gəl, bunu sat, üstünü düzəldək, ya kreditlə "NAZ-Lifan" alaq. Necə deyərlər, xeyir öz vətənimiz qalsın. Mən təşəbbüs göstərmişəm, oğlum da fikirləşir, qismət olsa, alacağıq. Heyf ki, partiyamıza ayrılan pul azdır. İllik 91 min manat ayrılıb, aya da 8 min 100 manat düşür. Fikirləşirdim ki, bəlkə partiyaya ayrılan vəsaitdən bir maşın alaq. Amma hesablayıb gördüm partiyada adamlar çoxdur, maaş isə azdır, ona görə ala bilmədik. İstənilən halda bu təşəbbüsü alqışlayıram, imkan olan kimi Naxçıvan maşını alacağıq".

"Mənim şəxsi maşınım yoxdur. Əgər imkan olarsa, əlbəttə ki, ilk növbədə "NAZ-Lifan" alaram". Bu sözləri isə **YAP-çı deputat Aydın Mirzəzadə** söylədi. Bildirdi ki, şəxsi avtomobilinin olmaması imkansızlığı ilə bağlı olub. Deputat qeyd etdi ki, "NAZ-Lifan" haqqında yüksək fikirdədir: "Bildiyimə görə etibarlı maşındır, həm təhlükəsizlik baxımından mükəmməldir, həm də yanacağı az işlədir. Dostlar bu maşın haqqında xoş sözlər söyləyiblər. Hətta müəyyən qüsurları olsa belə, biz hər addımımızla yerli istehsalı dəstəkləməliyik. Fikirləşməliyik ki, Azərbaycanda istehsal olunan hər bir mal büdcəyə gedən əlavə vəsaitdir, valyutadır".

**Deputat Əli Məsimli** isə "NAZ-Lifan" avtomobili almaq fikrində deyil: "2010-cu ilin "Hyundai-Sonata"sı var, bəsimdir. Hələ bir dəfə belə məni yolda qoymayıb. Vaxtı çatanda yağını dəyiş, benzinin tök, sür. Yəni adamı incitmir. Prezident "NAZ-Lifan" markalı avtomobildən istifadə məsələsini qaldırandan sonra bu avtomobili alması barədə xəbəri yaymaqla bəzi özünü reklam edənlər çox tragikomik görünürlər. "NAZ-Lifan" avtomobili almısınız, işlədin də, sağlığınıza qismət, daha bu reklam nəyə lazım? "NAZ-Lifan" markalı avtomobildən elə xoşunuz gəlirdisə, prezident deyənə qədər alaydınız. Həmin adamları birinci mən alqışlayardım. Çünki mən baş nazir olanda çoxları "inomarka" sürürdü, mən "QAZ-31"-də gəzirdim. İndi də deputat kimi fəaliyyətimdə 2010-cu ilin "Hyundai Sonata" markalı avtomobildən istifadə edirəm. Nümunə götürmək istəyən belə nümunəni əvvəlcə məndən götürsün".

❑ **Cavid TURAN**

**Fevralın 5-də Azərbaycanın görkəmli yazıçı-dramaturqu, ssenaris-kinorejissoru Rüstəm İbrahimbəyovun 77 yaşı tamam oldu. 1995-ci ildə "Şöhrət" ordeni ilə də təltif olunan R.İbrahimbəyov dünya miqyasında tanınan şəxsdir.**

# Siyavuş Novruzovdan Rüstəm İbrahimbəyova özünəməxsus "təbrik" gəldi

## "Bir oyun idi düşmüşdü"; kinorejissorun 77 yaşı tamam oldu

Ancaq Ziyalılar Forumu ilə bağlı layihədən və onun 2013-cü il prezident seçkilərində Milli Şuranın vahid namizədi kimi siyasi səhnəyə çıxmasından sonra kinorejissorun Azərbaycana girişi yasaqlanıb. Rəhbərlik etdiyi təşkilata qarşı cinayət işinin başlanmasından sonra özünün də həbs edilə biləcəyini nəzərə alan sənətkar ölkəyə dönməyə tərəddüd edir. Son zamanlar xərçəng xəstəliyindən əziyyət çəkən R.İbrahimbəyov yalnız yaradıcılıqla məşğuldur...

1999-cu ildə Rüstəm İbrahimbəyovun Sergey Bodrovla birgə ssenarisini yazdığı fransız direktivi Regis Wargnier olan "Şərq-Qərb" filmi ən yaxşı xarici film nominasiyasında "Oskar" mükafatına namizədlərdən biri olub.

Doğum günündə danışmaq istəsək də, R.İbrahimbəyova zəng çatmadı. Kinorejissorun yaxın dostu, professor Cəmil Həsənli isə telefon zəngimizə Moskvadan cavab verdi. Cəmil Həsənli "Yeni Müsavat"a bildirdi ki, bir gün qabaq müəllifi olduğu yeni kitabın nəşri ilə əlaqədar Rusiya paytaxtına gəlib. R.İbrahimbəyovu soruşduqda C.Həsənli dedi ki, kinorejissor da Moskvadadır və zəng edib onun doğum gününü təbrik edib.



Rüstəm İbrahimbəyov

Maraqlıdır, R.İbrahimbəyovun opponentləri doğum günündə onunla bağlı nələri düşünür, onu sənətkar, ziyalı kimi necə dəyərləndirir?

**Elə bu sualla da YAP icra katibinin müavini, deputat Siyavuş Novruzova müraciət etdik. O bildirdi ki, gərək hərbi bir insan özü-özünü qiymətləndirsin:** "Nizaminin gözəl bir kəlamı var: "Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan". Yəni bir sahənin kamil insanı yarımçıq papaqçılığa girişirsə, o, artıq kamilliyini də itirir. Vaxtilə İbrahimbəyovu ulu öndər də yüksək qiymətləndirmişdi, cənab prezident tərəfindən yüksək qiymət verilib, ali dövlət mükafatları ilə təltif olunub. Lakin hər hansı qrupun, dairənin, kəşfiyyat orqanının təsiri altına düşüb öz xalqına, millətinə, cəmiyyətinə, dövlətinə qarşı müəyyən addımlar atmaqla artıq insan ziyalılığını da itirir. Ziyalı odur ki, öz xalqının önündə getsin və xalqın problemləri olanda onunla bir yerdə çarpışsın. Biz şahidiyik ki, 90-cı illərdə Azərbaycanın ən çətin anlarında, Dağlıq Qarabağla bağlı, 20 yanvarla bağlı informasiya blokadasına düşdüyümüz anlarda Rusiyada yaşayan Azərbaycan ziyalıların əksəriyyəti, o cümlədən Rüstəm İbrahimbəyov susqun mövqedə dayandı və xalqın maraqlarını müdafiə etmədi".

**R.İbrahimbəyovun 20 yanvardan sonra gizli şəkildə Bakıya jurnalist göndərdiyini xatırlatdıqda, S.Novruzov dedi ki, o, açıq-aşkar bəyanat verə bilərdi**: "Necə ki, gürcü ziyalılar açıq bəyanat verdilər, Vaxtanq Kikabidze Gürcüstana qarşı Rusiyanın atdığı addımlara etiraz olaraq onların bütün təltiflərdən imtina etdi. Bizimkilər də bu addımı ata, yaxud müxtəlif mətbuat orqanlarında çıxış edə bilərdilər. Amma ermənilər konkret addımlar atanda bizmkilər susmağa üstünlük verdilər".

**R.Ibrahimbəyovun artıq siyasi səhnədən kənara çəkildiyini, sırf yaradıcılıq işləri ilə məşğul olduğunu diqqətə çatdırdıqda, YAP-çı deputat bunu gözlənilən saydı:** "Təbii ki, kənara çəkilməliydi, bu, bir oyun idi düşmüşdü. Həmçinin ortada ciddi bir maliyyə məsələsi var idi, indi də gündəmdədir, araşdırma gedir. Bir sıra adamlar istəyirdilər ki, Azərbaycanda qarşıdurma yaransın. Bir sıra adamları da bu oyunlara salmışdılar və nəticə etibarilə ortada qalan onlar oldu. İbrahimbəyov hətta Rusiya vətəndaşlığından da imtina etmədi". Bəs, bundan sonra kinorejissorun Bakıya yolu açıla bilərmi? S.Novruzov: "Bütün bu məsələlər artıq onun özündən asılıdır".

❑ Cavìd TURAN

# Nazirlik sahibkarın özünü yandırmaq cəhdinə dair açıqlama yaydı

## Dönməz Məmmədov körpüyə çıxıb canına qəsd etmək istədi; NN-dən cavab gəldi: "Onun 4 marşrut xətti var və ona məxsus 501 nömrəli marşrut xəttinin bağlandığı da həqiqət deyil"





**"Amal-D" MMC şirkətinin rəhbəri olan sahibkar Dönməz Abutalıb oğlu Məmmədov Nəqliyyat Nazirliyinin yaxınlığındakı körpüyə çıxaraq intihara cəhd edib. Azərbaycan bayrağına bürünmüş sahibkar bədəninə içi benzinlə dolu bir neçə butulka bağlayıb. Həmin butulkalardan bir neçəsini yandıraraq körpüdən aşağı atıb. Heç kimi yaxına buraxmayaraq özünü yandıracağını deyib. Hadisə yerində olan müxbirimiz sahibkarın bu fikrindən FHN əməkdaşları tərəfindən daşındırıldığının şahidi olub. Sahibkar körpüdən düşürdülərək Nəqliyyat Nazirliyinə aparılıb.**

Sahibkar körpüyə çıxmazdan 1 saat əvvəl isə "Yeni Müsavat" əməkdaşı ilə əlaqə saxlayaraq bunları demişdi: "2 maddə ilə cinayət işi başlayıblar, ölümə təhdid və korrupsiya ilə bağlı. Yanvarın 2-də marşrutumu qərarla özümə qaytardılar. Son günlər mənə təzyiq göstərirlər ki, get istintaqda ifadələrini dəyiş. Mən də getmədim. Mənə təzyiqlər var. Artıq bezmişəm. Məsələni ilə bağlı Nəqliyyat Nazirliyinin İctimaiyyətlə Əlaqələr şöbəsindən bildiriblər ki, D.Məmmədovun məsələsi araşdırılır: "Qarabağ veteranı, "Amal-D" şirkətinin rəhbəri Dönməz Məmmədov nazirliyə müraciət edərək başqa bir sahibkara məxsus marşrut xətti olan 505 nömrəli marşrutların "Binə" Ticarət Mərkəzindən keçməsinə qadağa qoyulmasını istəyib. Məmmədova məxsus olan 509 nömrəli marşrut xətti ilə başqa bir sahibkara məxsus olan 505 nömrəli marşrut xəttinin sadəcə "Binə" TM-də 500 metrlik yolda kəsişməsi ilə əlaqədar olaraq DANX sahibkarın tələbini qəbul etməyib. 509 nömrəli marşrut xətti Sumqayıt avtovağzalından başlayaraq, Saray, Xocəsən, Bakı, "Binə" TM, Lökbatan dairəsi istiqamətində hərəkət edir. Marşrut xəttinin uzunluğu 60 km olduğu üçün gediş haqqı 0,96 AZN-dir. 505 nömrəli marşrut xətti Sumqayıt avtovağzalından başlayıb Bakı-Quba yolu, Ceyranbatan, Xırdalan, Bakı Beynəlxalq Avtovağzalı, "Sədərək" TM ilə hərəkət edir, son dayanacaq isə "Binə"dir. Marşrut xəttinin uzunluğu 47 km olduğu üçün gediş haqqı 0,75 AZN-dir. 509 saylı marşrut xəttinin sahibi D.Məmmədov "Binə"də sərnişinlərin çoxluğuna görə, "Binə"dən Sumqayıta gedən sərnişinlərin ancaq ona məxsus olan marşrutla daşınmasını istəyir. Buna görə də şantaja əl atan sahibkar məqsədinə çatmaq üçün 3 gün Gürcüstanda aclıq aksiyası keçirdiyini, özünü yandırmağa cəhd göstərdiyini deyir. Haqsız istəyinə çata bilməyən sahibkar sonradan Bakıya gələrək və bayrağa bürünərək Nəqliyyat Nazirliyinin yanındakı körpüdən özünü atmaqla intihara cəhd edib".

**NN-dən həmçinin redaksiyamıza bildirilib ki, 509 nömrəli marşrutla bağlı nazirliyə çoxlu sayda şikayət daxil olub:** "509 nömrəli marşrut avtobusu ilə gedən sərnişinlər gediş haqqı ödəyərkən sürücü onların pulunun qalığını heç bir zaman qaytarmayıb. Sərnişin avtobusları çox köhnədir və xətdəki avtobusların bir çoxu istifadəyə yararsızdır. Sahibkar avtobusları hansısa müxtəlif şəxslərdən icarəyə götürərək xəttə buraxır. Məmmədovun bağlanmasını istədiyi 505 nömrəli marşrut isə yüksək standartlara cavab verən avtobuslarla təmin edilib. Araşdırma zamanı məlum olub ki, "Binə" dən 505 nömrəli avtobusa minən sərnişin Sumqayıt avtovağzalına 0,75 AZN-ə və qısa yolla, 509 nömrəli marşrut avtobusuna minən sərnişin isə Sumqayıt avtovağzalına 0,96 AZN və daha uzun yolla gedə bilir. Belə ki, 505 nömrəli marşrut xətti fəaliyyətini dayandırarsa, sərnişinlər 21 qəpik baha və həm də uzaq yolla Sumqayıta getməli olacaqlar. Dönməz Məmmədovun məqsədi "Binə" dən Sumqayıt avtovağzalına gedən sərnişinləri yalnız özünə məxsus avtobuslarla daşımaqdır. NN-ə müraciət edən sahibkara rəsmi olaraq bildirilib ki, 505 və 509 nömrəli marşrut xətləri bir-biri ilə ayrı-ayrı istiqamətlərdə hərəkət etdiyi üçün bu tələb yerinə yetirilməyəcək. Bundan sonra sahibkar özünü yandıracağı ilə bağlı hədələrə başlayıb. 505 nömrəli marşrut xəttinin sahibkarı da məsələdən xəbər tutanda bildirib ki, əgər Dönməz Məmmədovun tələbi yerinə yetirilsə, o da özünü yandıracaq. "Amal-D" MMC şirkətinin rəhbəri olan sahibkar Dönməz Məmmədovun 4 marşrut xətti var və ona məxsus 501 nömrəli marşrut xəttinin bağlandığı da həqiqət deyil".

**Qeyd edək ki, D.Məmmədov Azərbaycanda ona edilən təzyiqlər səbəbindən ölkəni bir neçə dəfə tərk edib, Gürcüstanda aclıq aksiyaları keçirməklə ona edilən təzyiqlərə diqqət çəkib.**

❑ E.MƏMMƏDƏLİYEV

# Son instansiya - körpü, son çarə - benzin



Xalid KAZIMLI

**Bunu əvvəllər də yazmışıq: özünü yandırmaqla intihara cəhd sıradan bir suisid təşəbbüsü deyil, etiraz aksiyasıdır. Hətta özünü yandıracağını anons etməyin özü də etiraz aksiyasıdır, insanın öz hiddətini ictimaiyyətə duyurmaq, bu intihara səbəb olanların üzərinə nifrət oxu yönəltmək məqsədi daşıyır.**

Çəkdiyi ağrı-acılardan, iztirablardan, gördüyü haqsızlıqlardan bezən, maddi, mənəvi, psixoloji sıxıntılara tablaşmayan insanlar az qala hər gün səssiz-səmirsiz şəkildə ya intihar, ya da intihara cəhd edirlər: zəhər içirlər, yüksək dozada dərman qəbul edirlər, özlərini odlu silahla vururlar, damdan atılırlar, özlərini asırlar, damarlarını kəsirlər və s.

Amma özünü yandırmaq (və ya yandıracağı ilə hədələmək) üsyan deməkdir. Adam etiraz edir və istəyir ki, onun bu addımı ictimailəşsin, müzakirə olunsun, eşidən-bilən onu bu addıma vadar edənləri qınasınlar.

İki il öncə obyekti əlindən alınıb sökülmüş Qarabağ qazisi Zaur Həsənovun atdığı müvafiq addımın ölkədə nə cür ajiotaj doğurduğu hələ də yaddaşlardadır. Mərhum veteran o addımı ilə mülk davasını öz xeyrinə həll edə bildi, amma ona görə heç kəs cəzalandırılmadı. Sadəcə, adam özünü balalarının gələcəyi və rifahı üçün fəda etdi.

Sonradan özünü yandırmağın daha təhlükəli olduğunu, əksər hallarda ölümlə nəticələndiyini görən cana-boğaza yığılmış etirazçılar öz son ümid aksiyalarını körpü üstünə, dama çıxaraq həyata keçirməyə başladılar.

Az qala həftədə bir dəfə "Koroğlu" körpüsünün dəmir konstruksiyalarının üstünə çıxaraq, özlərini aşağı atmaqla hədələyən, haqq-ədalət tələb edən, hansısa məmurların, deputatların hadisə yerinə gəlməsini tələb edənlər olurdu.

İlk dəfə körpü üstünə çıxan adam öz haqqını almışdı, almamışdı, bəlli deyildi, ancaq onun presedenti populyar olmuşdu və xeyli narazı adamın məhz bu, sözün birbaşa mənasında axırıncı yola əl atacağı şübhə doğurmurdu.

Nəhayət, hakimiyyət "körpü üstündə intihar hədəsi" aksiyasının qarşısını həmin yerdə daimi post qoymaqla, körpüyə 7/24 rejimdə keşik çəkən mühafizə polisi göndərməklə həll etdi.

İndi həmin körpünün üstünə heç kim çıxmır, çıxa bilmir. Hamı anlayır ki, orada keşik çəkən polislərin gözündən yayınaraq bu cür hərəkət etmək mümkün deyil.

Ancaq bu da o anlama gəlmir ki, narazı insanlar öz hiddət və qəzəblərini bildirmək üçün yol tapa bilmirlər.

O cür hadisələr, təhdidlər davam edir. Dünən də biri qeydə alındı. Sahibkar Dönməz Məmmədov Nəqliyyat Nazirliyinin yaxınlığındakı körpüdə özünü yandıracağını elan etdi. O, fikrində xeyli dərəcədə ciddi idi və əsəb gərginliyi pik həddə çatmışdı. Yəqin ki, mane olmasalar, adam özünü yandıracaqdı.

Bu cür adamlar bu hərəkəti kefdən eləmirlər, məqsədləri, bəzən iddia olunduğu kimi, şou göstərmək, şöhrət qazanmaq deyil. Adamlar istəyirlər ki, məruz qaldıqları zülmə son qoyulsun, haqları təmin olunsun, zalımlar onlardan əl çəksinlər.

İnsanları bu addıma qəddar, tamahkar məmurlar vadar edirlər. Onlar əllərindəki səlahiyyətlərdən yararlanır, sırf öz şəxsi sərvətlərini artırmaq, varlanmaq üçün 3-5 manat pul-para qazanan şəxslərdən cürbəcür xəraclar tələb edir, ala bilmədikdə, mərdiməzarlığa əl atır, insanlara problem yaradır, onları çörək qazanmaq imkanından məhrum edirlər.

Belə olanda bıçaq sümüyə dayanır və bir yol qalır: intiharla təhdid etmək və son addımı atmaq.

Bu ölkədə insanları intihar həddinə çatdıranlar heç vaxt cəzalandırılmır. Onların beli yuxarılardan bağlıdır. Zatən, öz qulluq mövqeyindən sui-istifadə edənlərin hər hansı bir cəza qorxusu olsa, onlar bu qədər zülmkar olmazlar. Ona görə də müftəxor və tamahkar məmurlar özünü yandırmaqla hədələyənlərə bəzən alışqan uzadan, "yandırmayan belə-belə olsun" deyə bilirlər.

**Dünənki hadisə zamanı faciənin bir addımlığından qayıdılsa da, bu, hələ ölkədəki haqq-ədalət probleminin həlli demək deyil. Heç də hər haqqı tapdanan şəxs hansısa körpünü son instansiya kimi seçməli deyil. Camaatın harayına, fəryadına vaxtında qulaq vermək lazımdır.**

# Əmanətlər banklardan kütləvi şəkildə çıxarılır...

## Əhali banklara inanmır; Mərkəzi Bank statistikanı açıqlamır, ekspertlər isə xəbərdarlıq edir...

**Əmanətlərin banklardan çıxarılması sürətlənib. Yanvar ayının nəticələri açıqlanmasa da, ötən ilin dekabrındakı statistika bunu təsdiqləyir. Ekspertlər bildirirlər ki, ölkənin bank sisteminə inamın kəskin itməsi əmanətlərlə bağlı təhlükəni artırır. Bu səbəbdən də əhali əmanətlərini kütləvi şəkildə banklardan çıxarmaqdadır. Ekspertlərin fikrincə, əmanətlərin tam sığortalanması barədə qanun da problemi həll etməyəcək.**

Qeyd edək ki, 2015-ci il ərzində banklardan 3,1 milyard əmanət geri çəkilib. Təkcə dekabrda əhali 640 milyon dollar əmanətini götürüb.

Ekspert Əkrəm Həsənovun sözlərinə görə, əmanətlərin kütləvi çıxarılması prosesi davam edəcək: “Mərkəzi Bankın saytına əsasən bu ilin əvvəlinə banklarda 9,4739 milyard manat əmanət var. Məlumdur ki, əmanətlər əsasən dollarla yerləşdirilib. Deməli, yanvarın 1-nə olan məzənnəni götürsək, hazırda banklarda 6,1121 milyard dollar məbləğində əmanət var. Cari məzənnə ilə isə daha da azdır- 5,9584 milyard dollardır.

2015-ci ilin dekabrın 1-nə olan məlumata görə, banklarda olan əmanətlərin məbləği 7,0895 mlrd. manat idi. O dövrdə olan məzənnə ilə 6,7519 milyard dollar deməkdir. Təkcə dekabr ayı ərzində banklardan 640 milyon dollara yaxın əmanət çıxarılıb. 2015-ci ilin yanvarın 1-nə olan məlumata görə, banklarda olan əmanətlərin məbləği 7,1883 milyard manat idi. O dövrdə olan məzənnə ilə 9,2157 milyard dollar edir. 2015-ci il ərzində banklardan 3,1 milyard dollardan çox əmanət çıxarılıb. Mərkəzi Bank yanvar ayının nəticələrini hələ də gizlədir. Ehtimal etmək olar ki, əmanətlərin məbləği daha da azalıb və artıq 6 milyard dollardan da azdır. Onu da ehtimal etmək olar ki, əmanətlərin kütləvi çıxarılması prosesi davam edəcək. Səbəb aydındır, bank sisteminə etimadın azalması, Mərkəzi Bankın banklara səmərəsiz nəzarəti, bəzi bankların bağlanması və sığortalanmamış əmanətlərin faktiki batması, mövcud bankların bir qisminin əmanətləri həyasızcasına və cəzasız olaraq qaytarmaması, bankların problemli kreditlərinin xeyli artması və nəticədə əmanətlərin batma ehtimalları və sair. Bir səbəbi də xüsusi qeyd etmək lazımdır: dövlət istiqrazlarının buraxılması. Təbii, pulunu mütləq yerləşdirmək istəyən indiki dövrdə onu banka deyil, dövlətə etibar edəcək. Buna görə də əmanətlərdəki vəsaitlərin əksəriyyətinin dövlət istiqrazlarına axması qaçılmazdır".

**Ekspertin sözlərinə görə, “Əmanətlərin tam sığortalanması” haqqında Qanunun da yaxında qüvvəyə minməsi vəziyyəti ciddi şəkildə dəyişməyəcək:** “Çünki əmanətlərə dövlət deyil, əsli-nəcabəti məlum olmayan Əmanətlərin Sığortalanması Fondu təminat verir. Həmin Fondun özü də müflis ola bilər və bu halda əmanətlər batacaq, dövlət isə heç nəyə görə məsuliyyət daşımayacaq. Dövlət istiqrazlarına görə isə dövlət birbaşa cavabdehdir. Banklar üçün çıxış yolu şəffaf olmaq, ictimaiyyəti dəqiq və vaxtında məlumatlandırmaq, qeyri-sağlam bankları sıralarından xaric etmək, borclularla real və ciddi kompromisə getmək və xoş məramı göstərməkdir. Çünki kreditlər qayıtmasa, əmanətlərin də qaytarılması mümkün olmayacaq. Etimadı bərpa etmək lazımdır. Əks halda, əmanətləri tam itirəcəklər”.

**Əksər ekspertlər qeyd edirlər ki, əmanətlərin Sığortalanması Fondunun bağlanan banklardakı əmanətləri qaytarmaq üçün kifayət qədər vəsaiti yoxdur. Yəni bağlanan bankların sayı artarsa, əmanətlər ümumiyyətlə qaytarılmaya bilər. Əhali də bu kimi informasiyalardan qorxaraq pullarını çıxarır.**

❑ RÖYA

# 300 milyonluq istiqraz buraxılır - vətəndaşların narahatlığı əsaslıdırmı?

## Ekspertləri vəsaitdən dövlətin düzgün istifadə edib-etməyəcəyi düşündürür

**Maliyyə Nazirliyi manat və dollar nominallı qısamüddətli və ortamüddətli istiqrazların tədavül müddətini müəyyənləşdirib. İstiqrazların tədavül müddəti müvafiq olaraq 1 illədək və 5 illədək nəzərdə tutulacaq. Bakı Fond Birjasının məlumatına görə, tədavül müddəti 1 illədək olan qısamüddətli istiqrazlar 300 milyon dollar və 150 milyon manat məbləğində buraxılacaq.**

**Tədavül müddəti bir ildən beş illədək olan ortamüddətli istiqrazlar isə 200 milyon dollar və 250 milyon manat məbləğində nəzərdə tutulacaq. Dollar və manat istiqrazlarının prospekti Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən müvafiq olaraq yanvarın 26-sı və 27-də qeydiyyata alınıb. Hər bir istiqrazın nominal qiyməti müvafiq olaraq 100 manat və 100 dollar təşkil edir.**

Ekspertlər isə bildirirlər ki, dövlət istiqrazı bank əmanətindən təhlükəsizdir. Ekspert Əkrəm Həsənovun sözlərinə görə, manat və banklarla bağlı baş verənlərin fonunda istiqrazların buraxılması gözlənilən idi: “Prinsipcə, Maliyyə Nazirliyinin təşəbbüsüdür və təşəbbüs özü-özlüyündə düzgündür. Çünki əhalidə hələ yastıq altında xeyli vəsait qalıb. Aydın məsələdir ki, vəsait iqtisadiyyatda dövr etmədikdə ziyanlı, zərərlidir. Son nəticədə dövlətin bu dəqiqə vəsaitə ehtiyacı var. O vəsait əgər ölkə daxilində varsa, istənilən vəsaitin cəlb edilməsi, o vəsait üzrə kiməsə gəlir verilməsi özü-özlüyündə yaxşı haldır. Həm dövlət qazanacaq, həm də vətəndaş. Sadəcə, həmişə sual olunur ki, vəsaitdən dövlət düzgün istifadə edə biləcəkmi? O vəsaitdən vətəndaşlar doğrudan da gəlir əldə edəcəkmi? Əgər bu şərtə riayət olunsa, əlbəttə, düzgündür. Amma yenə də sual həmişə qalır ki, həmin vəsait kimlərin əlinə keçəcək və yenə də səmərəsiz istifadə edilsə, gəlir əldə edilməsə, vətəndaşlar nə edəcək? Amma hər bir halda, əgər vətəndaş mütləq pulunu harada yerləşdirmək istəyirsə, həm saxlanc məqsədilə, həm də gəlir əldə etmək üçün, yenə də dövlət istiqrazı bank əmanətindən təhlükəsizdir. Çünki ən azı dövlət həmin istiqraza qoyulan vəsaitə görə məsuliyyət daşıyır. Ən azı dövlətlə əvəzləşdirmək olar. O məsələ var ki, baxır o istiqraz hansı valyutada buraxılır. Təbii ki, dollarla olan istiqraz daha təhlükəsizdir”.

Qeyd edək ki, hökumət istiqrazlarla bağlı addımı valyuta bazarındakı ajiotajı aradan qaldırmaq və manata olan hörməti bərpa etmək kimi qiymətləndirir. Əksər ekspertlər isə bildirirlər ki, istiqrazların bazara, dövriyyəyə buraxılması hökumətin əhalidəki pulları əldə etməsi üçün fikirləşdiyi son çarədir.

**Ekspert Samir Əliyev**in sözlərinə görə, Manata etibarı yaratmaq istəyiriksə, valyuta bazarında sabitlik olmalıdır: “Hazırda manatın taleyi dünya bazarındakı neftdən asılıdır. Bundan başqa, digər təsir göstərən amil kapital axınıdır. Ölkədən güclü kapital axını var. Bu da manatı daim təzyiq altında qoyur. Biz bir ildə iki devalvasiyanın şahidi olduq. Əhalidə də təbii olaraq manata qarşı inamsızlıq var. Mərkəzi Bankın on milyarddan artıq valyuta ehtiyatı son dövrlərdə azalıb. Həmin o vəsaitin bir hissəsi kapital şəklində xarici ölkələrə çıxarılıb. Bu, qeyri-rəsmi formada olub. Kapitalın bir hissəsi isə Azərbaycandadır. Əhali yastıq altında onu gizlədir. Əhali deyəndə, mən 400-500 manatı dollara çevirən insanları nəzərdə tutmuram. Onların aldığı dolların payı heç yüksək deyil. Söhbət əhalinin gəlirli, imkanlı təbəqəsindən gedir ki, onların bazardan aldığı dolların dəyəri bir neçə yüz mindən başlayır, bir neçə milyona qədər çatır. Əsas bu insanlar böyük pul kütləsini yığıb. Ölkədə isə valyuta sabitliyi yaratmaq lazımdır. Manata etibarı yaratmaq istəyiriksə, valyuta bazarında sabitlik olmalıdır. Bunun üçün əvvəla, gərək dollar qıtlığı hiss olunmasın. Bu gün bankların az dollar aldığı bildirilsə də, banklar dollar satmırlar. Dollar qıtlığı var və dollar qıtlığı olduğuna görə də insanlarda manata etibar azalır. O baxımdan, etibar o zaman olacaq ki, dollar kifayət qədər olacaq və əhali istədiyi vaxt ala biləcək. İkincisi, manatın məzənnəsi sabit qalacaq, bu halda manata etibar artacaq. Manata etibarı artırmağın yollarından biri də ölkəyə valyuta gətirilməsidir. Ölkəyə valyuta gətirməyin yolları barədə ekspertlər fikirlər bildirirlər. Neft Fondunun vəsaitlərinin müəyyən hissəsinin gətirilməsi, həmçinin xarici borclanmaya getmək də bu yollardan biridir. Üçüncü, daxili borclanmadır. Ən yaxşı üsul daxili borclanmadır. Bu da manatla buraxan istiqrazlarla həyata keçirilə bilər. Bilmirəm həmin istiqrazlara tələbat hansı səviyyədə olacaq. Düşünmürəm ki, güclü tələbat olacaq. Ola bilsin, bir müddət sonra sabitlik yaranar, insanlar manata üz tutarlar. Bu halda həmin istiqrazları alarlar. Amma bu gün tələbat məhz dollar istiqrazına olacaq. Ona görə ki, banklara münasibətdə əhalidə narahatçılıq var. Müəyyən qədər inamın azalması kimi də dəyərləndirmək olar. Biz bunu müşahidə edirik ki, əmanət qoyub, sonra gedib götürə bilmir banklardan. Ona görə pulu artıq yastıq altında saxlayırlar. Ona görə əgər istiqraz buraxılarsa, arxasında dövlət dayanır və dövlət zəmanət verir. Və bu, insanların həmin istiqrazlara inamını artıracaq. İstiqrazların üstünlüyü ondan ibarət ola bilər ki, yastıq altındakı pullar



yenidən qayıdar ölkə iqtisadiyyatına. Elə daxildəki dolları iqtisadiyyata cəlb etmək olar. Bu baxımdan, istiqrazın buraxılması addımını müsbət dəyərləndirirəm. Ancaq bu, bank sektorunda əmanətlərin istiqraza yönəlməsinə gətirib çıxara bilər. Belə bir təhlükə var. Amma istənilən halda, əhalinin yastıq altındakı pulunu çıxarmağın yolu indiki zamanda, düşünürəm ki, istiqraz buraxmaqdır”.

**Ekspert Azər Mehtiyev** isə bildirib ki, istiqrazların dövriyyəyə buraxılması müsbət olsa da, yetərli deyil: “Bununla da əhalinin əlində olan pulların dövriyyəyə qaytarılmasına çalışacaqlar. Bu, doğru addımdır. Çünki həqiqətən də son zamanlar yaranmış qeyri-müəyyən mühitdə insanlar əllərində olan cüzi vəsaiti də dollara çevirməklə gözləmə mövqeyi tutublar. Bu vəziyyət iqtisadiyyat üçün ağrılı bir proses ola bilər. Getdikcə əhali ilə hökumət arasında münasibətlərin korlanmasına, etimadsızlığa gətirib çıxarar. Ölkədə iqtisadi aktivliyin artırılması baxımından ən müxtəlif addımlar atılmalıdır. Məsələn, əmanətlərin məbləğinin tam sığortalanması, dollar və ya manatla ola biləcək istiqrazların satılması vəsaitlərin dövriyyəyə cəlb olunmasını nəzərdə tutur. Banklarda kredit faizlərinin aşağı salınması, xüsusilə işgüzar insanlara aşağı faizlərlə güzəştli kreditlərin verilməsi və sair mexanizmlər tətbiq edilməlidir ki, ölkədə iqtisadi canlanma baş verə bilsin. Ancaq bu addımlar yetərli deyil”.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 28 (6349) 6 fevral 2016

# İqtidarın iqtisadi komandası-davammı, yoxsa...

## Dövlət başçısı neft pulları eyforiyasından sonra sanki şoka girən iqtisadi komandasını nəhayət ki, hərəkətə gətirməkdədir; tənqidçilər hesab edir ki, iqtisadi dəyişikliklər mütləq komandada yenilənmə ilə müşahidə edilməlidir...

**Neftin qiymətinin düşməsi Azərbaycanda yeni iqtisadi islahatları və qeyri-neft sektorunun inkişafını zəruri edib. Prezident İlham Əliyev ötən ilin sonlarından başlayaraq bu istiqamətdə bir neçə fərman və sərəncamlar imzalayıb. Dövlət başçısı neft pulları eyforiyasından sonra sanki şoka girən iqtisadi komandasını nəhayət ki, hərəkətə gətirməkdədir. Hətta uzun illərdir Bakıdan kənara çıxmayan Mərkəzi Bank sədri də nəhayət, rayon ictimaiyyəti ilə görüşlər keçirir.**

İqtidar tənqidçiləri hesab edir ki, iqtisadi dəyişikliklər mütləq komandada yenilənmə ilə müşahidə edilməlidir. Təbii ki, hökumətdə öz işini bilən və islahatlara töhfə verən kadrlar da var. Bununla belə, müstəqil ekspertlər də o rəydədir ki, Nazirlər Kabinetində yeni nəfəsə mütləq ehtiyac var. Ümumiyyətlə, iqtisadi çətinlik və ya böhran dövrlərində iqtidara yeni kadrların cəlb edilməsi hər zaman aktual məsələlərdən olur. Çünki bu həm iqtisadi siyasətlə bağlı müzakirələrə yeni çalar qatır və cəmiyyətə də ciddi mesaj olur.

Bu yazıda barəsində çox danışılan, tənqid edilən, bəzilərinin isə öydüyü iqtidarın iqtisadi komandasında əsas kimlərin olmasını bir daha yada salacağıq.

***


Natiq Əmirov


Vahid Axundov


Əli Əsədov


Şahin Mustafayev


Fazil Məmmədov


Samir Şərifov


Elman Rüstəmov


Heydər Əsədov


Natiq Əliyev

**Natiq Əmirov - prezidentin iqtisadi islahatlar üzrə köməkçisi**

1967-ci ildə Şabran rayonunda anadan olub. 1990-cı ildə N.A.Voznesenskiy adına Leninqrad Maliyyə-İqtisad İnstitutunu iqtisadçı ixtisası, 1998-ci ildə Elmi-Təhsil Mərkəzi Təfəkkür Universitetinin hüquqşünas ixtisası ilə bitirib. M.Əmirov 1991-ci ildən vergi sistemində çalışır. O, əvvəlcə Sumqayıt şəhərində sonra isə Bakılda müxtəlif vergi departamentlərində çalışıb. 2001-2003-cü illərdə Vergilər Nazirliyində departament rəisinin müavini, 2003-2005-ci illərdə İqtisadi Təhlil və Uçotun Təşkili İdarəsinin rəisi, 2005-2009-cu illərdə isə vergilər nazirinin müavini, köməkçi təyinatınadək isə vergilər nazirinin birinci müavini vəzifəsində çalışıb.

**Vahid Axundov - iqtisadi siyasət üzrə dövlət müşaviri**

1942-ci il fevralın 9-da Bakıda anadan olub. İqtisad elmləri doktorudur. 1-ci dərəcə dövlət müşavirinin əmək yolu 1960-cı ildən başlanıb. Bakı qalanteriya fabrikində çilingər işləyən V.Axundov qısa müddətdə avtomobil ehtiyatları zavoduna mühasib keçib. Azərbaycan SSR Dövlət Plan Komitəsində, müxtəlif elmi institutlarda fəaliyyət göstərib. Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda baş iqtisadçı, Azərbaycan SSR Dövlət Plan Komitəsinin Elmi Tədqiqat İqtisadiyyat və Planlaşdırma İnstitutunda şöbə müdiri, Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitutunda elmi işlər üzrə prorektor vəzifələrində işləyib. 1991-ci ildə Prezident Aparatına *(indiki Prezident Administrasiyası-red)* gətirilən V.Axundov prezidentin müşaviri vəzifəsinə təyin olunub. 1993-cü ilə qədər prezidentin iqtisadi siyasət üzrə dövlət müşaviri işləyən V.Axundov həmin ilin may ayında Nazirlər Kabinetinin İqtisadi siyasət və beynəlxalq əməkdaşlıq mərkəzinə direktor göndərilib. Bu post həmçinin baş nazirin baş iqtisadi müşaviri statusunu daşıyır. 1993-cü ildən isə iqtisadi siyasət üzrə dövlət müşaviridir.

**Əli Əsədov - prezidentin iqtisadi məsələlər üzrə köməkçisi**

1956-cı il noyabrın 30-da Bakı şəhərində anadan olub. Moskva Xalq Təsərrüfatı İnstitutunu bitirib. 1980-1989-cu illərdə Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda baş laborant, aspirant, kiçik elmi işçi, elmi işçi, 1989-1995-ci illərdə isə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda dosent, kafedra müdiri vəzifələrində çalışıb. 1995-2000-ci illərdə Milli Məclisin deputatı olub. 1998-ci ilin aprelindən prezidentin iqtisadi məsələlər üzrə köməkçisidir.

**Şahin Mustafayev - iqtisadiyyat naziri**

1965-ci ildə Ermənistanın Barana (Noyemberyan) rayonunda anadan olub. M.Voznesenski adına Maliyyə-İqtisad İnstitutunun Bakı filialını bitirib. 1990-1991-ci illərdə Bakı Baş Tikinti İdarəsində baş mühasib işləyib. 1991-1992-ci illərdə "Spektr" kiçik müəssisəsində baş mühasib, 1992-1999-cu illərdə Nəsimi rayonu üzrə Dövlət Vergi Müfəttişliyində dövlət vergi müfəttişi, böyük dövlət vergi müfəttişi, baş dövlət vergi müfəttişi və şöbə rəisi olub.

1999-2000-ci illərdə Baş Dövlət Vergi Müfəttişliyində şöbə rəisi, 2000-2003-cü illərdə Vergilər Nazirliyinin İqtisadi Təhlil və Uçotun Təşkili İdarəsinin rəis müavini, rəisi, 2003-2005-ci illərdə Dövlət Neft Şirkətində mərkəzi mühasibatlığın baş mühasibi, İqtisadiyyat və Uçot İdarəsinin, 2005-2006-cı illərdə Azərbaycan Dövlət Neft Şirkətinin iqtisadi məsələlər üzrə vitse-prezidenti, 2006-2008-ci illərdə vergilər nazirinin birinci müavini vəzifələrində işləyib.

2008-ci ildən nazirdir.

**Fazil Məmmədov - vergilər naziri**

1964-cü ildə Şamaxı rayonunda anadan olub. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun maliyyə-kredit fakültəsini bitirib. 1987-89-cu illərdə Gəncədə Sənaye-Tikinti Bankında iqtisadçı, kassa müdiri və Bakı Sənaye-Tikinti Bankının Əməliyyat İdarəsində iqtisadçı vəzifələrində çalışıb. 1989-cu ildən 1993-cü ilə qədər Maliyyə-Kredit Texnikumunda müəllim, kafedra müdiri işləyib.

1993-cü ildə "Ünsal" Kommersiya Bankı İdarə Heyətinin sədri seçilib. 1994-cü ildə Aqrar Sənaye Bankının Şəmkir şöbəsinin müdiri təyin olunub. 1995-1999-cu illərdə Dövlət Gömrük Komitəsinin Maliyyə-Tarif və Valyuta Nəzarəti Baş İdarəsi rəisinin müavini və rəisi, həmin sahə üzrə Gömrük Komitəsi sədrinin müavini vəzifəsində çalışıb.

1999-cu il iyun ayının 20-də Baş Dövlət Vergi Müfəttişliyinin rəisi təyin edilib. 2000-ci il fevral ayının 11-də vergilər naziri təyin edilib.

**Samir Şərifov - maliyyə naziri**

1961-ci ildə anadan olub. Kiyev Dövlət Universitetinin Beynəlxalq əlaqələr və beynəlxalq hüquq fakültəsinin beynəlxalq iqtisadi əlaqələr bölməsini bitirib.

1983-1991-ci illərdə SSRİ-nin xarici iqtisadi əlaqələr sistemində Bakıda və xaricdə *(Yəmən Xalq Demokratik Respublikası)* iqtisadçı, 1991-1995-ci illərdə Xarici İşlər Nazirliyinin Beynəlxalq İqtisadi Əlaqələr İdarəsində şöbə müdiri, idarə rəisinin müavini, 1995 - 2001-ci illərdə Milli Bankda *(indiki Mərkəzi Bank-red)* departament direktoru, baş direktor, 2001 - 2006-cı illərdə Dövlət Neft Fondunun icraçı direktoru vəzifələrində çalışıb. 2006-cı il aprel ayından maliyyə naziridir.

**Elman Rüstəmov - Mərkəzi Bankın sədri**

1952-ci ildə Cəbrayıl rayonunda anadan olub. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib. Əmək fəaliyyətinə 1973-cü ildən Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-tədqiqat İqtisadiyyat İnstitutunda iqtisadçısı vəzifəsindən başlayıb.

Azərbaycan SSR Yüngül Sənaye Nazirliyinin Bakı Zərif-Mahud istehsalat birliyində iqtisadiyyat idarəsinin rəisi işləyib. 1980-cı ildən 1990-cı ilədək Elmi-tədqiqat İqtisadiyyat İnstitutunda böyük iqtisadçı, bölmə müdiri vəzifələrində çalışıb. 1991-ci ildən 1992-ci ilədək Prezident Aparatında(indiki Prezident Administrasiyası-red) böyük məsləhətçi vəzifəsində işləyib.

1992-ci ilin dekabrında Milli Bankın İdarə Heyəti sədrinin birinci müavini, 1995-ci ilin yanvarından bu günəcən Mərkəzi Bankın(indi belə adlanır-red) İdarə Heyətinin sədridir. O həm də Dünya Bankının Azərbaycan üzrə sədridir.

**Heydər Əsədov - kənd təsərrüfatı naziri**

Heydər Əsədov 1959-cu il oktyabr ayının 24-də anadan olub. 1978-ci ildə Bakı Sovet Ticarəti Texnikumunun mühasibat uçotu fakültəsini, 1983-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Uçot-iqtisad fakültəsini bitirib.

1978-1984-cü illərdə İnstitutda oxuduğu illərdə fəhlə, mühasib, böyük mühasib, böyük təftişçi vəzifələrində çalışıb. 1983-1992-ci illərdə Azərbaycan Dövlət İqtisad İnstitutunda müəllim, baş müəllim vəzifələrində işləyib, 1987-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində namizədlik dissertasiyasını müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsini alıb.

1992-1995-ci illərdə Türkiyənin Mərmərə Universitetinin doktorantı olub. 1995-ci ildə maliyyə nazirinin müavini, 1996-2007-ci illərdə Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığının Baş direktoru işləyib.

2007-ci ildə Milli Məclisinin qərarı ilə Hesablama Palatasının sədri vəzifəsinə təyin olunub. 2013-cü ildən kənd təsərrüfatı naziridir.

**Natiq Əliyev - energetika naziri**

Natiq Əliyev 1947-ci il noyabrın 23-də Bakı şəhərində anadan olub. M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu dağ mühəndis-geoloqu ixtisası üzrə təhsil alıb.

İnstitutu bitirdikdən sonra "Xəzərdənizneftqazsənaye" Ümumittifaq İstehsalat Birliyinin "Azdənizneftkəşfiyyat" trestində, Kompleks dəniz geoloji-kəşfiyyat kontorunda işləyib. 1971-ci ildən Azərbaycan Elmlər Akademiyasının Geologiya İnstitutunun aspiranturasında təhsil alıb, 1974-cü ildən geologiya-mineralogiya elmləri namizədidir, böyük elmi işçi vəzifəsində çalışıb. 1979-cu ildə "Xəzərdənizneftqazsənaye" Ümumittifaq İstehsalat Birliyinin Kompleks dəniz geoloji-kəşfiyyat kontorunda geologiya şöbəsinin rəisi vəzifəsinə təyin olunub. 1984-cü ildən Azərbaycan Mərkəzi Komitəsinin aparatında neft və kimya şöbəsində təlimatçı, sonra isə sosial-iqtisadi inkişaf şöbəsinin bölmə müdiri vəzifələrində işləyib. 1993-cü ildən 2005-ci ilə qədər Dövlət Neft Şirkətinin prezidenti və Direktorlar Şurasının sədri, 1994-cü ildən Azəri-Çıraq-Günəşli yataqlarının işlənməsi üzrə layihənin Rəhbər Komitəsinin sədri, 2002-ci ildən Bakı-Tbilisi-Ceyhan Şirkətinin (BTC Ko) Direktorlar Şurasının sədri olub. 2005-ci ildən nazirdir. Beynəlxalq Şərq Neft Akademiyasının akademiki, 2008-ci ildən iqtisad elmləri doktorudur.

❑ **"Yeni Müsavat"**



# Xoruzun quyruğunu göstərən formula

**Zamin HACI**
zaminhaci@gmail.com

**Yalançı “sabitlik”, “inkişaf” nağılları danışmaqla deyil. Xoruzun quyruğu pırtlayıb ortaya çıxır.**

Örnək üçün, Gəncədə guya əmək yarmarkası keçirirlər, ancaq o qədər işsiz insan gəlir ki, idarədə basabasın qabağını almaq üçün polis kordonu yaradılır, tədbir isə təxirə düşür. Bəs “1 milyon yarım iş yeri” hanı?

Xaricdən kredit dilənirlər, millətin son pullarını isə “Formula-1" yarışına sərf edirlər. Bilinmir bu, kimə lazımdır. Azərbaycanı tanıtmaqdırsa, onsuz hamı tanıyır, ac, kasıb, nefti dəyərdən düşmüş, borc pul istəyən, korrupsionerlərin, siyasi məhbusların ölkəsi, ərazi bütövlüyünü 26 ildir bərpa edə bilməyən mağmın dövlət kimi dünyada məşhuruq. Elə bil kimsə uşaq vaxtı "Turbo" saqqızından çıxan maşın şəkilləri toplayırmış, indi də bu maşınları canlı görmək üçün yarış qayırır. Əks halda bunun mənası nədir?

Gənclər və idman nazirindən yarışın xərclərini soruşmuşdular, deyir, bunu hesablamaq çətindir. Əlbəttə. Əgər sən yarışı qayırmağı Azərbaycanı bəyənməyib Britaniyada ev alan öz doğma oğlunun - Arif Rəhimovun şirkətinə tapşırmısansa, xərclərin nə qədər olması nə vecinə? Dövlət büdcəsinin canı sağ olsun, papa qaqulyanı nə təhər yaşatmalıdır bəs? Hansısa dövlət məmurunun rəhbərlik elədiyi sahədə oğluna biznes sahəsi açmasının sivil dünyada bir adı var: korrupsiya. Sivil dünyada korrupsiya ilə məşğul olmaq isə həm də mədəniyyətsizlik, tərbiyəsizlik sayılır. Ancaq biz sivil dünya deyilik, kef eləyin.

Azad Rəhimov hesablaya (oxu: yığıb-yığışdıra) bilməsə də mətbuata bəzi rəqəmlər çıxıb. Misal üçün, deyirlər Formula-1 büdcəmizə 150 milyon dollara başa gələcək. Təkcə yarış üçün təkər-zad dəyişmə korpusunun (pit-stop deyirlər adına) tikilməsinə 30 milyon dollardan çox vəsait sərf ediləcək. Üstəlik, yarışın bu mərhələsini... 10 il Bakıda keçirmək qərarına gəlinib! Beynəlxalq ekspertlərin BBC-yə açıqladığı rəqəmə görə bu tip yarışı Bakı kimi şəhərdə qayırmağın illik xərci minimum 100 milyon dollar olurmuş. On ilə vursaq, 1 milyard dollar da belə getdi.

Əsl soyğunçuluqdur. Nə normal avtomobil yolu var, nə avtomobil idmanımız. Heç maşın istehsalımız da yoxdur, Çindən gələn hissələrdən yığılan əcaib Naz-lifan arabalarını çıxmaq şərtiylə. Bunlar isə korrupsiya xətrinə, özlərini xaricdəki hansısa korrupsionerə şirin salmaq naminə Bakıda onillik maşın yarışına razı olublar.

Dünən mətbuatda Bakı Ağır Cinayət Məhkəməsinin bir prosesindən yazı oxudum. Naxçıvanlı mütəşəkkil quldur dəstəsinin azı 2 yaşlı və köməksiz qadını öldürməsi, evini soyması haqda məhkəmə olmuşdur. Belə baxanda, adi kriminal kimi gəlir. Ancaq tələsməyin. Bu cinayət işinin mətbuata çıxan hissəsində xoruzun quyruğu gözə girirdi.

Demək, biri keçmiş polis əməkdaşı olan üç nəfərlik quldur dəstəsi 2012-ci ilin oktyabrında Naxçıvan şəhərində bir qadının evinə basqın edib, onu boğub öldürüblər, evdən pul, qızıl aparıblar. İndi gəlin yazıdan hissəni oxuyaq: “N.Axundovanın yaxınları onu mənzildə ölmüş vəziyyətdə aşkar ediblər. Bədənində heç bir xəsarət aşkar edilmədiyindən bu barədə hüquq-mühafizə orqanlarına məlumat verməyiblər. Hadisədən uzun müddət sonra N.Axundovanın kəskin ürək çatışmazlığından ölməsi deyil, qətlə yetirildiyi məlum olub”. Maraqlı gəldimi? Gəlmədisə, söhbəti anlamadınızsa, ardını oxuyun. Ancaq bir ip ucu verə bilərəm: ölümün qeydə alınması üçün xəsarətə ehtiyac yoxdur, mütləq qaydada məhkəmə qətnaməsi olmalıdır.

2014-cü il, may ayı. Dəstə üzvləri Naxçıvan şəhərində növbəti qətli törədib evi soyublar. Sitat: “T.Əhmədovanın ailə üzvləri onu huşsuz vəziyyətdə tapıblar. Onlar əvvəlcə mərhumun beyninə qan sızması nəticəsində dünyasını dəyişdiyini güman ediblər. Ona görə də hüquq-mühafizə orqanlarına məlumat verməyiblər. Amma sonradan T.Əhmədovanın qətlə yetirilməsi və mənzilin qarət edildiyi məlum olub”.

**Bax, ümid edirəm indi məsələni anladınız. Hüquq-mühafizə orqanları, özəlliklə Naxçıvan xanının anklavındakı hüquqi vakuum şəraitində cinayətlər adətən hesaba-kitaba alınmır, yalançı “bizdə kriminal dünyadan azdır” görüntüsü yaradılır. Bu cinayətlər də sonradan açılıb məhkəməyə göndərilməzdi, kim bilir, dəstənin növbəti qurbanı hansı hakim dairə nümayəndəsi olub.**

# Azərbaycan Suriyaya hansı yardımları edəcək?

## Prezidentin Londona dəvətinin və tədbirdə çıxışının ortaya çıxardığı həqiqətlər

**Londonda “Suriyaya və regiona dəstək” donor konfransı keçirilib. Tədbir Böyük Britaniya, Almaniya, Küveyt, Norveç və BMT-nin birgə təşkilatçılığı ilə keçirilir. Tədbirdə Azərbaycan prezidenti İlham Əliyev də iştirak edib. Dövlət başçısı BMT-nin baş katibi Pan Gi Mun, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş naziri Devid Kemeron, Almaniya kansleri Angela Merkel, Norveç Krallığının baş naziri Erna Solberq və Küveyt əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın dəvəti ilə tədbirə qatılıb.**




Prezident İlham Əliyev konfransda “Təhsil” mövzusunda sessiyadakı çıxışında bildirib ki, Azərbaycan Suriya qaçqınlarının halına çox acıyır. 1990-cı illərin əvvəlində qonşu Ermənistan Azərbaycana qarşı təcavüz edəndə Azərbaycan özü humanitar fəlakət və böhrandan əziyyət çəkib: “Bu təcavüz nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olundu. Biz etnik təmizləməyə məruz qaldıq. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Bu, həqiqətən də humanitar fəlakət idi. O zaman ölkəmiz çox gənc və kasıb idi. Həmin vaxt adambaşına düşən qaçqın sayına görə ən yüksək göstərici olan səkkiz milyon əhalidən bir milyonu evsiz və işsiz qalaraq, yaşayış imkanlarından məhrum olmuşdur. Biz beynəlxalq humanitar təşkilatlara, xüsusilə tariximizin çətin məqamında bizə dəstək olan BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığına minnətdarıq”.

**Ölkə başçısı qeyd edib ki, bu gün Azərbaycan özü donor ölkədir. Biz, Suriya qaçqınları da daxil olmaqla maliyyə yardımını təmin edirik**: “1994-cü ildə Azərbaycan ilə Ermənistan arasında atəşkəs rejimi müəyyən edilmişdir. Əfsus ki, o vaxtdan bəri danışıqlar masası ətrafında bu münaqişənin həlli ilə bağlı ciddi irəliləyişə nail olunmamışdır. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq, 20 ildən artıqdır ki, Ermənistan tərəfindən bu qətnamələrə məhəl qoyulmur.

Lakin 1994-cü ildə atəşkəs razılığının əldə olunması bizə inkişaf etmək imkanını verdi. O vaxtdan bəri Azərbaycanın inkişafı çox sürətli olub. Biz demək olar ki, 250 min qaçqını lazımi ev şəraiti ilə təmin edə bildik. Bizdə qaçqınlar da daxil olmaqla 100 faiz savadlılıq səviyyəsi var. On il bundan əvvəl qaçqınların təxminən 70 faizi yoxsulluq şəraitində yaşayırdı. İndi isə qaçqınlar arasında yoxsulluq səviyyəsi yalnız 12 faiz təşkil edir. Ümumilikdə işsizlik və yoxsulluq 5 faizdir. Mən bu göstəriciləri nəyə görə sizin diqqətinizə çatdırıram? Çünki ölkə yalnız sabitlik və sülh şəraitində inkişaf edə və böyük çətinliklərin öhdəsindən gələ bilər. Bu gün biz bir çox çıxışları və yardım çağırışlarını dinlədik. Azərbaycan Suriyada humanitar inkişafa artıq töhfə vermiş və verəcək ölkələr arasındadır. Lakin ən əsası sülh, atəşkəs, siyasi həllin tapılmasıdır. Yalnız bundan sonra iş yerləri açılacaq, təhsil istənilən səviyyədə olacaq və insanlar öz gələcəyinə inanmağa başlayacaqlar. Biz bu böyük iqtisadi və sosial çətinliklərdən əziyyət çəkmiş bir ölkə kimi buna necə nail olmağın yolunu bilirik. Biz iş yerlərinin yaradılmasında təcrübəmizi paylaşa bilərik. Son on illikdə Azərbaycanda 1,5 milyon iş yeri yaradılmışdır. Biz təhsil sahəsindəki təcrübəmizi də paylaşa bilərik. Ölkəmizdə 3 mindən çox məktəb inşa edilmişdir və dediyim kimi, Azərbaycanda 100 faizlik savadlılıq səviyyəsinə nail olunmuşdur. Humanitar böhranın idarə olunması üzrə təcrübəmizi də paylaşa bilərik və biz bunu edəcəyik. Lakin ən önəmlisi sülhdür. Buna görə də Suriya böhranı üzrə siyasi həllin mümkün qədər tez tapılması bizim gündəliyimizdə duran bir nömrəli məsələdir. Əminəm ki, bu gün apardığımız müzakirələr həmin siyasi həllin tapılmasında öz vacib rolunu oynayacaqdır. Bu gün Azərbaycan əsaslı maliyyə və iqtisadi potensialı olan bir ölkə kimi buna sülh deyil, yalnız atəşkəs şəraitində nail ola bilmişdir.

Əlbəttə ki, biz Suriyadakı bacı və qardaşlarımıza dəstək olmaqda davam edəcəyik. Biz Suriya qaçqınlarını qəbul etmək üçün üzərinə belə böyük bir yükü götürən ölkələrə minnətdarıq. Bir daha qeyd etmək istəyirəm, biz buraya sülhü və bu cür dəyərləri təşviq etmək üçün gəlmişik. Bu baxımdan Azərbaycan öz vacib rolunu oynamağa davam edəcək".

Qeyd edək ki, Cənubi Qafqaz ölkələrində sözügedən konfransa yalnız Azərbaycanın prezidenti dəvət edilib.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, müstəqil politoloq Elxan Şahinoğlu**nun fikrincə, Azərbaycanın dünyanın diqqət mərkəzində olan ciddi problemlə bağlı keçirilən tədbirə dəvət edilməsi ölkəmizin mövqeyinə, imicinə müsbət təsir göstərəcək: “Suriya ilə bağlı keçirilən həmin konfransda nə Gürcüstandan, nə Ermənistandan, nə də orta Asiya respublikalarından heç kim dəvət olunmamışdı. Azərbaycan tərəfi mesajlar göndərib ki, biz Suriyanın yenidən qurulmasında iştirak edə bilərik. Azərbaycan prezidentinin dəvət olunmasında bu amil də rol oynayıb. Tədbirin təşkilatçıları Azərbaycanın orada iştirakında çox maraqlı idilər. Vaxtilə ABŞ da çalışırdı ki, Azərbaycan antiterror koalisiyasında iştirak etsin. Ona görə ki, Azərbaycan müsəlman ölkəsidir, əhalinin əksəriyyəti şiələrdir. Azərbaycan kimi müsəlman ölkəsinin həlbi koalisiyanın imici baxımından da Qərbə lazım idi.

Dövlət başçısı İlham Əliyevin Londonda Suriyaya yardım konfransında iştirakını müsbət qiymətləndirirəm. Bəli, indi bizim də iqtisadi vəziyyətimiz qənaətbəxş deyil, insanların sosial problemlərinin həllinə ehtiyac var. Ancaq ən ağır durumuzda belə Suriyadakı insanların acınacaqlı durumuna biganə qala bilmərik, biz də bu prosesdə simvolik də olsa, iştirak etməliyik. Hətta bir neçə yüz və ya bir neçə min türkmənin və ya ərəb mənşəli suriyalının Azərbaycanda yerləşdirilməsində də qəbahətli heç nə görmürəm, bununla qardaş Türkiyənin də dərdinə şərik çıxarıq. Bizdən böyük məbləğ də tələb olunmayacaq. Necə ki, biz bu gün Əfqanıstana maliyyə yardımı edirik, hərbçilərimiz oradadır, əfqan mütəxəssislər Bakıda müxtəlif kurslara cəlb edilirlər, o cümlədən qardaş Pakistana yardım edirik, zəlzələdən əziyyət çəkən pakistanlıları unutmuruq və bu ölkədə məktəb inşa edirik, eləcə də vaxt gələcək Suriyanın yenidən qurulmasında da rol almağımız mümkündür. Azərbaycan Cənubi Qafqazın lider dövləti statusunu daşımaq istəyirsə, məncə öz vətəndaşları ilə yanaşı ağır durumda olan qonşu dövlətlərin də sosial problemlərinin həllində bu və ya digər dərəcədə rol oynamalıdır. Bu, həm Azərbaycanın imici baxımından vacibdir, həm də bir sosial məsuliyyət məsələsi də var. Azərbaycanın bu addımı sosial məsuliyyətini dərk eləyən, yardımsevər bir ölkə olduğu imicini möhkəmlədəcək. Bu, ölkəmizin dünyada mövqelərinə də müsbət təsirini göstərəcək".

**E.Şahinoğlu onu da dedi ki, dövlət başçısının Londonda çıxışı da həm Suriya xalqına dəstək ifadə etmək, həm də Azərbaycanın özünün torpaqlarının işğalda olduğu, qaçqınlar problemi olduğunu bir daha mötəbər tribunadan bəyan etmək baxımından müsbət qiymətləndirmək lazımdır.**

❑ Etibar SEYİDAĞA

Hökumətdə yeni antikorrupsiya tədbirləri başlayıb - təfsilat

**Azərbaycanda neft gəlirlərinin kəskin azalması ilə yaranmış mövcud iqtisadi vəziyyət, xüsusən manatın devalvasiyasından sonra bölgələrdə lokal etiraz aksiyaları korrupsiya və rüşvətxorluqla mübarizənin çörək qədər vacib olduğunu göstərdi.**



# İqtidar daxilində yarıməxfi saxlanılan şok gəlişmə

Yanvar ayının 1-dən bütün nazirlik və komitələrdə qeyri-rəsmi ödənişlər tam dayandırılıb - bu, indiyədək hökumətdə görünməyən miqyaslı və riskli prosesdir; **Ekspert:** "Amma bundan daha risklisinin nə ola biləcəyini prezident İlham Əliyev hələ də gözü doymayan bəzi məmurlardan yaxşı bilir..."

Azərbaycanda siyasi sabitliyi dayanaqlı edən iqtisadi şərtlərin neft gəlirlərinin azalması ölkədəki prosesləri təhlükəli məcraya yönəldə bilər. Hələ ötən ilin əvvəlindən prezident İlham Əliyev keçirdiyi müşavirələrdə ölkədəki iqtisadi problemləri ardıcıl sadalayaraq, "artıq hövsələm tükənib" deyərək rüşvətə və digər neqativ hallara son qoymağı tələb edirdi.

Azərbaycanda antikorrupsiya kampaniyasına 2011-ci ilin yanvarında - Yaxın Şərqdə ərəb inqilabları qızışan ərəfədə başlamışdı. Hakimiyyət cəmiyyətin ən çox qıcıq verdiyi, gündəlik həyatında rastlaşdığı korrupsiyaya və rüşvətə qarşı mübarizəyə start verdi. Doğrudur, bu prosesdə iri məmurlar həbs edilmədi. Amma indi neftin qiymətinin yaratdığı böhran təkcə ətraf və ya uzaq ərəb ölkələrində deyil, Azərbaycanın daxilinə yansıdığından bu prosesdə heç kim prezidentin də bildirdiyi kimi toxunulmaz deyil. "MTN işi", ondan sonra rabitə və informasiya texnologiyaları nazirinin cəzalandırılması da göstərdi ki, bu dəfə iqtidar sahibi kifayət qədər təşkilatlanmış, hakimiyyət qanadlarında inzibati və maliyyə resursları ilə möhkəmlənmiş böyük bir qrupun da "əlini kəsmək" iradəsinin ortaya qoyub. Eldar Mahmudov çetesinin çöküşü, Əli Abbasovun korrupsiyaya bulaşmış nazirliyindəki həbslər yeni hakimiyyət modelinə qarşı müqavimət göstərənlərə dərs oldu. "Biz korrupsiyaya, rüşvətxorluq üçün, əgər belə demək mümkündürsə, meydanı daraltmalıyıq. Azərbaycanda hazırda elə islahatlar aparılmalıdır və aparılır ki, bu meydan daha da daralsın və bu bəla, bu yara aradan götürülsün" deyə, prezident son çıxışlarından bildirib.

Məlumata görə, yanvar ayının 1-dən bütün nazirlik və komitələrdə qeyri-rəsmi ödənişlər tam dayandırılıb, Hakimiyyətə yaxın mənbə "Yeni Müsavat"a deyib bu, indiyədək hökumətdə görünməyən miqyaslı bir prosesdir. Söhbət ondan gedir ki, indi cibinə pul qoyub kiminsə kabinetində hər hansı bir işi aşırtmaq, razılaşdırmaq faktiki mümkün deyil. Mənbə iddia edir ki, indilikdə məmurlardan buna kiminsə cəsarət edə biləcəyi də ağlabatan deyil. "İndi hansısa məmurun qapısına belə niyyətlə getsə belə, bəlkə də həmin adamı həbs etdirərlər. Çünki həssas zaman yetişib və iqtidar komandasında bu məsələdə təşviş aşkar hiss olunmaqdadır" deyə, qaynaq bildirib. O da deyilir ki, bu səbəbdən bəzi oliqarx-məmurlar onlara yaxın iş adamlarına ehtiyatlı olmağı, kimsə ilə bu istiqamətdə "razılaşmaya" getməməyi tapşırıb.

Xəbərlər var ki, 2011-ci ildən fərqli olaraq hakimiyyət bu dəfə antikorrupsiya tədbirlərini kampaniyaya çevirmir, amma bu bəlanın kökünü kəsmək üçün daha səmimi və israrlıdır. İqtidarın "rüşvətə qadağa"sının təbliğata çevirməməsinin bir sıra səbəbləri var. İqtidar hazırda dünya maliyyə institutları ilə danışıqlar aparır ki, indilikdə bunun açıq kampaniya kimi aparılması əngələ çevrilə bilər. Digər tərəfdən, gözü hər iki mənada iqtidarda olan dağınıq müxalifət də bu prosesi hakimiyyətin özünə qarşı çevirə bilər. Daha bir səbəb hətta neft böhranı ilə bağlı vəziyyətdə belə daha çox qazanmaq hərisliyindən əl çəkməyənlərlə bağlı ola bilər. Sirr deyil ki, bu proses iqtidar daxilində müəyyən narazılıq yarada bilər. Qeyri-rəsmi gəlirlərdən və "yağlı büdcədən" əli üzülmüş bəzi məmurlar açıq müqavimətə başlaya, sosial narazılıqları körükləməkdə maraqlı ola bilərlər. Bu səbəbdən də onları daha çox qorxutmamaq, mediada küncə sıxmamaq üçün proses daxildə, KİV-lərə sızmaması üçün yarı-məxfi aparılır.

Xəbəri "Yeni Müsavat"a şərh edən siyasi ekspert deyib ki, antikorrupsiya tədbirləri indilikdə hakimiyyətin iqtisadi islahatlar istəyi qədər əhəmiyyətlidir. "Komandada korrupsiya yığışdırılmasa, iqtisadi islahatların heç bir effekti olmayacaq. Bu, indilikdə həm də riskli prosesdir, amma bundan daha risklisi xalqla üz-üzə qalmaqdır. Bunu isə İlham Əliyev hələ də gözü doymayan məmurlardan yaxşı bilir" - deyə, ekspert bildirib.

❑ **"Yeni Müsavat"**

# İsa Qəmbərin keçirəcəyi tədbirə Hafiz Hacıyev dəvət edilib?



Razim Əmiraslanlı

## **Razim Əmiraslanlı:** "Görünür bu, Hafiz Hacıyevin uğursuz bir zarafatıdır"

**Fevralın 6-da İsa Qəmbərin sədrlik etdiyi Milli Strateji Düşüncə Mərkəzi *(MSDM)* "Böhrandan çıxış yolu" mövzusunda Dəyirmi Masa keçirəcək. Bu barədə MSDM-dən verilən xəbərdə deyilir ki, tədbirdə MSDM-in cəmiyyətə təqdim etdiyi "Böhrandan imkana" adlı Yol Xəritəsinin layihəsi müzakirə ediləcək. İctimai-siyasi xadimlərin, ziyalıların, ekspertlərin iştirakı ilə keçiriləcək tədbir mediaya və maraqlananlara açıq olacaq. Tədbir Müsavat Partiyasının mərkəzi qərargahında saat 15-də başlayacaq.**

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev** isə dünən publika-az saytına açıqlamasında deyib ki, **Müsavat Partiyasının keçmiş başqanı, Milli Strateji Düşüncə Mərkəzinin (MSDM) sədri İsa Qəmbər** fevralın 6-da keçirəcəyi "Böhrandan çıxış yolu" adlı dəyirmi masaya onu da dəvət edib. H.Hacıyev dəyirmi masada iştirak edə bilməyəcəyini qeyd edib: "İsa Qəmbər sabah keçirəcəyi dəyirmi masaya məni də dəvət edib. Lakin mən orada iştirak edə bilməyəcəm. Çünki Türkiyəyə üç günlük səfərim var. Ölkədə olmayacağam".

**Müsavat Partiyasının təşkilat şöbəsinin müdiri, Divan üzvü Razim Əmiraslanlı** isə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, sözügedən dəyirmi masaya dəvətlilər arasında Hafiz Hacıyev yoxdur: "Görünür dəvət barədə həmin sayta açıqlaması Hafiz Hacıyevin uğursuz bir zarafatıdır".

❑ **E.SEYİDAĞA**

# Nə hərb, nə sülh - əsəb savaşı...



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Bölgə və dünya Rusiya ilə Türkiyə arasında gərginliyi nəfəsini içinə çəkərək, maraq və diqqətlə izləməkdə davam edir. Çünki regional və qlobal sülh xeyli ölçüdə məhz bu gərginliyin sonucundan asılıdır. Optimistlər prosesin artıq kulminasiya nöqtəsinə çatdığını və bu üzdən tərəflərin barışmaq zorunda olduğunu söyləsə də, rusiyalı analitik Sotnik kimi skeptiklər əksinə - müharibənin qaçılmaz olduğunu iddia etməkdədirlər.**

Gerçək isə belədir ki, hazırda nə hərb var, nə də sülh. Hələ ki əsəb savaşı gedir. Bu da sizə son qənaətin lehinə işləyən bir neçə təzə fakt: Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Mariya Zaxarova dünən keçirdiyi brifinqdə Ankaranı yenə terrorçuluğa dəstək verməkdə ittiham edib, Rusiya hərbi təyyarəsinin Türkiyə hava məkanını pozmadığını, guya "Ankaranın Suriyanın şimalında, sərhəd bölgəsində hərbi gücünü möhkəmlətmək üçün bəhanə axtardığını" bəyan edib.

Deyəsən Rusiyanın əlindəki coğrafiya xəritələrində Türkiyənin hava sərhədləri qardaş ölkənin beynəlxalq miqyasda tanınmış sərhədləri ilə üst-üstə düşmür axı. Hər halda sonuncu pozuculuq faktını Türkiyənin HHQ ilə yanaşı, Pentaqon və NATO da fiksə və təsdiq edib. Yəni rusların burcutmasına zərrəcə yer qalmır.

Ankaranın terrorçuluğu dəstək verməsi iddiasına gəlincə, bu da əlbəttə ki, absurddur və şimal qonşumuzun "çağırılmamış qonaq" qismində Suriyaya girməsini əsaslandırmağa yönəlik növbəti bəhanə axtarışından savayı bir şey deyil. Ən azı, ona görə ki, Türkiyə lap əvvəldən terrorla mübarizənin ön cəbhəsindədir və o üzdən terrordan da ən çox əziyyət çəkən üç ölkədən biridir.

Təsadüfi deyil ki, Rusiya rəsmisinin açıqlamasından dərhal sonra Türkiyənin baş naziri Əhməd Davudoğlu Kremli və Əsəd rejiminin digər müttəfiqlərini bu ərəb ölkəsində hərbi cinayətlər törətməkdə suçlayıb. Bunun ardınca isə Rusiya Müdafiə Nazirliyinin nümayəndəsi Türkiyəni Suriyaya intensiv hərbi müdaxiləyə hazırlaşmaqda ittiham edib.

Beləcə, Moskva və Ankara arasında əsəb savaşı səngimək bilmir - hərgah, əksər təhlilçilərə görə, münasibətlərdəki böhran nə Moskvaya və Ankaraya, nə də bütövlükdə bölgəyə yaxşı heç nə vəd eləmir və bunun altını ən əvvəl iki dövlətin xalqı, iş adamları, sadə vətəndaşlar, ortaq ailələr çəkir, çəkəcək.

Ancaq bu gün o fakt da ortadadır ki, belə təhlükəli durum məhz Rusiya Suriyaya girdikdən sonra, yəni bilavasitə Kremlin günahı və səhvi üzündən ortaya çıxıb. Ayrı sözlə, ortada Türkiyəlik bir şey yox. Hətta Ankara rəsmilərindən biri bu günlərdə belə bir ifadə işlədib ki, "biz yalnız özümüzü yanımızda peyda olan Rusiyadan qorumağa çalışırıq".

***

Yazı hazırlanarkən isə xəbər gəldi ki, prezident Vladimir Putin Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın görüş təklifindən imtina edib, ümumiyyətlə, belə bir görüşün planlaşdırılmadığı bəlli olub. Beləcə, top yenə Rusiya tərəfdə qalmaqda davam edir. Çünki rəsmi Ankara bununla neçənci dəfə səmimi şəkildə münasibətlərin qaydaya salınmasında maraqlı olduğunu nümayiş etdirib. Ona görə yox ki, qardaş ölkə Rusiyadan çəkinir, o səbəbə ki, situasiyanın öz xalqının maraqlarına uyğun olmadığının fərqindədir.

Görünür, Kremli rus xalqının düşdüyü ağır iqtisadi-sosial durum ciddi düşündürmür. Ərdoğanla Putini sərt liderlər olaraq, çox hallarda bir-birinə bənzətsələr də, iki ölkənin siyasi sistemləri və idarəçiliyindəki başlıca fərq də zatən, budur: Türkiyədə sistem toplumun maraqları üzərində qurulubsa və legitimdirsə, Rusiyada hakim klanın və hərbi-sənaye kompleksinin mənafeyinə söykənib və qeyri-legitimdir.

**Ona görə də əsəb müharibəsi davam edir. Ta o vaxta kimi də yəqin sürəcək ki, iki ölkənin birində hakimiyyət dəyişikliyi olacaq. Ona qədər tək istək bu ki, soyuq savaş qaynar fazaya keçməsin...**

YENİ MÜSAVAT
N 28 (6349) 6 fevral 2016

# Deputat həyatının gizlinlərini açdı

## Fazil Mustafa: “İstədiyim Azərbaycanı qurmaq üçün hansı şərtlər altında olur-olsun, onun mübarizəsini aparacam”

**Səmimi söhbət üçün bu dəfə öz fikir, ideya, tezisləri ilə hər zaman fərqlənən millət vəkili Fazil Mustafaya üz tutduq. Millət vəkili ilə parlamentdə görüşdük. Dostları onun barəsində zahirən sakit, qaradinməz, soyuqqanlı görünüşün arxasında əslində çox zəngin, maraqlı insan dayandığını deyirlər. Buna görə də müsahibimlə maraqlı söhbətimiz olacağına öncədən inanırdıq. Beləliklə, müsahibəyə millət vəkilinin ən çox sevdiyi hobbisindən söz açaraq başladıq:**



**“Məni dədə-baba qaydası ilə - ”Arşın mal alan"da olan kimi evləndiriblər"**

***- Fazil bəy, dostlarınız sizi “futbol dəlisi” adlandırır...***

- Dəlisi deməzdim (gülümsəyir). Hobbim tək futbol deyil, basketbolu da çox yaxşı oynayıram. Bu gün səhər futboldan gəlmişəm, dünən axşam isə üzgüçülükdə idim. Şahmat da oynamağı xoşlayıram. Baxmayaraq Ərəbistanda şeyx şahmatı haram buyurub, amma hesab edirəm ki, oynamaq lazımdır. Çünki insanın düşüncəsini formada saxlamaq, müəyyən dərəcədə siyasi, həyat gedişlərini daha dərindən anlamaq üçün faydalıdır.

Eyni şeyi mütaliə haqqında da demək olar. Gündə ən azı yarım saat, 45 dəqiqə mütaliə etməsəm, rahat yata bilmirəm. Vaxtım az olanda mütaliəni daha çox təyyarəyə saxlayıram. Bunların hamısı dəlilik deyil, amma hobbi sayıla bilər. Həyatının maraqlı keçməsi, həm də özünü zənginləşdirmək üçün boş durmaq olmaz.

***- Şahmatdan söz düşmüşkən, deyilənə görə Milli Məclisdə boş vaxtınız olan kimi şahmat oynayırsız.***

- Əslində, Milli Məclisdə çox da boş vaxtımız olmur. Fasilədə vaxt olanda əsasən də Qüdrət Həsənquliyevlə oynayırıq. Çox vaxt onun ofisinə gedirəm. Digər millət vəkillərindən Tahir Rzayevlə rastlaşanda oynayırıq.

***- Bəs futbolu hansı millət vəkilləri ilə oynayırsız?***

- Əvvəllər hamısı ilə oynayırdım. Sonra onların böyük əksəriyyəti futbolu tərk etdilər. Son vaxtlaradək Adil Əliyevlə tez-tez bir yerdə oynayırdıq. O da işi olmayanda gəlir. Amma mən “Neftçi”nin bazasına daimi gedir, orda əsasən keçmiş futbolçularla oynayıram.

***- Deyirlər uduzanda komanda yoldaşlarınızın üstünə qışqırırsız. Ən çox da ərk etdiyiniz Zahid Oruc olur.***

- Ümumiyyətlə, tək futbol deyil, digər idman növlərində də çox çılğın oynayıram. Uduzmağı xoşlamıram deyə komandanın bütün üzvlərindən məsuliyyətli və fədakar oynamasını tələb edirəm. Qalib gələndə rəqib komandaya müəyyən dərəcədə sataşmalarımız, zəif olduqları barədə fikirlər səsləndirməyimiz onlar üçün çox üzücü olur. Amma özümüz uduzanda bizə qarşı da eyni halı tətbiq edirlər.

***- Ötən il sizin şeir və tərcümələrinizdən ibarət kitabınız çap olundu. Maraqlıdır, şeirləriniz daha çox hansı mövzudadır?***

- Bu mənim 20-30 il öncə yazdığım şeirlərdir. Orda sevgi, Güney Azərbaycan, vətən, bütövlükdə bir insanın ölümü, həyata baxışı mövzusu var. Yəni konkret olaraq bir istiqamətdə mövzum olduğunu düşünmürəm. Hazırda yeni şeir yazmıram. Siyasətlə aktiv məşğul olandan şeir və siyasəti bir arada düzgün hesab etmədim. Ümumiyyətlə, siyasətdə duyğusallaşmağı istəmirəm.

***- Adətən tanınmışlar haqqında şayiələr uydurulur. Sizin haqqınızda isə belə bir şayiə danışılır ki, gənclikdə bir qıza aşiq olmusuz. Bundan xəbər tutan qızın qardaşları üstünüzə hücuma gəlib.***

- Ümumiyyətlə mən aşiq olmamışam. Xoşlamışam, kiməsə xoş duyğularım olub, amma məcnunluqla aram olmayıb. Cəmiyyətdən kənara çıxa biləcək bir pozisiyada olmaq, formata düşməyə maraqlı olmamışam, heç vaxt sevməmişəm. Aşiq olmaq həm də cəmiyyət həyatından təcrid olunmaqdır. Bu, mənim üçün bəlkə də yaxşı bir şey olardı, amma onu yaşamamışam. Kiminləsə konkret olaraq belə bir həddə gəlib çıxa biləcək münasibətim olmayıb.

Sevgi, mənə el gəlir ki, insanın izah edə bilməyəcəyi bir şeydir. Hətta ailə, yaşadığın qadınla, yaxud da tanıdığın, dostluq etdiyin insanlarla da bunu müəyyənləşdirmək çətindir. Həyat eşqi güclü olan şəxslərdə insana böyük sevgi olur. Məndə belədir. Ola bilsin ki, onun bir qismi ata-anaya, qadınına, dostuna da köçür. Buna görə də bütöv bir sevgini bir yerə paylamaq kimi bir anlayış yoxdur. Mənə elə gəlir ki, mən öz sevgimi həyatım boyu paylaya bildiyimə görə bir qədər rahatam, bu gün nəyinsə əzabını, bir sıxıntısını, iztirabını çəkmirəm.

***- Aşiq olmadığınızı deyirsiz, ona belə çıxır ki, sevib evlənməmisiz?***

- Yox, sevib evlənməmişəm. Ailə həyatım sırf təsadüfə dayanır. Məni dədə-baba qaydası ilə - “Arşın mal alan”da olan kimi evləndiriblər. Ailə həyatı insanı tamamilə dəyişir. Bu qədər ailəyə bağlı insan olacağımı təsəvvür etmirdim.

***- Hərdən sizi “hakimiyyət yönlü deputat” adlandırırlar. Bu, sizi qıcıqlandırmır?***

- Qətiyyən. Mən artıq ideoloji sədləri keçmiş adamam. Deyir “Əvvəl özünü tanı, sonra elə nəzər elə”. Fazil Mustafa özünü tanıyan adamdır. Həyata baxışımda, dünya görüşümdə xeyli dəyişikliklər olub. Dəyişməyən insan anormal insandır. İnsan oxumalı, öyrənməli, keçmişdə bildiklərinin üstünə əlavələr etməli, yenilənməlidir. Amma mənim insanlara fayda vermək missiyam heç vaxt dəyişməyib. Hər zaman daxilən cəmiyyətin yaxşı yaşaması üçün çalışan insanam.



Mənim də istədiyim Azərbaycan qurulmayıb. Amma bu, o demək deyil ki, mən ölkədən köçüb getməliyəm. İstədiyim Azərbaycanı qurmaq üçün hansı şərtlər altında olur-olsun, onun mübarizəsini aparacam.

Mənim siyasi fəaliyyətim nə hökumət, nə də müxalifət yönlüdür. Mənim bu gün siyasətə baxışım sırf müstəqil, öz görüşlərini Azərbaycan cəmiyyətə təbliğ edən bir siyasətçinin mövqeyidir.

***- Fərqli fikir və ideyalarınızı, tezislərinizi daha çox facebookda paylaşırsız. Bəlkə də sosial şəbəkədən ən çox istifadə edən deputatsız.***

- Facebook əslində döyüş, açıq polemika yeridir. Həm də cəsarət tələb edir. Hamının qarşısına çıxırsan. Bəzən söyüşdüyüm anlar olub. Kimlərsə təhqir edib, təhqirlə cavab vermişəm. Bilmirəm, taleyimə nə yazılıbsa yaxın çevrəmdəki insanların böyük əksəriyyəti məni intellektual müdafiə etmək yükünü üzərinə götürmür. Kənardan, tanımadığım adamlar məni müdafiə edir.

***- Özünüz də bəzən tanımadığınız adamları müdafiə edirsiz...***

- Görəndə ki, mütərəqqi bir rüşeym var, müdafiə edirəm. Məsələn, Güntay Gəlcapı, Elşad Mirini. Hansısa mürtəce fikirlər varsa, ona qarşı gedirəm.

Bu günlərdə kiminsə türkcə danışması tənqid olunanda dedim ki, əcəb edib danışıb. Hər kim istəsə türkcə danışa bilər, bunu heç kim qadağan edə bilməz. İran şəbəkəsi dərhal çalışdı ki, hansı yollasa böhtan atsın. Və yaxud məktəbləri müdafiə etdim, məni nurçularla əlaqələndirdilər. Bu günlərdə ərəb şeyxini təhlil etdim, dedilər ki, vəhabilərə qarşı çıxıram və sairə.

Mənim küçəyə çıxmağa, bir milyon adam yığmağa imkanım yoxdur. Amma bu qədər insanı facebookda, sosial şəbəkədə yığa bilirəm. Hansısa fikrimi orda müzakirəyə çıxarda bilirəm.

***- Rəsulzadədən danışdız. Bu gün də Rəsulzadəyə qarşı sayqısızlıq davam edir. Onun doğum günü ərəfəsində Gəncədə büstü olan park bağlanıldı, metronun 28 may stansiyasında barelyefi sökülərək yerində hansısa tikinti şirkətinin reklamı yerləşdirilidi və sairə. Nə baş verir? Hakimiyyət Rəsulzadədən niyə bu qədər qorxur, ona qısqanclıqla yanaşır?***

- Hakimiyyət Rəsulzadədən əslində qorxmur. Bəlkə ilk əvvəlki vaxtlarda sanki bir az Azərbaycan dövlət modelinin şəriki kimi baxırdılar. Lakin indi bu yanaşma yoxdur. İndi ayrı-ayrı xırda məmurların öz təşəbbüsləridir. Hakimiyyət qorxsaydı onun heykəllərini, adını yığışdırar, sərəncam verməzdi. Doğrudur, Rəsulzadənin adını daha çox əbədiləşdirmək olar, daha böyük tədbirlər görmək olar, amma edilmir. Bunu etiraf edək. Amma Rəsulzadənin adını silmək kimi cəhdlər də yoxdur. Mənim də o gün bununla bağlı bir açıqlamam oldu ki, metronun rəisinə Şaumyanın şəklini göndərmək lazımdır, otağına vursun. Məhəmməd Əminin şəklini götürən, başına çuval keçirən azərbaycanlı deyil! Demək, o, istəyir ki, Rəsulzadənin yerinə Şaumyanın şəkli olsun. Türklərin bir sözü var, “adama hörmət etmirsən, makama hörmət elə”. Ola bilər adama hörmət etməzsən, qanmazsan, başa düşməzsən, anlaya bilmərsən ki, Rəsulzadə kimdir, amma makama hörmət elə. 10 minlərlə Şaumyanın portretini çıxardıb göndərməliyik o adamlara ki, asın sinənizdən, evinizdən, dədənizin qəbrinin üstündən. Azərbaycan vətəndaşı olan insan birdəfəlik bilməlidir ki, bu dövlətin qurucusu Rəsulzadədir. Başqa kəşfə ehtiyac yoxdur ki. Hamının, Əbülfəz Elçibəyin, Heydər Əliyevin, İlham Əliyevin də xidməti var bu dövlətin böyüməsində. Bunu hamı qeyd eləsin. Amma bu dövlətin qurucusu, ünvanını daşıyan şəxsiyyətə, həm də həyatını buna həsr etmiş, ailəsini qurban vermiş insana bu cür hörmətsizlik yolverilməzdir.

***- Niyə ikinci dəfə hərbi xidmətə getdiniz?***

- İkinci dəfə 38 yaşımda hərbi xidmətə getdim. Məqsəd məni siyasətdən uzaqlaşdırmaq idi.

***- Yəni hüquqi əsası yox idi?***

- Heç bir hüquqi əsası yox idi. Gözləyirdilər ki, mən getməkdən imtina edəcəm. Mən də dedim bu, qanunsuzdur, məhkəməyə verəcəm, amma vətəni qorumaq borcumdur, gedib xidmətimi edəcəm.

***- Nə deyib əsaslandırdılar?***

- Dedilər ki, zabit kimi hərbi xidmət keçməyib. Mən əsgər kimi iki il Sovet ordusunda xidmətdə olmuşdum. Sadəcə, o zaman mən bir sıra Xalq Cəbhəsi və müəyyən siyasi konfiqrasiyalara, hakimiyyətin cızdığı planlara mane olurdum. Ona görə də fikirləşdilər ki, məni mütləq uzaqlaşdırmaq lazımdır ki, o proyektlər həyata keçsin.

***- Ola bilməz ki, özünüzün yazdığınız və ya sevdiyiniz şairlərin şeirlərindən əzbər bilməyəsiz.***

- Məsələn, indi Məhəmməd Hadidən çox sevdiyim bir şeiri deyə bilərəm. *(M.Hadinin “Ümid səhneyi-tamaşayi-həyatın ruhudur” şeirindən iki bənd deyir).*

Bildiyim çox şeir var. Amma öz şeirlərimdən çoxu yaddaşımda qalmayıb artıq.

***- Xanımınıza şeir ithaf etmisiz?***

- Xeyr. Hərdən xanımım da məndən inciyir ki, ona bir dənə də olsun şeir yazmamışam.

***- Heç olmasa şeir oxumusunuzmu?***

- Bəli. Amma yazmamışam. Ona deyirəm ki, övladlarıma da şeir yazmamışam, siz mənim yazılmamış şeirlərimsiniz.

***- Yəqin ki, təklikdə, xəlvətdə qalanda zümzümə etdiyiniz mahnılar var.***

- “Laçın” mahnısını çox sevirəm. Onu dinləyəndə həm sevgi, həm də itirilmiş vətən duyğusunu yaşayırsan. “Burası Muştur, Yolu yokuşdur, Giden gelmiyor...” türk mahnısını da xoşlayıram. Hətta maşınımda da var. Yol gedəndə bir neçə ifada dinləyirəm. Daha çox onu zümzümə edirəm.

***- Bizim üçün bir az zümzümə edə bilərsinizmi?***

- Yox, səsim xoşuma gəlmir (gülümsəyir). Məclisdə, dostlarla olanda daha çox şeir deməyi, şeir aurasını xoşlayıram.

***- Müasir ifaçılardan kimləri bəyənirsiz?***

- Səsin köhnəliyi olmur. Məsələn, mən sevə-sevə Şövkət Ələkbərovanı, Oqtay Ağayevi, Alim Qasımovu dinləyirəm. Flora xanım nəhəngdir, o, bütün dövrlərin yaddaqalan obrazıdır. Bugünkü müğənnilərdən Röyanı dinləyirəm, yaxşı səsi var, Elnarə Abdullayevanı və sairə. Amma daha çox klassiklərə qayıdışım çoxdur. Xüsusilə də Şövkət Ələkbərovanı dinləməkdən yorulmuram.

***- Var xalq artisti, bir də var xalqın artisi. Sizcə, hazırda hansı daha çoxdur?***

- İkisi də anormal anlayışdır. Artist niyə xalqın artisti olur? Artistlik Allahın verdiyi vergidir. Bu vergini paylaşmalısan. Elm adamı biliyini, zəngin pulunu, din adamı dini bilgilərini, şair duyğularını və nəhayətdə müğənni, artist də səsini paylaşmalıdır. Amma bu gün hər kəs medal, ad yarışına girib. Yaxşı olardı ki, dövlət bu adamlara ad vermək yerinə pul versin, təqaüdləri artırsın ki, bunlar ad deyil nominasiya yarışına çıxsınlar, festivalların laureatı olsunlar. Cəmiyyəti titul xəstəliyindən qurtarmaq çox vacib məsələdir.

***- 25 yaşınızda Əbülfəz Elçibəyin müşaviri olmusuz. Onun şəxsiyyətinə olan sevginizdən mərhum oğlunuzun da adını Elçibəy qoymuşduz. Onunla bağlı heç kəsə məlum olmayan hansısa xatirəniz varmı?***

- Çox xatirələr var və bunu nə vaxtsa yazmaq lazım olacaq. Əbülfəz bəy mənim yaddaşımda hər şeydən öncə könül, ürək dostu, müəllim, lider kimi qalıb. O, gəlmiş-getmiş, həyatımda rastlaşdığım ən maraqlı adamlardan biri idi. Bəlkə də ən bəsit, sadə görünən bir obrazında, çox böyük maraq var idi həyata baxışında. Bu çox az adamlara nəsib olur. Olduqca maraqlı insan idi. Yeməyindən tutmuş hansısa məsələyə münasibətində olan orijinallığı mənim üçün indiyə qədər yaddaşımda bir iz qoyub gedib. Ona görə də onun xatirəsini yaşatmaq üçün belə bir addım atdım. İndi Allahın qisməti beləymiş, onun əleyhinə gedə bilmərik...

❑ **Xalidə GƏRAY**
**Məğrur MƏRD**

# Xanım əməkdaşımız bir günlük taksi sürücüsü oldu, başına gəlməyən qalmadı...

## Bizim Taksi - "Yeni Müsavat"ın yeni layihəsinə start verildi; Taksi sürücülərinin bazarında öldürücü rəqabət, sərnişinlərin bir-birindən ilginc hekayəsi və daha nələr...

**Futbolçu termini ilə, bunun adına "dəqiqə bir, qol bir" deyirlər. Qəzetçi dilində isə "projenin gül vurması". Bəli, bu dəfə "Yeni Müsavat"ın reportyor qrupu heç də sıradan olmayan bir layihə həyata keçirməyə qərar verib.**

Qısaca bir gəzişmə nəticəsində məlum oldu ki, artıq taksi fəaliyyəti ilə məşğul olmaq üçün ələhiddə bir prosedura ehtiyac yoxdur. Maşının var? Var. Taksi işarəsi tapa bilərsən? Bilərsən. İşarəni qoy maşının üstünə, min, get... Elə biz də hər şeyi bu ardıcıllıqla həll etdik. Sənədlərimiz yerində, maşının içində avtoregistrator... Günümüzün bir neçə saatını taksiçiliyə həsr etdik. Bu arada insanlarımız taksiyə mindi, öz dərdlərini danışdı, bəndənizə rəqib gözü ilə baxan taksiçi bacılar, əmilər, dayılar... göz dağı verdilər, "boğaz ortağı" müamiləsi göstərib, mədəni şəkildə yolun sağını göstərdilər: Get, burda sənə çörək yoxdu... deyərək həm də.

Bütün bunlar detallı və canlı şəkildə videosüjetdə. Yazıda isə... müəllif öncə sükanı əlinə alıb, yola düzəldi, ardınca isə qələmlə yol macərasını təsvir etdi. Getdik...

Yolu tutub, "müştəri ovlamaq" üçün ilk dayanacağa, 2 saylı Doğum Evinin qarşısına yollanıram. Operatorumuz, reportyor qrupumuzun əvəzedilməzi Məğrur Mərd isə sürücümüz Bəhruz bəylə birgə təqibdədir. Həm çəkiliş üçün, həm baş verə biləcək hər hansı təhlükəyə qarşı. Məlum, qadın taksi sürücüsü olmaq heç də asan məslək sayılmaz. Xüsusən də Azərbaycan kimi mühafizəkar bir ölkədə.

Amma ilk dayanacağımızı, doğum evini bizə taksiçi dostlar məsləhət görürlər: "Orda qadın taksiçilər dayanır. Doğum evindən çıxan qadınlar isə daha çox öz həmcinslərinin taksisinə minməyə üstünlük verir. Orda dayansaz, yaxşı müştəri-müsahiblər tapacaqsız".














### İlk komanda qadın sürücüdən gəldi: "Get burdan, çörəyimizə bais olursan..."

Elə doğum evinin qarşısına yaxınlaşmağımla oradakı xanım taksi sürücülərindən birinin mədəni surətdə "rədd ol" komandası arasında maksimum 10 dəqiqə vaxt gedir. Sarısaçlı, baxımlı, qırmızı maşınlı xanım taksiçi olduqca sivil şəkildə anladır ki, burda dayanmağım onların çörəyinə ortaq olmağımdır: "Gedib şəhərin mərkəzində dayan. Mən bayaq gedib Port Bakunun qabağında dayandım. İş ordadır, 28 Mall-ın yanındadır. Burda zəifçilikdir. Burda bilirsən neçə nəfər dayanır? Oqtay, Mübariz... Arxada dayanan iki taksi var e, bacı-qardaşdılar. Əvvəl bacısı gəldi, sonra qardaşını da gətirdi. İndi get, o oğlanın burnuna bax. Mən vurub qaraltmışam. Dedim çıx burdan, çörəyimizə bais olursan. Burda 8 taksi var. Gündə o səkkizindən biri 10 manata işləyir, ya işləmir".

**Qarşısındakının gözünün odunu aldığına əmin olan kimi canıyananlıq edir və əlavə dayanacaq yerləri məsləhət görür:** "Taksi xidmətləri var, bax, ora yazıl get. Mən 971-ə yazıldım, faizi azdır deyə sərf eləmirdi. 100 manat işləyirsənsə onun 20-si onlarındır. Burdan Montinə, ordan da Xətaiyə getməlisənsə, 3 manat qalır sənə, sərf eləmir. Amma əlavə iş yeri kimi pis deyil. Bir də özünə daimi "kliyent"lər tap, ailələr. Arvadını kişi taksiçinin maşınına minməyə qoymayan kişilər var e, maraqlan. Elan ver qəzetdə, soraqlaş. Taparsan".

**Rəqibini tam zərərsizləşdirdiyini görüb, hətta özünün də bu işdən uzaqlaşacağını deyir:** "Bax, mənim ayın 9-da kreditim var. O olmasa bir dəqiqə burda dayanmaram. Çünki bu, iş döyül ha... Düzdü, əvvəl "nəqliyyatın adamları" əlavə pul-zad istəyirdilər. Amma indi onlar yoxdu. İndi də camaatda pul yoxdu, taksiyə minən də yoxdu. Ağzı günə dayanırıq".

Prosedur tamamdır. Doğum evinin qarşısında vəziyyəti öyrənmək kifayət edir. Rəqabəti artan xətt üzrə davam etdirib, kriminal həddə çatdırmağa da ehtiyac yoxdur. Odur ki, Doğum Evinin qarşısından ayrılıram, rəqibimin də ürəyinə sərin su səpilir. Mesaj alınmışdır: bu dayanacaqda 9-cu sürücüyə yer yoxdur!

Yola davam. Etiraf edim ki, taksiyə minmək istəyən insanların sayı xeyli azdır. Bu, taksi sayının çoxluğu ilə bağlıdır, çox güman ki. Üstəgəl, insanların maddi durumunun ağırlığı. Elə bu səbəbdən də əvvəldən planlaşdırdığım kimi, bəzi hallarda özüm maşını saxlayıb, insanları mənzil başına pulsuz çatdırmağı təklif edirəm. Beləcə, həm insanı uçuran küləkli havada savab qazanmış oluram, həm də müsahib.

**2 saylı Doğum Evindən 50 metr aralanmamış orta yaşlı bir kişi "taksimizi" saxladır:** "Gözləyin, yoldaşım uşaqla birgə klinikadan çıxsın, gəlirlər. "Tolkuçka"nın yanına 3 manata apararsız?"

Reportyor nə istər? Müsahib. Az keçmədən yoldaşı və qucağındakı körpəsi ilə birgə "Anay" klinikasından çıxıb, maşına minirlər. Və başlanır söhbət. Müştəri kasıblıqdan, müalicənin bahalığından şikayətlənir: "Neçə ildən sonra tapmışıq bu uşağı. Klinikaya gətirmişdik. Uşaq qusurdu neçə gündür. Sistem qoşdular. İki gündü gətirmişik. İçəri girəndə 20 manat ödəniş edirsən. 11 manat da sistem. Hələ bir ay da gəlib getməliyik".

**Məlum olur ki, müştərim işini bu devalvasiya zamanı itirənlərdəndir. "Azərkörpü"də çalışıb zamanında:** "Çoxdan başlamışdı. Ələtdə də işləmişəm, Salyanda da işlədim. Sonra da dedilər ki, çıx. Bilmirəm, nə problem oldu. İndi də çətinliklə dolanırıq. İşləməsən çətindir. İşləyəndə heç olmasa "naqruzka" düşmür adama. Bilirsən ki, hardansa pulun gəlir də".

### Müştəri şikayətlənir: "Dövlət xəstəxanasında insanın dərisini soyurlar, özəl klinikada isə sümüklərini də alırlar"

Ailə maşından düşür, yolpulunu "bu da bizdən olsun, onsuz da yolumun üstü idi" deyib, qaytarıram. Ani tərəddüd, ardınca təşəkkür... edirlər. Onlar razı, mən daha razı. Yola davam edirəm. Bu dəfə isə yolun qırağında dayanıb, avtobus gözləyən və küləyin sağa-sola sovurduğu bir xala... Taksi saxlatmasa da, maşını saxlayıb, mən təklif edirəm. Minir və başlanır söhbət. Məlum olur ki, onu götürdüyüm yerdə bir alverçinin yanına gəlibmiş: "Qızımı ərə verəndə cehiz üçün bəzi şeylər almışdım. İndi onun pulunu hissə-hissə ödəyirəm. Ona görə gəlmişdim bura".

Öyrənirəm ki, "müştərim" layihə ofisində çalışır. Gündə cəmi 3 saat, ofisin mətbəxində günorta yeməyi hazırlayır. Məvacibi isə cəmi 100 AZN-dir: "Kreditim də var. İnsan məcbur olur almağa. Övladdır, istəyirsən ki, hamısını edəsən. İki qızım var, ikisini də köçürmüşəm. Yoldaşım da Qarabağ əlilidir, pensiyası var. Qızlarım da ərə gedib, yoldaşları işləyir. Maaşları da var, pis-yaxşı dolanırlar".

**Az keçmir, söhbət həkimlərdən düşür. Xala başlayır şikayətlənməyə:** "Dövlət xəstəxanasında insanların dərisini soyurlar, özəl xəstəxana isə insanın sümüklərini də alır. Gedirsən özələ girirsən. Deyir ki, bütün hər şey 500 manatın içindədir. 500 manatı ödəyirsən. Hünərin var, o 500 manatla çıx. 6 manat bura ödə, 8 manat ora ödə. Təzə doğulmuş uşaqdan qan analizini alırlar. Filan qədər pul. 100 manat aparata, 30-30-20 qəbullardır, 100 manatdan artıq analizə verirsən. Nəvəmin doğulmağına 1600 manat verdik, inanırsan?"

**Xala məlumatlı birinə bənzəyir, maraqlı da təhlil qabiliyyəti var. Deyir ki, Qarabağ əlillərinin sosial rifahını yaxşılaşdırmaq üçün büdcədən 10 milyon pul ayrılması ilə bağlı xəbərlər yayılıb**: "Mənim neçə nəfər mühasib tanışlarım var. Onlardan soruşuram: hara istiqamətlənib bu pul? Sosial rifah nədir? Pensiyası, qidalanmasıdır. Bunu heç yerə verməyibsə, bəs necə? Yoldaşım 31 yaşında müharibəyə gedib, canını qoyub gedib. İki dəfə qaçmaq imkanı oldu, amma qaçmadı. Budur Qarabağ veteranına münasibət?"

**Amma müştərinin siyasətlə, xüsusən də müxalifətlə ulduzu heç barışmır. Bunu danışıqlarından anlamaq mümkündü:** "O dəfə biri deyir ki, Siyəzəndə aksiya olub, filan yerdə aksiya olub, camaat ayağa durdu. Dedim nə oldu? Qayıdır ki, camaatı tutdular. Dedim, ay qızım, bəs sən nə uddun? Deyir, xaricdə səsimizi eşitdilər də. Dedim, elə xaricdəkilərin qulaqları tutulsun. O boyda Qarabağı, Xocalını eşitmədilər. İndi Siyəzəndə 5-10 nəfər aksiya edib deyə, xarici bizim səsimizi eşidəcək? Məndən sənə məsləhət, ay qızım. Heç vaxt topa işinə girmə. Özünə, övladına, anana görə girmə. Atam rəhmətlik deyərdi ki, balıq başından iylənər. Mozalanda bir süjet var: deyir, vəzifə üçün iki namizəd var, hansını götürüm? Deyir, filankəsin hər şeyi - evi, bağı var, amma o biri namizədin heç nəyi yoxdur. Deyir, hər şeyi olanı götür vəzifəyə. Çünki o, yeyib doyub".

Beləcə, mənzil başına çatırıq. Xala səfərdən çox razı qaldığı üçün "taksist bala"nın vizit kartını istəyir, "lazım olanda səni çağıracam" deyir. Təbii ki, vizit kart olmadığı üçün telefon nömrəsini almaqla kifayətlənir.

**STOP:** Gün boyu bir neçə dayanacaqda olub, taksi sürücüləri ilə danışandan sonra əldə etdiyim məlumatlar isə ondan ibarət olur ki, insanların dayanacaqda dayanan, eləcə də yolüstü taksilərə minməməsinin bir neçə səbəbi var. Bunlardan biri "badımcan taksilərin", digəri isə taksi şirkətlərinin çoxluğudur. Taksiçi müsahiblərim deyirlər ki, müasir insanlar tənbəlləşib. Onlar taksinin düz qapıya qədər gəlməsini istəyirlər ki, əziyyət çəkməsinlər. Bunu isə taksi firmaları edir. Taksi sürücüləri iddia edir ki, şirkətlər ödənişlərinin daha ucuz olması ilə bağlı reklam etsələr də, bu, reallığı əks etdirmir. Məsələn, müştəri "badımcan taksi"yə minən kimi avtomatik olaraq 3 AZN ödəyir. "Şirkətlərdə konkret qiymət var, bizim kimi taksilərdə isə "mən ölüm, sən öl"lə məsələni daha ucuz həll etmək mümkündür". Bunu da taksi sürücüləri deyirlər.

Bu arada sürücülər bəzi taksi firmalarının sürücüləri istismar etdiyini deyir. Onların bildirdiyinə görə, "189 xidməti" sürücülərə 20 faizlə işləmə təklifi verir. Tutaq ki, 10 manata müştəri aparırsa, onun 2 manatını firmaya ödəməlidir: "Bundan bizə nə xeyir?"

### Səməd Vurğun bağının yanında vəziyyət

İndi isə digər dayanacaqlardakı vəziyyətlə tanış olmaq zamanı gəlib. Şəhərin mərkəzinə yollanıram - Səməd Vurğun bağına. Bağın yanında maşını saxlamağımla qocaman taksiçilərdən biri ilə "kəllə-kəlləyə" gəlməm bir olur. Dayı iddia edir ki, burda dayanmaq olmaz. Üstəlik, burda dayansam, "nəqliyyatdan gəlib çəkəcəklər, cərimə ödəyəcəm". İnandırıcılığı artırmaq üçün deyir ki, özü də bir ay əvvəl buna görə 60 AZN ödəyib. Gözümün qorxmadığını görüb, bu dəfə barıtını daha çox edir, uzaqdan gizli çəkiliş edən Məğruru göstərir: "Bax, o oğlanı görürsənmi? O çəkir əsas..."

Dəli gülmək tutur məni. Hər şeydən bixəbər dayının yalanını çıxarmamaq üçün müxbirimiz Məğruru "qaralayıram": "Ay qardaş, nəyi çəkirsən sən? Mərdimazarsan?"

Məğrurun qəfil və gözlənilməz hücumdan yaşadığı şoku bir kənara qoyub, məlum dayanacaqdan uzaqlaşıram. Məndən sonra sürücü dayı Məğrurla dərdləşir: "Buna bax, deyir, gəlib burda dayanacam. 10 nəfərik e burda. Sənin burda durmağın mənim cibimə girməkdir e. Nolsun qadınsan? Çörəyimə bais olursan axı... Get o qədər yer var ki, dayan da orda. Nə vacibdir burda dayanasan?"

Sonda... Yolboyu taksini saxlayıb, sürücünün qadın olduğunu görən kimi minməkdən vaz keçənlər, ya da məhz qadın sürücü olduğum üçün "həmrəylik" nümayiş etdirib, taksiyə minən müştərilər də az olmur. Hər birinin bir hekayəsi, bir taleyi var təbii ki. Taksi sürücüsü isə bu hekayənin yaxşı dinləyicisi olmağı bacarmalıdır. Əks halda, dərd insanların ürəyini parçalayır. Bir günlük "taksiçi macərasından" sonra öyrəndiyim bu oldu. Hər kəsin yolunda yaşıl işıq yansın.. Qalanı mütləq düzələcək...

❑ **Sevìnc TELMANQIZI**
**Foto: Məğrur Mərd**

YENİ MÜSAVAT
N 28 (6349) 6 fevral 2016

**Məmur qapısı**

**"Yeni Müsavat" yeni bir rubrikaya start verib. Bu rubrika çərçivəsində nazirliklərin, idarə və komitələrin mətbuat xidmətləri ilə görüşüb, onların fəaliyyətlərini, gündəlik iş rejimini oxucularımıza çatdırmağa çalışacağıq.**



# Aktyor, rejissor və... məmur - Nadir Əzməmmədovla müsahibə

## "Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat xidmətinin rəhbəri: "Məmur işləsəm də daha çox aktyorluq sənətini sevirəm"

Rubrikamızın ilk qonağı **"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Nadir Əzməmmədov**dur. Yolumuz İdarənin Səməd Vurğun bağı ilə üz-üzə yerləşən binasınadır. Binanın 3-cü mərtəbəsində qurumun mətbuat xidməti yerləşir.

İlk qonağımızda seçim təsadüfi deyil. İxtisasca rejissor və aktyor olan müsahibimi Dəmiryol İdarəsinə, mətbuat xidməti vəzifəsinə aparan yol yəqin ki, hamımız üçün maraqlıdır.

N.Əzməmmədov bizi gülər üzlə qarşılayır və buranın məmur yox, bir jurnalist otağı olduğunu deyir. Yəni, sadə dillə, öz evinizdəki kimi davranın demək istəyir.

Lakin qapısının üzərində "mətbuat xidməti" yazılan otaqda gözlədiyimiz mənzərə ilə qarşılaşmırıq. Sadə bir məmur otağında N.Əzməmmədov və mətbuat xidmətinin operatoru əyləşib. Divarlarda rəhbərliyin, ölkə başçısının şəkilləri, dəmiryol xəttinin xəritələri asılıb. Stolun üstündə qovluqlar, sənədlər, qəzetlər var.

İxtisası aktyor və rejissor olan müsahibim söhbətin əvvəlində operatorumuzun seçdiyi rakursla bağlı da məsləhətlər verməyi unutmur. Bu yerdə onu qeyd edim ki, müsahibim onlarla filmdə, serialda rol alıb, rejissorluq edib. Hazırda da bu fəaliyyətini davam etdirir. Ancaq jurnalistika cameəsi üçün o, mətbuat xidmətinin rəhbəridir.

Nadir müəllim deyir ki, iş gününə ilk növbədə medianı təqib etməklə başlayırlar. "Media təqib"-də ötən gün dövlət qurumu haqda televiziyada, qəzetlərdə və saytlarda gedən məlumatlar toplanır və təhlil edilir. Əgər hansısa tənqidi və ya neqativ informasiya gedibsə, araşdırılır və rəhbərliyə məlumat verilir. Həmçinin idarə rəhbəri üçün də xülasə hazırlanır, qurumun sədri işə həmin xülasəni oxumaqla başlayır.

- Gündəlik işimiz səhər saat 9-da başlayır, axşam saat 6-da bitir. 3 işçimiz var. Burada həm də qəzet çıxarırıq. Redaktoru Vasif Süleymanovdur. Ayda iki dəfə çıxır. Biz səhər gələn kimi məlumatları hazırlayıb, sədrə ötürürük, o, elə avtomobilində gələ-gələ baxır. Vacib hansısa məlumat olarsa, qarşılıqlı telefon əlaqəsi yaradırıq, məlumat veririk ki, nə etmək lazımdır. Çox zaman çəkilişlərdə oluruq, hansısa hadisə baş verir və biz günün istənilən saatında jurnalistlərdən öncə hadisə yerində olmalıyıq, onlara açıqlama verməliyik. Mən heç bir məmura jurnalistin işinə mane olmağa imkan vermirəm. Hansısa məmur haqqında məlumat gedibsə, deməli, o, cavab verməlidir. Dərhal onunla əlaqə saxlayıram və bildirirəm ki, sizin haqqınızda ya tərif, ya şikayət formasında məlumat gedib, baxın və cavablandırın. Bundan başqa, idarənin gördüyü işlər haqqında mənə vaxtaşırı məlumat verilir".

Söhbət əsnasında, mətbuat xidmətinin dəmir yolunda tikinti işləri aparılan əraziyə ezam olunmuş əməkdaşı zəng edərək məlumat verir. Müsahibim danışığı bizim də eşitməyimiz üçün mikrofonu açır. Söhbət dövlət proqramı çərçivəsində Bakıdan Böyükəsiyə qədər dəmir yollarında əsaslı təmir işlərinin həyata keçirilməsindən gedir.

Nadir müəllim söhbətə başlayan kimi, vəzifəsi gərəyi Dəmiryol İdarəsinin gördüyü, görəcəyi işlər haqqında məlumat verir, daha çox informasiya çatdırmağa çalışır.

Biz isə onu işindən ayırıb aktyorluq-rejissorluq sənətinə qaytarırıq, incəsənətdən məmurluğa gələn həyat yolunu öyrənməyə çalışırıq.



**"Biz təkcə mətbuat xidməti vəzifəsini yerinə yetirmirik, həm də bu qurumun tarixini yaradırıq"**

- Əvvəl kinostudiyada işləyirdim, uğurlarım da var idi. O zaman gənc idik, ideyalarımız var idi, özümüz sərbəst şəkildə filmlər çəkmək istəyirdik. Planlarımız belə idi. Zaman elə gətirdi ki, Sovet hökuməti dağıldı. Bizə də pul qazanmaq, ailəni dolandırmaq, yaşamaq lazım idi. O zaman Dəmiryolu İdarəsinə mətbuat xidməti vəzifəsinə düzəldim və bu günə qədər burada işləyirəm. Bizim film çəkmək üçün avadanlığımız, aparaturamız var idi, onlar bunu görüb bəyəndilər. Ancaq şərt kəsdim ki, kino ilə də əlaqəni kəsməyəcəyəm. Razılaşdılar və mən burada işə başladım.

***- Rejissor olmağınızın mətbuat xidmətindəki işinizə faydası oldumu?***

- Biz təkcə mətbuat xidməti vəzifəsini yerinə yetirmirik, həm məlumatlar yayırıq, həm də bu qurumun tarixini yaradırıq. Hazırda Azərbaycan və rus dillərində dəmiryolun tarixi və bu günü haqqında film hazırlayırıq.

***- Jurnalistlərlə probleminiz olurmu?***

- Jurnalistlərlə heç bir problemin olmur. Telefonum 24 saat açıqdır və gecənin bir yarısı da hansısa hadisə baş veribsə, mən jurnalistlərin zənglərini cavabsız qoymuram.



**"Hər suala cavab vermək üçün icazə almalıyamsa, o zaman burada nə işim var?"**

***- Təmsil etdiyiniz idarə haqqında mətbuatda neqativ məlumat gedərsə, o zaman reaksiyanız necə olur?***

- Bizim qurumla bağlı hansısa məlumat gedibsə, dərhal dövrəyə giririk. Həmin yazıya və ya video süjetə baxırıq, jurnalistlərlə əlaqə yaradırıq. Düzgün tənqiddirsə, razılaşırıq. Yox, əgər səhvdirsə, təkzib verdiririk. Tamaşaçıda, oxucuda yaranan hər bir suala biz aydınlıq gətirməliyik. Bəzən qatarda qəza olması ilə bağlı sensasiyalı xəbərlər yayırlar. Biz sərnişin daşıyırıq və təkcə onun təhlükəsizliyi yox, onun yaxınlarının narahatlığı da bizim üçün önəmlidir. Saytlar istəyir ki, xəbərdən sensasiyalı başlıq çıxartsınlar ki, daha çox oxunsun. Ancaq mən həmişə xahiş edirəm ki, bu qatardan istifadə edənlərin yaxınlarını da nəzərə alsınlar. Kiminsə, uşağı yoldadır, kiminsə, valideyni. Gərginlik yaratmaq lazım deyil.

***- Bəs, mətbuat xidməti ilə jurnalistika arasındakı fərqi necə qəbul edirsiniz?***

- Mətbuat xidməti təmsil etdiyi nazirliyin, idarənin bir növ güzgüsü və müdafiəçisidir. Jurnalist isə sərbəstdir, istədiyini yaza bilir. Ancaq elə anlar olur ki, mən istədiyimi deyə bilmirəm. Məmur idarənin mənafeyini qorumalıdır. Fərq ordadır.

***- Siz özünüzü daha çox məmur kimi hiss edirsiniz, yoxsa jurnalist?***

- Mən özümü daha çox jurnalist kimi görürəm. Ola bilər ki, kimsə məni məmur kimi görsün.

***- Bəzən elə olur ki, faktlar idarənin əleyhinə işləyir, siz isə qurumun mənafeyini qorumalısınız, müdafiə etməlisiniz. Belə anlarda çətinlik çəkirsinizmi?***

- Bəli, çətinlik çəkdiyim anlar olur. Ancaq müdafiə eləmirəm. O situasiyada sakitlik yaratmağa çalışıram. Əgər fakt doğrudursa, müdafiə etmək mümkün deyil. Çünki qarşı tərəf də görür hər şeyi. Sanki bir sakitlik yaradırsan. Ancaq bu, çox çətindir. Bir şəxsiyyət kimi fikirləşirsən ki, bu yazıya baxan insan sənin xarakterini necə qiymətləndirəcək? Mətbuat xidməti məmurla jurnalist arasında bir körpüdür. Mən orta mövqedə oluram, ancaq onu da tutmaq çox çətindir.

***- Sualdan qaçdığınız, yayındığınız hallar olubmu?***

- Yox, heç vaxt qaçmamışam. Kim nə vaxt zəng eləsə, maşında da olsam, qatarda da olsam, dərhal cavab verirəm. Mən jurnalisti də düşünürəm. O, həmin informasiyanı yazıb maaş alır, qonorar alır. Üstəlik redaksiya rəhbərliyi tərəfindən verilən tapşırığı yerinə yetirməlidir ki, redaktor qarşısında pis vəziyyətdə qalmasın.

***- Nadir müəllim, mətbuata müsahibə verərkən, rəhbərlikdən icazə alırsınızmı? Razılaşdırırsınızmı?***

- Yox. Əgər mən hər sözü rəhbərliklə razılaşdırmalıyamsa, hər suala cavab vermək üçün icazə almalıyamsa, o zaman burada nə işim var? Məndən bu tələb olundu, ancaq imtina etdim. Mətbuat xidməti öz iradəsini ortaya qoymalıdır. Bəzən müsahibəyə gedəndə soruşurlar ki, de görək nə deyəcəksən? Mən bildirirəm ki, nə soruşsalar, ona uyğun da cavab verəcəyəm.



**"Fakt doğrudursa, təmsil etdiyim idarəni müdafiə edə bilmirəm, çalışıram ki, sakitlik yaradam"**

***- Gələk sənətinizə... Jurnalistlərlə münasibətinizdə aktyorluq bacarıqlarınızdan istifadə edirsinizmi?***

- Əlbəttə, insanlarla daha çox səmimi olmağa çalışıram. Özümü məmur kimi aparmıram. Əgər kimsə, bu otağa əsəbi şəkildə giribsə, situasiyanı dəyişməyi bacarıram. Söhbət edib onu sakitləşdirirəm.

***- Paralel olaraq, aktyorluq fəaliyyətinizə davam edirsiniz?***

- Sonuncu dəfə "Sonuncu fəsil" serialına çəkilmişəm. Orada çəkilmişdim. Fürsət olduqca, filmlərə çəkilirəm. Çünki içimdə o istək var. Söhbət maddiyatdan getmir, mən özümdə mənəvi sakitlik yaradıram ki, axı mən bu sənətdə idim, bunu oxumuşdum, əziyyətim hədər getmədi. Əvvəlki, filmlərdə rol almışam. "Qara volqa" filmində müstəntiq rolunda çıxış etmişəm, "Şeytan göz qabağında" filmində "KamAz" sürücüsü və sair. Yadda qalan obraz odur ki, gərək kiminsə yadında qalasan. Məni görənlər çox vaxt aktyor kimi xatırlayır. Çünki, mən özümü məmur kimi aparmıram.

***- Mətbuat xidmətinə gəlməsəydiniz daha böyük aktyor ola bilərdiniz. Belə düşündüyünüz hallar olurmu?***

- Təbii ki, daha böyük aktyor olardım. Çünki o vaxt filmə maraq və istək var idi. İndi isə hər şeyi maliyyə həll edir. Əvvəl hökumət pul verirdi və biz də həvəslə çəkirdik. İndi isə kim pul verirsə, o, sənə həm də göstəriş verir ki, filankəsi çək və sair. Mən isə istəyirəm elə bir film çəkim ki, insanlar ona baxıb dincəlsinlər, tərbiyə götürsünlər. Ancaq indi maliyyə baxımından kimdənsə asılı olursan və orada yaradıcılıq ola bilməz. Yaradıcılıq gərək sərbəst olsun.

- Müşahidə etdim, siz idarədəki işinizlə müqayisədə, aktyorluq haqqında danışarkən daha həvəslə, daha canlı danışırsınız.

- Yenə dəli könlüm düşüb, gözlərinin xəyalına,

Bilməm bu könlümün fikri nədir, xəyalı nə... (gülür). Görünür, öz aləmimdə mən daha çox aktyoram.

İdarədəki söhbətimizin ardından, Nadir Əzməmmədovla birgə, dəmiryol vağzalına, idarənin əvvəllər yerləşdiyi tarixi binaya yollanırıq. Müsahibim burada da rejissorluğundan qalmır və bu vağzalı necə görmək istədiyindən danışır.

- İstəyirik burada gözəl bir kafe olsun. Qonaqlar gəlir, sevgililər gəlir. Qızla oğlan oturub söhbət etmək istəyir. Burada bir gül satan yer olmalıdır ki, oğlan qızı yola salanda ona bir gül alıb verə bilsin. "Gün keçdi" filmində var ha, qatar gedir, qız əl eləyir. Bax onu da nəzərə almaq lazımdır. Qatar sanki bir ayrılıq simvoludur. Əksər filmlərdə ayrılıqlar məhz qatar yolunda baş verir...

***- Bir sözlə, burada qatar romantikası yaratmaq istəyirsiniz.***

Nadir müəllim bizi, Dəmiryol İdarəsinin tarixi binası ilə də tanış edir, binanın özəlliklərindən danışır.

- Bu bina XIX əsrin memarlıq abidələrindən biridir, 1884-cü ildə istifadəyə verilib. Vağzal binasının layihəsini xarici memar və rəssamlar işləyib. 1977-ci ildə isə Bakı-sərnişin stansiyasında 10 yeni vağzal binası tikilib.

Söhbətimizin qeyri-rəsmi hissəsi çay süfrəsində davam edir. Daha sonra Nadir müəllimlə sağollaşıb ayrılırıq. Bizdən sonra kinostudiyadan gələn qonaqları qəbul edir və onlarla birgə vağzalda film çəkilişini planlaşdırır.

Ayrılarkən də müsahibim zarafatında qalmır: "Elə yazın məni işdən çıxarmasınlar haa..." (Gülür)

❑ **Nərgiz LİFTİYEVA**
❑ **Fotolar Məğrur MƏRDİndir**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Rəsmi Bakı Minsk qrupunu qapıdan qaytara bilər

## XİN: “Həmsədrlər Azərbaycan xalqı qarşısında hesabat məruzəsi ilə çıxış etməlidir”

## Ekspert: “Moskva və Tehran ölkəmizin ərazi bütövlüyünün bərpasında maraqlı deyillər”

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq fevralın 4-də Füzuli rayonunun Aşağı Veysəlli kəndi yaxınlığındakı qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb. Bu barədə Azərbaycanın Müdafiə Nazirliyi rəsmi məlumatında bildirir. Lakin cəbhənin digər istiqamətlərində son iki gündə də gərginlik hökm sürüb.**



Görünən budur ki, düşmən ölkə dövlət sərhədi boyunca xüsusilə aqressivləşib və bütün qüvvəsi ilə Azərbaycanı təxribata çəkməyə, ölkəmizin guya Ermənistanı hədəfə alması barədə rəy aşılamağa çalışır. Özü də bu gərginlik həmsədrlərin növbəti səfəri öncəsi müşahidə olunur ki, bu da suallar doğurur. ATƏT-in Minsk qrupunun həmsədrlərinin Bakıya hansı üzlə gələcəyi isə günün ən vacib suallarındandır. AŞPA-da Ermənistanın işğalçı dövlət olmasını rəsmiləşdirən qətnamənin qəbuluna imkan verməyən həmsədrlərdən imtina çağırışları artıb. Hətta bu arada ölkə xaricində də həmsədrlərin fəaliyyətsizliyi ilə bağlı fikirlər səslənir.

“Avropa İttifaqı Minsk Qrupu həmsədrlərinə mərkəzi rol verərək özünü münaqişənin həlli prosesindən kənarda qoyub. "Dağlıq Qarabağ münaqişəsi Rusiyanın periferiyasında olan lokal çətinlik kimi yox, Avropa İttifaqının yaxın qonşuluğunda olan təhlükəli qeyri-stabillik və böhran mənbəyi kimi nəzərdən keçirilməlidir". Bu fikirlər “Avropa Siyasi Mərkəzi” adlı müstəqil beyin mərkəzinin “Dağlıq Qarabağ və Avropanın sərhədlərində olan böhranlar qövsü” başlıqlı araşdırmasında əksini tapır. Araşdırmada qeyd edilir ki, 20 ildən çox müddətdə Azərbaycan və Ermənistan hərbi və diplomatik çıxılmazlığın içindədir və 2011-ci ildən başlayaraq Rusiya, ABŞ və Fransanın həmsədrlik etdiyi Minsk Qrupunun fəaliyyəti dalana dirənib.

Məhz bu cür fikirlərin fonunda rəsmi Bakının həmsədrləri bu dəfə necə qarşılayacağı maraq doğurur. Qeyd edək ki, Ermənistan XİN başçısı E.Nalbəndiyan həmsədrlərin tezliklə bölgəyə gələcəyini deyib. Ancaq elə bu səfər ərəfəsində cəbhədə Azərbaycan ordusu itkilər verdi. Ancaq Bakının mövqeyindən belə aydın olur ki, həmsədrlər “qapı”dan geri qaytarıla, ya da bu dəfə yalnız Ermənistana səfər edə bilər.

**XİN-in mətbuat katibi Hikmət Hacıyev** “Yeni Müsavar”ın sorğusuna cavabında nazir Elmar Məmmədyarovun son açıqlamasına diqqət çəkdi: “Cənab nazir dedi ki, həmsədrlərin səfəri ilə bağlı hər hansı təklif irəli sürülməyib”. Diplomat qeyd etdi ki, həmsədrlər Bakıya gəlməzdən öncə AŞPA-dakı məlum qətnamələrlə əlaqədar mövqelərinə aydınlıq gətirməlidirlər. Bu, onların beynəlxalq təşkilatların fəaliyyətinə və Azərbaycanın suveren hüquqlarına müdaxilə idi. Belə bir mövqe qəbuledilməz yanaşmadır, beynəlxalq təşkilatın mandatına uyğun deyil. Onlar BMT baş katibi, Təhlükəsizlik Şurası və BMT Baş Assambleyasına hesabat verməlidir. Lakin 20 ildən artıq dövrdə fəaliyyətsizlikləri ilə diqqət çəkiblər. Həmsədrlər bu gün həm beynəlxalq ictimaiyyət, həm də Azərbaycan xalqı qarşısında hesabat məruzəsi ilə çıxış etməlidir. Bununla əlaqədar biz onların bəyanatını və açıqlama xarakterli mövqeyini gözləyirik. Yalnız aydınlıq gətiriləndən sonra görüş barədə düşünmək olar".

**XİN sözçüsü Nalbəndiyanın həmsədrlərin səfəri ilə bağlı açıqlamasını şərh edə bilməyəcəyini dedi:** “Adətən əvvəlcədən hər iki tərəfə təklif olunur ki, səfəri həyata keçirmək niyyətindəyik. Ancaq hələ ki Azərbaycan tərəfdə bu haqda məlumat yoxdur”. **H.Hacıyev qeyd etdi ki, hər üç həmsədr ölkənin XİN-inə yazılan etiraz məktubuna hələ ki, cavab yoxdur:** “Adətən məktublarımıza cavab verilib”.

**Cəbhə xəttində gərginliyin növbəti dəfə artmasının səbəblərinə gəldikdə, H.Hacıyev bunları bildirdi:** “Ümumiyyətlə, qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədində gərginlik 20 ildən artıqdır davam edir. Gərginliyin azalmasının yeganə yolu Ermənistanın işğalçı qoşunlarının Azərbaycan ərazilərindən çıxarılmasıdır. Baş verən toqquşmada hər bir insan itkisi və regiondakı gərginliyə görə məsuliyyət yalnız Ermənistanın üzərinə düşür”.

**Konfliktoloq Elxan Mehdiyev** hesab edir ki, sərhədboyu itkilərin həmsədrlərin səfəri ilə əlaqəsi yoxdur: “Bu, həmişə baş verən hallar, qisas alma addımlarıdır. Orada baş verdəyənlər bir çox hallarda açıqlanmır”. Ekspertin fikrincə, həmsədrlərin budəfəki səfərində ölkə başçısı və XİN “AŞPA-da əldə etdiyiniz uğura görə sizi təbrik edirik” deməlidir. Sonra da onlardan gəlməkdə məqsədlərini soruşmalıdırlar. Onlar indiki məqamda təmas xəttində xüsusi qurğular quraşdırmaqla atəşkəs rejimini möhkəmləndirmək diplomatiyası aparırlar və artıq Almaniya XİN-i də buna inandırıb onu da dövrəyə salıblar. Azərbaycan buna getməməlidir".

**Politoloq Elxan Şahinoğlu** qeyd etdi ki, Azərbaycan prezidenti İlham Əliyevi həmsədrləri kəskin tənqidində haqlıdır və bu ilk dəfədir baş verir: “Azərbaycan prezidentinin narazılığına səbəb olan əsas faktor Minsk qrupu həmsədrlərinin AŞPA ilə bağlı yaydıqları bəyanat oldu. Həmsədrlərin bəyanatında deyilirdi ki, AŞPA Dağlıq Qarabağla bağlı qətnamə qəbul etməsin. Həmsədrlərin bəyanatı qətnamənin qəbuluna təsir etdi və sənədin qəbulu üçün lazım olan 4 səs çatmadı. Azərbaycan prezidenti əvvəllər də həmsədrlərin fəaliyyətini tənqid edərdi, ancaq bu dəfə İlham Əliyev konkret ittiham bildirdi: "Həmsədrlər münaqişənin həllində maraqlı deyillər", "Həmsədrlər Ermənistana dəstək verirlər", "Həmsədrlər Azərbaycan müsəlman dövlət olduğuna münaqişənin ədalətli həll etməyə maraq göstərmirlər". Əslində bu cür kəskin ittihamlardan sonra rəsmi Bakının həmsədrlərlə birgə fəaliyyətinə ehtiyac qalmır".

**Ekspertə görə, məhz elə İ.Əliyevin son çıxışından sonra ekspert dairələrində və cəmiyyətdə iki sual ətrafında müzakirələr aparılır:** “Birinci sual belədir ki, Azərbaycan Mnsk qrupu həmsədrlərindən imtina edəcəkmi? İkinci sual isə birinci sualının ardı kimidir: Azərbaycan həmsədrlikdə hansı dövlətləri görmək istəyir? ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçiliyindən imtina etmək çətin iş deyil. Çətinlik bu qərardan sonra yaranacaq. Çünki rəsmi Bakı həmsədrlərdən imtina halında danışıqlara son verən tərəf olacaq. Rəsmi Bakının qərarının əksinə olaraq isə İrəvan Minsk Qrupu həmsədrlərinin fəaliyyətindən razı qaldığını bəyan edəcək və beynəlxalq aləmdə özünü "sülhpərvər" kimi göstərməyə çalışacaq və istədiyi nəticəni əldə edəcək. Onsuz da həmsədrlər illərdir işğalla bağlı status-kvonu qoruyurlar. Bu isə Ermənistanın xeyrinədir. Rəsmi Bakının həmsədrlərdən imtinası sülh danışıqlarının nəticə verməl diyi və Azərbaycanın torpaqları müharibə vasitəsilə geri qaytarmağa hazır olduğu mənasını verəcək. Avrasiya bölgəsində indiki gərgin geosiyasi durumda, Azərbaycanın böyük enerji və tranzit layihələrini reallaşdırmağa çalışdığı dövrdə müharibəyə başlaması problematikdir".

**E.Şahinoğluna görə, müharibə bütün bu layihələrin reallaşmasını təhlükə altına alacaq:** “Ona görə də rəsmi Bakı indiki şərtlər daxilində müharibə qərar verməyə tələsməyəcək. Belə olan halda rəsmi Bakı özünün imitasiya adlandırdığı danışıqları davam etdirmək məcburiyyətindədir. Buna baxmayaraq, "Azərbaycan həmsədrlikdə hansı dövlətləri görmək istəyir" sualı da geniş müzakirə olunur. Bakı həmsədrlikdə Fransanı Almaniya ilə əvəz etmək, əlavə olaraq Türkiyəni də qrupa salmaq istəyərdi. Minsk Qrupunun üzvü olan Almaniya ATƏT-in hazırkı sədridir və Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Problem ondadır ki, hazırkı həmsədrlər - ABŞ, Fransa və Rusiya həmsədrlikdə özlərindən başqa digər dövləti - Almaniya və Türkiyəni görmək istəmir. Ermənistanın da mövqeyi eynidir. Buna görə də yalnız rəsmi Bakının istəyi ilə Minsk qrupunun formatını dəyişmək çətindir. Bu arada, Minsk qrupu ilə yanaşı, digər iki formatın yaradılması barədə xəbərlər yayılır. Birinci formatda Dağlıq Qarabağ münaqişəsinin həllinə bir neçə regional dövlət də cəlb olunmasından danışılır. Rusiya ilə yanaşı, İran, Qazaxıstan və Belarusun adları çəkilir. İkinci formatda isə Dağlıq Qarabağ münaqişəsinin həllinə Rusiya və İran cütlüyündən söhbət açılır. Hər iki format Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirməyəcək. Doğrudur, birinci formatda Qazaxıstan və Belarus var ki, bu iki dövlət münaqişənin həllində Azərbaycanın ərazi bütövlüyünün qorunmasını vacib sayırlar. Ancaq onlar eyni zamanda Rusiyanın hərbi-siyasi müttəfiqləridir və Moskvanın istəkləri əleyhinə çıxmayacaq. Moskva isə müttəfiqi Ermənistanın maraqlarını diqqətə alır. İkinci format isə ümumiyyətlə, Azərbaycanın əleyhinədir. Rusiya və İran Ermənistanın bölgədəki iki ən yaxın müttəfiqidir. Moskva və Tehran Azərbaycanın Qərblə və Türkiyə ilə əməkdaşlığına tənqidi yanaşır və Azərbaycanın ərazi bütövlüyünün bərpasında maraqlı deyillər. Ona görə də rəsmi Bakı nə birinci, nə də ikinci formata yaşıl işıq yandıracaq. Rəsmi Bakı üçün indiki şəraitdə yeganə alternativ Ermənistanı və Dağlıq Qarabağ separatçılarını təzyiq altında saxlamaqdır və bu az da olsa öz müsbət nəticəsini verir. Ermənistan azalan insani və maliyyə potensialını işğal altındakı torpaqların qorunmasına xərcləyir və bu potensial getdikcə tükənir".




**Politoloq Arzu Nağıyev** “Yeni Müsavat”a bildirdi ki, belə təxribatlar daima gözlənilməndir: “Əgər statistikaya baxsaq, görərik ki, Azərbaycan prezidenti Qərbin dövlət başçıları ilə yüksək səviyyəli və mühüm görüşlər keçirəndə mütləq ermənilər və onların havadarları bütün cəbhə boyu təxribatlara əl atır. Bir neçə müddət idi ki, cəbhədə müvəqqəti sakitlik hökm sürürdü, xırda insidentlər olsa da, böyük təxribatlar yox idi. Məhz bu görüş ərəfəsində və regional münaqişələrin həlli barədə müzakirələr aparılan vaxt təxribatlar baş verir". **A.Nağıyev şübhə etmir ki, erməni təxribatlarının arxasında Rusiya dayanır:** “Son görüşlərdə məhz Suriya məsələsi müzakirə obyekti olduğu üçün və Türkiyə də bu məsələdə tərəf olduğundan ən inandırıcı variant məhz Rusiyadır”.

**Hərbi ekspert Üzeyir Cəfərov** son günlər cəbhə xətti boyunca gərginliyin “qaynıyıb-daşmasını” təsadüfi saymır: “Elə bir gün olmur ki, ciddi hadisələr baş verməsin, hər iki tərəfdən itkilərin olması artıq adi hala çevrilməkdədir. Təbii ki, erməni tərəfinə haqq olur. Çünki onlar işğalçı statusundadırlar və başqa torpaqlarda layiq olduqları cəzanı alırlar. Amma, öz əsgərlərimizin itkilərinə çox acıyıram. Üstəlik, bu itkilər Qarabağdan çox-çox uzaqda, Ermənistan Azərbaycan dövlət sərhədinin yaxınlığında baş verməsinə diqqət yetirmək lazımdır. Düşmən çoxdan idi ki, diqqəti məhz bu istiqamətə yönəltməyə çalışırdı, necə ki, az da olsa artıq bu məkrli istəyinə nail olub. Əvvəl deyirdilər ki, guya Azərbaycan Silahlı Qüvvələri onlara az qala imkan vermir ki, yaşasınlar. Hətta bir ara yaxın ərazilərdən guya kəndlərinin boşaldılması xəbərlərini də dezinformasiya şəklində yaymışdılar. Bir qədər əvvəl isə Odundağ yüksəkliyi ilə bağlı ortalığa bir xəbər buraxdılar və çox təəssüflər olsun ki, bizim həm rəsmi, həm də qeyri-rəsmi tərəf bu təxribata hardasa uydu. Elə biz "Yeni Müsavat"ın səhifələrində bu xəbəri şərh edərkən bunun uzaqgedən məqsəd daşıdığını qeyd etmişdik. Düşmənə sadəcə, fürsət lazım idi. O buna qismən də olsa nail oldu. İndi də adı bədnam olan Minsk qrupunun "xoşbəxt turist" statuslu diplomatları yaxın günlərdə regiona gəlməyə hazırlaşırlar. Bu haqda xəbər verilən kimi, sanki İrəvanda düymə basılmış vəziyyətə gətirilir. Təxribat, atəşkəsin davamlı pozulması və saire".

**Ü.Cəfərov hesab edir ki, bu fakt Ermənistanın tam kənardan idarə edilən bir dövlət olduğunu təsdiqləyir:** “Onların ipi başqalarının əlindədir. Ona görə də xüsusən də qərb istiqamətində Silahlı Qüvvələrimiz ayıq-sayıqlıqlarını birə-beş artırmalıdırlar. Sadəcə, həmsədrlərə bəhanə və növbəti dəfə boş-boşuna danışmaq və hansısa "qiymətli ideya və təklif"lər vermək üçün cəbhədə vəziyyəti mütləq gərginləşdirmək lazım idi və bu da baş verib".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

# Sabiq polis əməkdaşı ömürlük azadlıqdan məhrum edildi



**Bakı Ağır Cinayətlər Məhkəməsində qətl və quldurluq cinayətləri törətməkdə təqsirli bilinən Şakir Orucov, Röyal Əhmədov, Rəşad Tağıyev və Səttar Rəhimovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Lent.az-ın məlumatına görə, hakim Rasim Sadıqovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hakimlər kollegiyasının hökmünə əsasən Ş.Orucov ömürlük, R.Əhmədov 20 il, R.Tağıyev və R.Səttarov isə 13 il müddətə azadlıqdan məhrum edilib.

Xatırladaq ki, ötən prosesdə dövlət ittihamçısı çıxış edərək, Şakir Orucova ömürlük, Röyal Əhmədova 20 il, digərlərinə isə 14 il azadlıqdan məhrumetmə cəzası verilməsini istəyib.

Qeyd edək ki, Şakir Orucov Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Mühafizə Şöbəsinin polis nəfəri vəzifəsində işləyən zaman iş yoldaşı Röyal Əhmədovla cinayət əlaqəsinə girərək, mütəşəkkil dəstə yaradıb. Onlar Naxçıvan şəhəri, İstiqlal küçəsi, bina 23, mənzil 9-da yaşayan Nəsibə Axundovanın maddi imkanının yaxşı olduğunu öyrənib, onu öldürüb evini qarət etmək qərarına gəliblər. Bu məqsədlə 2012-ci il, oktyabrın 20-də N.Axundovaya məxsus mənzilə basqın edib, ev sahibəsinin boğub öldürüblər.

Dəstə üzvləri mənzildə axtarış aparıblar, qadının çantasından 60 manat pul, qızıl-zinət əşyaları götürəndən sonra mətbəxdəki qazı açıq qoyaraq hadisə yerini tərk ediblər.

N.Axundovanın yaxınları onu mənzildə ölmüş vəziyyətdə aşkar ediblər. Bədənində heç bir xəsarət aşkar edilmədiyindən bu barədə hüquq-mühafizə orqanlarına məlumat verməyiblər. Hadisədən uzun müddət sonra N.Axundovanın kəskin ürək çatışmazlığından ölməsi deyil, qətlə yetirildiyi məlum olub.

Şakir Orucov və Röyal Əhmədov növbəti cinayətə polis əməkdaşı işləyən Rəhim Səttarovu da cəlb ediblər. Bu dəfə onlar Naxçıvan şəhər sakini Tahirə Əhmədovanın mənzilini qarət etməyi qərara alıblar.

Qadının mənzildə tək, özünün isə imkanlı olduğunu bilən dəstə üzvləri 2014-cü il, mayın 5-də onun yaşadığı evə yollanıblar. Özlərini icra hakimiyyətinin nümayəndəsi kimi təqdim edərək mənzildəki istilik sistemini yoxlayacaqlarını bildiriblər.

T.Əhmədova qapını açarkən ona qəflətən hücum çəkiblər. Ev sahibəsinin boyun nahiyəsini sıxaraq onu qətlə yetiriblər. Mənzildən T.Əhmədovaya məxsus 6 min manat dəyərində qızıl əşyaları oğurlayıblar. Elə həmin gün əldə etdikləri qızılları satmaq məqsədilə Türkiyə ərazisinə keçiblər. Qızılın satışından əldə etdikləri gəliri öz aralarında bölüşdürüblər.

Onu da qeyd edək ki, T.Əhmədovanın ailə üzvləri onu huşsuz vəziyyətdə tapıblar. Onlar əvvəlcə mərhumun beyninə qan sızması nəticəsində dünyasını dəyişdiyini güman ediblər. Ona görə də hüquq-mühafizə orqanlarına məlumat verməyiblər. Amma sonradan T.Əhmədovanın qətlə yetirilməsi və mənzilin qarət edildiyi məlum olub.

İki nəfəri qətlə yetirən dəstə üzvləri artıq Naxçıvanda qalmayıblar. Onlar öz "fəaliyyətləri"ni davam etdirmək üçün paytaxta üz tutublar.

Dəstə üzvü Rəşad Tağıyevin qonşuluğunda yaşayan Kamilə İsgəndərovanın imkanlı olduğunu öyrəndikdən sonra qadını öldürüb pullarını və qızıllarını ələ keçirməyi planlaşdırıb. Bu niyyətlə onlar 4 avqust, 2014-cü ildə onun yaşadığı mənzilə gəliblər. Dəfələrlə mənzilin giriş qapısını döysələr də, ev sahibəsi evdə olmadığından öz cinayətkar niyyətlərinin reallaşdıra bilməyiblər.

Ertəsi gün R.Tağıyevin uzaq qohumu olan İlknur Qasımovanın mənzilini aparmağı planlaşdırıblar. Gecə saat 03 radələrində onun yaşadığı evin yaxınlığına gəliblər. Amma evdə işıqlar yandığından və mənzildə başqa şəxslər olduğundan geri qayıtmağa məcbur olublar.

**2015-ci ilin fevralında isə Rəşad Tağıyev Raci İsgəndərovla qabaqcadan əlbir olub, İran İslam Respublikasından narkotik maddə gətirən zaman sərhəd-keçid məntəqəsində tutulublar.**

## Yaşlı qadınların çantasını qaçıran şəxs həbs edildi

**Nəsimi Rayon Polis İdarəsi və 20-ci Polis Bölməsinin əməkdaşlarının keçirdiyi əməliyyat tədbiri nəticəsində rayon ərazisində soyğunçuluq edən Salyan rayon sakini Ramin Səfərov yaxalanıb.**



Araşdırma zamanı məlum olub ki, R.Səfərov əsasən ahıl yaşlı qadınları izləyərək onların çantalarındakı pulları soyğunçuluq yolu ilə ələ keçirib.

"Yolla gedirdim. Gördüm bir qadın gedir irəlidə. Çantasını götürüb qaçdım. Pulu götürdüm, çantanı atdım. Bakıda bu cür üç cinayətim olub", - Ramin Səfərov istintaqa ifadəsində bildirib.

**Faktla bağlı araşdırmalar davam etdirilir.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**


bakcell

## "Mançester Yunayted Futbol Məktəbi"nin ilkin hazırlıq qrupuna qəbul başlanır

**Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) və Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti böyük məmnuniyyətlə "Mançester Yunayted Futbol Məktəbi"nin ilkin hazırlıq qrupuna qəbulun başlamasını elan edir.**

**AFFA, «Bakcell» şirkəti və İngiltərənin "Mançester Yunayted" futbol klubu arasında tərəfdaşlıq münasibətləri çərçivəsində Bakıda daimi fəaliyyət göstərən "Mançester Yunayted Futbol Məktəbi"nin artıq 5 aya yaxındır ki, ilkin hazırlıq qrupu öz fəaliyyətini davam etdirir. Lakin çoxsaylı istəkləri nəzərə alaraq, daha bir ilkin hazırlıq qrupunun yaradılmasına qərar verilib.**

**İlkin hazırlıq qrupunun 2003, 2004, 2005, 2006, 2007, 2008-ci il təvəllüdlü uşaqlardan təşkil olunması planlaşdırılır.**

**5 həftəlik proqrama 130 manat ödəməklə qoşulmaq mümkün olacaq. Yeni qrupun məşqləri fevralın 15-də başlayacaq.**

**"Mançester Yunayted Futbol Məktəbi"nin ilkin hazırlıq qrupunda məşqlər həftədə 2 dəfə olmaqla Bayıl stadionunda İngiltərədən ezam olunnmuş Mick Bennet və assistentləri Samir Ələkbərov və Cahangir Həsənzadə tərəfindən keçiriləcək.**

**Yerlər məhduddur.**

**İkinci qeydiyyatdan keçmək üçün aşağıda göstərilən sənədlərlə 15.02.16 tarixində, saat: 17:30-da "Bayıl Arena" stadionuna gəlmək lazımdır:**

**Şəxsiyyəti təsdiq edən sənəd**
**Sağlamlıq haqqında arayış**

**Qeydiyyatdan öncə aşağıdaki nömrəyə zəng edib ilkin qeydiyyatdan keçmək mütləqdir.**

**Qrupa yazılmaq istəyənlər üçün əlaqə vasitələri:**
**+994 55 511 33 03 - Ramin Həsənov**
**Muss@affa.az ailto:Muss@affa.az**

**"Mançester Yunayted Futbol Məktəbi" 2014-cü il sentyabrın 23-də yaranıb və oktyabrın 6-dan fəaliyyətinə start verilib. Dərslər həftədə 2 dəfə olmaqla praktiki və nəzəri şəkildə keçirilir.**

***Hazırda "Mançester Yunayted Futbol Məktəbi"ndə 3 istedadlar və 1 ilkin hazırlıq qrupu fəaliyyət göstərir.***

## Meyxana televiziyalardan niyə yığışdırıldı?

**Bir müddət bir-birinin ardınca müxtəlif televiziya kanallarında meyxana yarışları keçirilirdi. Bunlar ANS-də "De gəlsin", ATV-də "Sözüm var", SPACE TV-də "Sözümüz-sözdür" verilişləri idi. Kifayət qədər reytinq qazanıb ictimaiyyətin marağına səbəb olan, aylarla efirlərdən düşməyən bu verilişlərdə bəzən söyüş tipli, bayağı, vulqar ifadələr səsləndiyindən tənqid obyektinə də çevrilirdi. Tanınmış meyxanaçılar belə bu verilişlərdə meyxananın səviyyəsiz şəkildə təqdim edilməsindən şikayətlənir, buna qarşı senzura qoyulmasını, hətta efirlərdən yğışdırılmasını tələb edirdilər.**

Son dövrlər isə nədənsə həmin meyxana verilişləri efirlərdə gözə dəymir. Səbəb nədir?

Məsələ ilə əlaqədar televiziya kanalları ilə əlaqə saxladıq. **"Space"-nin icraçı direktoru Kamil Şahverdi** səbəbi bu cür açıqladı: "Sonuncu verilişlərə elə də böyük maraq olmadı, reytinq əldə edə bilmədik, ona görə davam etdirmədik".

K.Şahverdi onu da vurğuladı ki, yaxın gələcəkdə də "Space"-də meyxana tipli verilişin olacağı gözlənilmir.

**ATV televiziyasının mətbuat xidmətinin rəhbəri Vaqif Aydınoğlu** isə qeyd etdi ki, "Sözüm var" meyxana yarışı verilişinin dayandırılması səslənən tənqidlərlə bağlı deyil: "Televiziyada proqram siyasəti bir-iki günün içində yaranan iş deyil. Adətən mövsüm ilə əlaqədar televiziyanın rəhbərliyi tərəfindən mövsümlük proqram tərtib olunur. Hansısa layihə efirə çıxanda bu o demək deyil ki, o davamlı olmalı, bir neçə ili əhatə etməlidir. Amma zaman-zaman meyxanaçılar televiziyanın hansısa şou proqramlarında, verilişlərində iştirak edirlər".

**V.Aydınoğlu da qeyd etdi ki, gələcəkdə bu tipli verilişin olacağı gözlənilmir. ANS Şirkətlər Qrupu prezidentinin media üzrə müşaviri Mais Məmmədov yaxınlarda meyxana yarışmasının yeni kollektivlə yenidən efirə gedəcəyini deyib**: "Ümumiyyətlə, televiziya verilişləri elədir ki, bir il keçdikdən sonra onu dəyişdirmək lazımdır. Müzakirə edirik, verilişə baxış çoxdur, ya yox. Bundan sonra onun yenidən gələn ilin proqramına da də salırıq. Həmin verilişdə müəyyən düzəlişlər, yeniliklər edirik".

**"De gəlsin" yarışmasının iştirakçısı olan Vüqar Biləcəri** də məsələyə münasibət bildirib. Meyxanaçı səslənən tənqidlərlə razılaşmadığını deyib: "Orda təhqiredici sözlər, söyüşlər olmayıb. Sadəcə, yüngülvari şirin kəlmələr var, zarafatlar var idi. Yəni çərçivədən kənara çıxmalar ola bilməz. Meyxana elə bir sənətdir ki, bu, hər adama verilən qabiliyyət deyil. Bu, ilahi istedaddır. Əsl sənətkarı, yəni şairi, xalq özü istəsin gərək. Şərt o deyil ki, səhərdən-axşamadək efirdə qalasan".

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 90 (6118) 28 aprel 2015

# "Böhran 49 manatlıq ayaqqabını 15 manat etdi"

## "Bakıya gətirilən geyimlərin əslində qiymətləri ucuzdur, bizə baha qiymətə şatırlarmış, indi müştəri az olduğu üçün mal əllərində qalıb"

**Dolların bahalaşması, manatın dəyərini itirməsi bir çox sahələr kimi geyim sektoruna da təsir edib. Şəhərin mərkəzində yerləşən geyim mağazalarının bir qismi bağlanıb, əl dəyişdirilib və ya böyük endirimlər olunub. Əksər mağazalar 50% faiz endirim edərək müştəri cəlb etməyə çalışır.**

Musavat.com saytının əməkdaşı şəhərin böyük geyim mağazalarına baş çəkib və son durumu öyrənib.

Əməkdaşımız bildirir ki, böyük alış-veriş mərkəzlərində yerləşən geyim mağazalarının əksəriyyətində 70 % endirim var. Hətta ötən gün "Grandezza" mağazasının 90% endirim etməsi isə insan izdihamına səbəb olub. İnsanlar mağazanın qarşısına yığılaraq alış-veriş etmək üçün növbələrini gözləyiblər.

Böyük alış-veriş mərkəzlərində isə durum daha acınacaqlıdır. Bəzi mağazalar 70% endirim etsə də, müştərisiz qalıb. İşçilər də müştəri azlığından şikayət edir:

"Böhranla əlaqədar 70% endirim etmişik. Alıcıların sayı yox dərəcəsindədir. Mağazamız böyük ticarət mərkəzində yerləşsə də, satış yoxdur. Bu durum nə qədər davam edəcək bilmirik".

Mağazaların əksəriyyətində isə endirimlər müştərini aldatmaq üçündür. Çünki köhnə kolleksiya aid olan, sayı az qalan, satılmayan malların qiyməti ucuzlaşıb. Köhnə kolleksiyaya aid olan və yay aylarında 45 manata satılan şort 10, 55 manata satılan tulum isə indi 25 manata satılır.

Bu böyük endirimlər isə yeni kolleksiyalara aid deyil. Çünki onların qiyməti baha olaraq qalır. Adi maykanın qiyməti 25, köynəklər isə 39 manatdan başlayır.












Təbii ki, böhranla əlaqədar bağlanan və əl dəyişdirən mağazalar da var. Tarqovi küçəsində yerləşən "Promoud" mağazası "Etam" alt paltarları mağazası ilə əvəzlənib.

Alış-veriş edən İlhamə Əzizova adlı müştəri bildirir ki, o endirimlərdən yararlana bilən insanlardandır: "Endirimdən çox yaxşı yararlandım. Ucuz qiymətə 4 ayaqqabı, ətəklər, köynəklər aldım. 49 manata olan ayaqqabını 15, 69 manatlığı isə 29-a aldım. Bu qiymətlərdən çox razıyam. Kaş, hər zaman qiymətlər belə olardı. Düşünürəm ki, Bakıya gətirilən geyimlərin əslində qiymətləri ucuzdur, bizə baha qiymətə satırlarmış. İndi müştəri az olduğu üçün mal əllərində qalıb. Ona görə də indi normal qiymətə satırlar. Təbii ki, narazı olduğum məqamlar da var, çünki endirimlər yalnız köhnə kolleksiyaya aiddir. Yeni kolleksiyalar çox bahadır. Ümid edirəm ki, onların da qiyməti normallaşacaq".

Kərim Hüseynov adlı müştəri isə malların həm keyfiyyətindən, həm də qiymətindən narazıdır:

"Bəli, mağazaların üzərində yapışdırılan 70%-lik endirimlər insanın gözünü oxşayır. Mağazaya girəndə isə fərqli mənzərə ilə rastlaşırsan. Endirim ya köhnə kolleksiyaya, ya da keyfiyyətsiz mallara aiddir. Endirimdə olan malların çoxu ya deffektli, ya da üzəri kosmetika ləkəlidir. Endirimdə olan ayaqqabıların çoxunun içində isə Çin istehsalı olduğu yazılıb. Çin mallarını Sədərəkdən, metro keçidlərindən də ala bilirik. Müştərini aldatmasınlar.

Qiymətlərə gəldikdə isə Avropa ölkələrində insanların aylıq gəliri 2500 avrodan çox olduğu halda, bizdə çoxumuzun gəliri 500 manatı keçmir. Milanda yerləşən "Zara" mağazası ilə Bakıda yerləşən məkanda qiymətlər eynidir. Bu bizim insanlara haqsızlıqdır. Mağaza sahibləri insanların aylıq gəlirini nəzərə almalıdır".

❑ **Könül İBRAHİM**
❑ **Fotolar: Məhəmməd Türkmən**

# Tikinti materialları bazarında qiymətlər "oynayır"

## Bəzi mallar nisbətən ucuzlaşıb; alıcı isə yoxdur

**Tikinti materialları bazarında manatın ikinci dəfə devalvasiyasından sonra qiymətlər "oynamaqda" davam edir. Musavat.com-un əməkdaşı Dərnəgül yolunda yerləşən tikinti materialları bazarına baş çəkib və şahidi olub ki, bəzi materialların qiymətində devalvasiyadan sonra artırılan qiymətlər, az da olsa endirilib. Lakin əgər qiymətləri devalvasiyadan öncəki rəqəmlərlə müqayisə etsək, diqqət çəkəcək qədər qiymət artımını görmüş olarıq.**




Son günlər qiymətində ən çox ucuzlaşma olan taxta və taxtadan hazırlanan materiallardır. Ötən ayın əvvəllərində taxtanın 1 kubu 300 manata satılırdısa, hazırda 240 manatadır. Bu, devalvasiyadan sonrakı ən yüksək qiymətdən aşağı olsa da, ötən ilin noyabr ayı ilə müqayisədə 60 manata qədər bahalaşmanın göstəricidir.

Eyni zamanda bazarda tamet daşların qiymətlərində də azalma müşahidə olunur. Satıcılar bildirirlər ki, tamet daşların qiyməti devalvasiyadan sonra 50 qəpik bahalaşmışdı. Alıcı az olduğu üçün yenidən əvvəlki qiymətinə salındı. Hazırda bazarda tamet daşlar 5.50- 7 AZN arasında dəyişən qiymətlərlə satılır.

Satıcılar, sementin, gipsin qiymətində də son günlər ucuzlaşma olduğunu bildirdilər. Belə ki, devalvasiyadan sonra 5.50 AZN-ə olan 40 kiloqramlıq sementin kisəsi hazırda 5 manata satılır. Eyni zamanda mişar daşının da qiyməti 50 qəpikdən 35-40 qəpiyə endirilib. Mərmərin də qiyməti 60 manatdan 55 manata endirilib. Bazarda lambrin isə 4- 4.20 AZN-ə satılır. Hazırda bazarda 9.5 mm qalınlığında olan alçipanın 1 ədədinin qiyməti 7,5 AZN, 12.5 mm-nin 1 ədədi 10,5-12,5 AZN arasında dəyişir.

Bazarda bütün növ armaturların 1 tonunun qiyməti 100 AZN ucuzlaşıb. Lakin digər materiallarda olduğu kimi, armaturların da qiyməti devalvasiyadan öncə ilə müqayisədə hələ də xeyli bahadır.

İstilik sisteminə gəlincə isə onların da qiymətində müəyyən qədər azalma var. Misal üçün 10 manata satılan radiatorların qiyməti hazırda 8.50 AZN-dir. İtaliya radiatorlarının qiyməti isə enməyib.

Bazarda xırdavat mallarının qiymətində isə 20-50 faizə qədər artım var. Bütün növ lampaların, kabellərin, lüstr və digər bu kimi malların qiyməti ən azı 25 faiz bahalaşıb. Satıcı Şamil bildirdi ki, bu malların qiymətində hələ bundan sonra da artım olacaq: "Taxtanın qiymətində isə 60 manata qədər artım var. Çünki taxtanı satanlar 200 faiz üstünə qiymət qoyurlar. Biz isə bir-iki manat xeyir götürürük. Hər şeyi xaricdən dollarla alırıq. Bundan sonra dollar nə qədər qalxacaqsa bizim də mallarımız bir o qədər baha olacaq. Hansı mağazalarda yeni mal gətirilibsə, onlar qiymətləri 50 faiz bahalaşdırıb. Köhnə malların isə qiyməti təxminən 20-25 faiz arasında bahalaşıb. Misal üçün əvvəllər şar lampalar 20 AZN idisə, indi 28 AZN-ə satılır".

**Bazarda bundan sonra qiymətlərin necə olacağı ilə bağlı musavat.com-a tikinti məsələləri üzrə ekspert Nüsrət İbrahimov danışıb. O bildirib ki, yanvar ayında tikinti bazarında qiymətlərdə ucuzlaşma müşahidə olunub:** "Yanvar ayının yekunlarına görə, bazarda 1.7 faiz ucuzlaşma var. Ucuzlaşan tikinti materialları qismən taxta və taxtadan hazırlanan tikinti materiallarıdır. Digər tikinti materiallarının qiymətində isə ya stabillik, ya da cüzi də olsa artım var. Fevral və mart ayında tikinti materiallarının qiymətində qiymət artımı gözlənilmir. Ancaq avqust ayına qədər qiymətlərdə müəyyən qədər artımın olacağı gözlənilir. Bu isə mövsümlə əlaqədar olacaq. Bazarda son günlər qiymətlərin az da olsa düşməsi həm də müştərilərin azlığı, tələbatın olmaması ilə əlaqədardır. Bu baxımdan hesab edirəm ki, mart ayından sonra bazarda müəyyən qədər bahalaşma olacaq".

❑ **Əli RAİS**
❑ **Fotolar müəllifindir**






Yeni MÜSAVAT

Son səhifə

N 28 (6349) 6 fevral 2016



## Bibəriyyə sakitləşdirir, arıqladır, gözəlləşdirir

**Bibəriyyə o qədər faydalı bir bitkidir ki, faydalarını saymaqla tükənməz. Bibəriyyə revmatizmdən əziyyət çəkənlər üçün əvəzolunmaz bir nemətdir, nəinki revmatizm bütün iltihabi xəstəliklər üçün çox faydalıdır.**

Bibəriyyə çox güclü immunitet artırıcıdır. Ən azından bu faydasına görə heç olmasa, həftədə 1-2 dəfə bibəriyyə çayını içməyə dəyər. Eyni zamanda əsəb sakitləşdiricidir. Əgər axşam yatmağınızda problem varsa, çox əsəbləşirsinizsə sizin üçün çox faydalı olacaq.

Saç tökülməsinə qarşı da bibəriyə çox faydalıdır. Belə ki, bibəriyə saç köklərini dərinləşdirir, kəpəklənməni götürür. Yuduqdan sonra 1 xörək qaşığı bibəriyəni 1 stəkan suda dəmləyin və sonda saçlarınızı bu su ilə yaxalayın. Dəri səpmələrində, qaşınmalarda, diatezlərdə bibəriyə dəmləməsində isladılmış pambıq əskini dəri üzərinə qoyun. Bibəriyə dəmləməsi ilə boyunu, saç diblərini, qulaq diblərini masaj edən zaman baş ağrısı keçir. Bibəriyə 15 əsrdir ki xalq təbabətində istifadə olunur. Sübut olunub ki, 2-3 gündən bir bibəriyə çayı içən adamlarda skleroz və Altsheymer xəstəliyi olmur. Arıqlamaq istəyənlər üçün də faydalıdır, belə ki, başqa arıqladıcı vasitələrdən fərqli olaraq o, işlədici təsir göstərmir. Yalnız iştahanı zəiflədir.

## Əti laboratoriyalarda yetişdirəcəklər

**IFL Science xəbər verir ki, bir qrup Amerika alimləri hazırda Memphis Meats adlı layihə üzərində işləyirlər. Bu layihənin əsas məqsədi heyvanlardan alınmış hüceyrələr əsasında süni ətin hazırlanmasıdır. Süni ətin hazırlanmasında yüksək regenerasiya (bərpa) qabiliyyətinə malik olan donuz, inək və toyuqların hüceyrələri istifadə olunur. Hüceyrələri xüsusi bioreaktora yerləşdirirlər və 1-3 həftə ərzində yetişdirirlər. Alimlərin sözlərinə görə, süni ət təbii ətin bütün xüsusiyyətlərinə (dad, rəng, konsistensiya) malikdir. Alimlər artıq bu ətdən hazırlanmış küftənlərin dadına baxıblar və təsdiq edirlər ki, ət həqiqətən çox dadlıdır. Yaxın 5 il ərzində layihənin maliyyələşdirilməsi üçün bir neçə milyon vəsait alan alimlər süni ətdən bir neçə növ müxtəlif məhsullarının buraxılmasını planlaşdırırlar. Alimlərin sözlərinə görə, bu məhsullar tam ziyansız olacaq, onların tərkibində patogen orqanizmlər və ya antibiotiklərin izləri olmayacaq.**



## Kitabı insan dərisi ilə cildlədilər

**Harvard Universitetinin kitabxanasında qəribə görünüşlü dəri cildləri olan üç kitabla bağlı aparılan araşdırmalar nəticəsində onların insan dərisi ilə cildləndiyi ortaya çıxıb. Kitabın XVII əsrə aid olduğu deyilir. İnsan dərisi ilə cildlənmiş kitablar onlar haqqında araşdırma aparan alimləri də şoka salıb. “Roadtrippers”ın xəbərinə görə, kitablardan birinin cildi canlı-canlı dərisi üzülmüş insana məxsus imiş.**

Əslində kitabların insan dərisi ilə cildlənməsi XVII əsrdə olduqca populyar olub. “Antropodermik kitab cildləməsi” adlandırılan bu sənət haqqında anatomiya kitablarında çox məlumatlar var. Tibb sahəsində çalışan insanlar üzərində çalışdıqları ölülərin dərisini çıxararaq kitab cildləyənlərə verirmişlər. Qeyri-adi kitablardan biri Roma şer sənəti, ikincisi fransız fəlsəfəsi, üçüncüsü isə orta əsrlər İspan hüququ haqqındadır. Fransanın ilk yazılı qanunu da 1791-ci ildə insan dərisi ilə cildlənib.





## Arvadını məhkəməyə verdi

**İtalyan kişi ev işi ilə məşğul olmadığı üçün arvadını məhkəməyə verib. 49 yaşlı evdar qadın “ailəyə pis davrandığı” üçün hakim qarşısına çıxarılacaq. Lazio şəhərində yaşayan adı açıqlanmayan qadının günahkar olduğu təsdiqlənərsə 6 il müddətinə azadlıqdan məhrum ediləcək.**

Polislərin qeydlərinə görə, 47 yaşlı kişi arvadı evi təmizləmədiyi üçün özünü pis hiss edib. İtalyan kişi arvadının ona pis davrandığını, o pinti olduğu üçün qonşularının həyat şərtlərinin də pisləşdiyini deyib. Kişinin digər iddiası alış-veriş edib evə gətirdiyi ərzaqları zibilliyə atılması ilə bağlıdır. Məhkəməyə çıxarılacaq qadının günahkar olub-olmadığına isə hakim qərar verəcək.




**QOÇ** - Ulduzların düzümü sağlıq durumunuzda problem olduğunu göstərməkdədir. Bu səbəbdən də qida və yuxu rejiminizə, həmçinin daxili orqanlarınıza ciddi fikir verməlisiniz.

**BUĞA** - Havaların şıltaqlığını nəzərə alıb istirahətə daha çox üstünlük verin. Əgər qonaqlığa dəvət alsanız, məmnuniyyətlə qəbul edin. Ümumi zəifliyinizə görə, qidanıza da yaxşıca fikir verməlisiniz.

**ƏKİZLƏR** - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, uzaqdan sevindirici xəbər alasınız. Hər halda, ovqatınız xoş olacaq. Nəqliyyat vasitələrində isə maksimum ehtiyatlı olmalısınız.

**XƏRÇƏNG** - İkitərəfli əməkdaşlıq üçün düşərli vaxtdır. Buna baxmayaraq, müqavilə bağladığınız adamlarla ehtiyatlı davranın. Qlobal məsələlərin həllində təşəbbüskarlığı da əldən verməyin.

**ŞİR** - Bu gün ümumi əhvalınızda xoş məqamlar çox olacaq. Əlxüsus da saat 15-dən sonra bütün cəhdləriniz baş tutacaq. Əsas vaxtınızı isə ailə-sevgi münasibətlərinə həsr edin.

**QIZ** - Yaxşı olar ki, bu təqvimdə bütün işlərinizi təxirə salasınız. Çünki fiziki yorğunluğunuzun ifratçılığı aktivliyinizə mane olacaq. Vaxt tapıb yaxın dostlarınıza baş çəkin.

**TƏRƏZİ** - Ümumi kosmik mənzərə sizdə səhhətlə bağlı problem yarada bilər. Bu səbəbdən də qayğınıza qalmağa çalışın. Ayaq nahiyənizə xüsusi diqqət ayırın. Qalan sahələrdə normallıq olacaq.

**ƏQRƏB** - Kifayət qədər uğurlu gündür. Qarşıya qoyduğunuz planların böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Maraqlı görüş və tanışlıqlar da mümkündür. Uzaq yola çıxmayın.

**OXATAN** - İntiqam hissi, əsəbi situasiyalara şərh vermək, münasibəti korlanmış iki nəfər arasında vasitəçilik etmək sizə zərər yetirə bilər. Buna görə də yalnız özünüzə aid işlərlə məşğul olun.

**OĞLAQ** - Saat 14-ə qədər neytarllıq nümayiş etdirməyiniz məsləhətdir. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin. Sonrakı müddətdə isə perspektivli sövdələşmələr gözlənilir.

**SUTÖKƏN** - Bütün göstəricilər səfərlərə çıxmaqdan məmnunluq duyacağınızı xəbər verir. Elə isə vaxtı fövtə verməyin. Bu gün fəaliyyətlə bağlı işlər üçün o qədər də uğurlu vaxt deyil.

**BALIQLAR** - Şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şansınız olacaq. Odur ki, bu istiqamətdə bütün gücünüzü səfərbər edin. Nahardan sonra ağır fiziki işlərdən, nabələd adamlarla danışıqdan yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Çinli milyoner maşın oğurluğu edir



**Çində yaşayan milyoner iş adamı maşın oğurluğuna görə çıxarıldığı məhkəmədə qəribə ifadələr verərək hər kəsi şoka salıb. O, məşhur biznesmen Cheng Lixin maşın oğurluğunu depressiyaya düşdüyü və yata bilmədiyi üçün etdiyini deyib. Elektrik malları sataraq ildə 3 milyon dollar qazanan Cheng hakimə “İlk maşını oğurladıqdan sonra iştaham düzəldi. Yuxum da qaydaya düşdü” deyib. Məhkəmənin sonunda Cheng Lixin 8 il müddətinə azadlıqdan məhrum edilib.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.700